Xalqın qəzeti!

# Xalq qəzeti

№ 26 (30995) 11 fevral 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – ABŞ Strateji Tərəfdaşlıq Xartiyası daha böyük gələcəyə mötəbər qapı açır

## Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri

### Rəsmi qarşılanma mərasimi



Səhifə ⇨ 2

### Azərbaycan liderinin ABŞ biznes elitasına strateji açıqlaması



Səhifə ⇨ 5

### Azərbaycanla bağlı dəyişən strategiya



Səhifə ⇨ 7

### Moskva da TRIPP-də iştiraka can atır



Səhifə ⇨ 7

### Azərbaycan ABŞ kapitalına geniş qapı açıb



Səhifə ⇨ 9

### Vaşinqtonla münasibətlərdə müasir texnologiya amili



Səhifə ⇨ 9

## Avropada ayrılan yollar

*Aİ-nin rəqabət qabiliyyəti içəridən "pas atıb"*



**Avropa İttifaqının mövcud siyasi və iqtisadi mənzərəsinə dərindən nəzər saldıqda Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin üzv dövlətlər arasında konsensusun əldə edilməməsi nəticəsində qitənin rəqabət qabiliyyətinin sarsıla biləcəyinə dair son xəbərdarlığı bürokratik bəyanat hesab edilməməlidir. Əksinə, səsləndirilən fikir İttifaqın gələcək taleyini müəyyən edən mühüm strateji diaqnoz kimi qiymətləndirilməlidir.**

*(ardı 6-cı səhifədə)*




Səhifə ⇨ 8

## Brüsseldə etimad böhranı və Münxen güzgüsü

*ABŞ–Aİ gərginliyində Azərbaycanın rasional mövqeyi*

Munich Security Conference msc Münchner Sicherheitskonferenz

**XXI əsrin ikinci rübünə doğru irəlilədikcə qlobal təhlükəsizlik arxitekturasının sarsıldığı, klassik alyans modellərinin yenidən düşünülməli olduğu bir mərhələyə qədəm qoyuruq.**

Sözügedən transformasiyanın mərkəzində Transatlantik münasibətlər dayanır. ABŞ ilə Avropa İttifaqı arasında uzun illər "dəyərlər" üzərində qurulan münasibətlər artıq əvvəlki harmoniyasını itirib. Münxen Təhlükəsizlik Konfransı üçün hazırlanan son hesabat da bu reallığı təsdiqləyir. Hesabata görə, Avropa siyasi elitaları Ağ Evin siyasi xəttini liberal demokratik normalar üçün ciddi risk hesab edir. Əslində, bu yanaşma o qədər də təəccüb doğurmamalıdır. Tramp dövründə Vaşinqtonun "Öncə Amerika" doktrinası, NATO daxilində maliyyə öhdəliklərinə yönələn təzyiqlər, Avropanın təhlükəsizliyinin ABŞ üçün prioritet olmaya biləcəyi barədə açıq mesajlar Brüsseldə və Avropanın aparıcı paytaxtlarında dərin narahatlıq yaradıb. "Qoca qitə" artıq ABŞ-dan strateji asılılığın uzunmüddətli perspektivdə riskli olduğunu anlayır.

*(ardı 6-cı səhifədə)*

## Ünvanlı sosial yardım aztəminatlı ailələrə dövlət qayğısıdır

Səhifə ⇨ 14

### Göydələn sakinlərinin yerdə maşın saxlama dərdi



Səhifə ⇨ 14

### Yoluxmalar artır – qorunma zəruridir



Səhifə ⇨ 15

# Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi







**Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ABŞ-ın Vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Vitse-prezident Cey. Di. Vensə raport verdi.

Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Vitse-prezident Cey. Di. Vensə, Amerika Birləşmiş Ştatları nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin qarşısından keçdi.

Sonda rəsmi foto çəkdirildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın Vitse-prezidenti ilə məhdud tərkibdə görüşü



**Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə məhdud tərkibdə görüşü olub.**

## Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın Vitse-prezidenti ilə geniş tərkibdə görüşü olub



**Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilib.**

Qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi: Hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir. Biz elə indicə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, həmçinin regional inkişafı müzakirə etdik. İndi biz daha geniş kontekstdə dialoqumuzu davam etdirəcəyik.

Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram və əminəm ki, səfər bizim güclü əməkdaşlığımıza daha bir töhfə olacaq. Bir daha xoş gəlmisiniz.

*

**Vitse-prezident Cey. Di. Vens dedi:** Çox gözəl. Prezident Əliyev, bizi qəbul etdiyinizə görə Sizə və Sizin komandanıza təşəkkür edirəm. Burada ABŞ Hökumətinin ən parlaq nümayəndələrindən bəziləri əyləşib. Prezidentimiz Sizə öz salamlarını, xoş arzularını çatdırır və tərəfdaşlığınız üçün Sizə minnətdardır. Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır. Bilirəm ki, Prezident Tramp bununla çox qürur duyur, çünki o, Sizin ölkənizə, həm də Ermənistana heyrandır. Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram.

Bilirəm ki, o, aranızdakı tərəfdaşlığa və dostluğa, rəhbər heyətlər və administrasiyalarımız arasında münasibətlərə görə çox minnətdardır. Burada olmaq çox xoşdur. Düşünürəm ki, bizim çox maraqlı söhbətlərimiz olacaq. Əlbəttə ki, biz Strateji Tərəfdaşlıq Xartiyasını imzalayacağıq və mən bunu səbirsizliklə gözləyirəm.

Bu, ötən il bir çox nailiyyətləri olan dostlar arasında baş tutan yaxşı bir görüşdür və hesab edirəm ki, növbəti üç ildə biz daha çox nailiyyət qazanacağıq. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

*

ABŞ-ın Vitse-prezidenti sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu.

Cey. Di. Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını vurğuladı.

Söhbət zamanı TRIPP nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanla ABŞ arasında siyasət, iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, süni intellekt, data mərkəzlərinin yaradılması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" imzalanıb





**Fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.**

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

# Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri

## Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər

**Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**



### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Vitse-prezident.
Hörmətli qonaqlar.
Xanımlar və cənablar.

Cənab Vitse-prezidenti Azərbaycanda rəsmi səfərdə salamlamaq bizim üçün böyük şərəfdir. Bu gün bizim ikitərəfli gündəliyin bir çox məsələlərini əhatə edən əla söhbətimiz oldu. Biz Azərbaycana çox müsbət münasibətə görə Tramp-Vens administrasiyasına olduqca minnətdarıq. Strateji Tərəfdaşlıq haqqında Xartiyanın bu gün imzalanması mərasimi heyətlərimizin altı ay ərzində gördüyü çox gərgin işin təzahürüdür. Altı ay əvvəl Prezident Trampla Vaşinqtonda tarixi görüş və Strateji Tərəfdaşlıq haqqında Xartiyanın tərtib edilməsi üçün işçi qrupunun yaradılması haqqında sənədin imzalanması ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır.







Bizim üçün dünyanın ən qüdrətli ölkəsi – Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik.

Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq. Biz Azərbaycan vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə nəinki bütün məhdudiyyətləri qaldırmışıq, o cümlədən özümüz Ermənistana neft məhsullarının təchizatına başlamışıq. Beləliklə, ticarətin və əməkdaşlığın başlanğıcı reallaşır. Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu – TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir. Beləliklə, regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir. Bu gün Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur.

Əziz qonaqla imzaladığımız Xartiyada əməkdaşlığımızın müxtəlif istiqamətləri əks olunur. Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik. Bu gün Azərbaycan öz təbii qazı ilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Onların 11-i NATO-nun üzvü, ABŞ-ın müttəfiqidir.

Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu, həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, Vitse-prezident Vensin bugünkü səfəri imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir. Cənab Vitse-prezident, xoş gəlmisiniz.

*

Sonra ABŞ-ın Vitse-prezidenti bəyanatla çıxış etdi.

### Vitse-prezident Cey. Di. Vensin bəyanatı

– Təşəkkür edirəm Prezident Əliyev. Mən ABŞ Prezidentinin şəxsən Sizə, eləcə də Azərbaycan xalqına ən səmimi salamlarını çatdırmaq istəyirəm. Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur. Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-ın hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar. Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik.

Düşünürəm ki, Prezident Trampın və Prezident Əliyevin rəhbərliyi ilə daha güclü və daha yaxşı münasibətlər qurulacaq. Burada - Azərbaycanda danışmaq və elan etmək üçün çox məsələlər var.



Fikrimcə, biz burada baş verən bəzi əla məsələlər haqqında bütün günü danışa bilərdik. Ərazi sularınızın qorunması ilə bağlı Azərbaycana bəzi yeni qayıqları göndərəcəyik. Biz fərəhlə elan edirik və düşünürəm ki, mən Azərbaycanın iki hissəsini birləşdirəcək Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu ilə bağlı gələn ilk şəxs oldum.

Ümidimiz Azərbaycan ilə Ermənistan arasında həqiqətən inanılmaz sülh sazişinin dayanıqlı olmasını mümkün edəcək iqtisadi, təbii sərvətlər, əsas minerallarla bağlı əməkdaşlığın qurulmasıdır. Bilirik ki, toqquşmanın qarşısını alacaq və müharibələrə imkan verməyəcək mühüm məsələlərdən biri iki xalq arasında qarşılıqlı mədəni mübadilələrdir. Onlar birgə çalışanda böyük əmin-amanlıq yaranır və bir-biri ilə mübarizə aparmır.

Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz sülh sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir. Bu məsələlərdə ABŞ Prezidenti xarici siyasətimizi qurur. Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!





Fikrimcə, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-ın iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar.

Düşünürəm ki, bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək.

Şəxsən öz tərəfimdən qeyd edim ki, mən burada olmaqdan çox şadam. Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir.

Həmçinin birincisi, burada yeməklər çox ləziz olmalıdır. İkincisi isə ölkə başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir. Bir az sonra biz yeməkləri dadacağıq və əminəm ki, o da ləziz olacaq.

İcazə verin, həmçinin qeyd edim ki, ikinci xanım və mən bu gün axşam ziyafətdə iştirak etməkdən çox məmnunuq. Belə başa düşürəm ki, Azərbaycanın Birinci vitse-prezidenti Prezidentin həyat yoldaşıdır və ümid edirəm ki, bu, ikinci xanımı hər hansı başqa bir fikrə gətirmir. Mən bunları şəxsən öz tərəfimdən, eləcə də böyük xalqlarımızın dostluğu baxımından söyləmək istəyirəm. Burada olmaqdan çox böyük şərəf hissi duyuram və müzakirəni davam etdirməkdən çox məmnunam.

Tanrı sizi qorusun. Çox sağ olun.

# Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında xartiya

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti:

1. İkitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyirlər;

2. 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumundan çıxış edirlər;

3. Regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqlarının əhəmiyyətini təsdiqləyirlər;

4. Diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlərini vurğulayırlar;

5. Strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyətini təsdiqləyirlər.

**Bölmə I: Regional Bağlantılar, o cümlədən Enerji, Ticarət və Tranzit**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və data bağlantısı; ticarət və tranzitin asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika; və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Onlar 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq iştirakçı ölkələrə beynəlxalq və ölkədaxili bağlantı üçün qarşılıqlı faydaları təmin etməklə, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları "Əsrin müqaviləsi", Cənub Qaz Dəhlizi kimi layihələrin həyata keçirilməsi ilə nəticələnmiş və sıx əməkdaşlıq sayəsində hər iki tərəfə və daha geniş regiona fayda vermiş Azərbaycan-ABŞ münasibətlərinin məhsuldar tarixinə əsaslanaraq, ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətindədirlər. Bu məqsədlə:

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycan Respublikasının strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları mülki nüvə əməkdaşlığını dərinləşdirmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kritik mineralların Orta Dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər.

**Bölmə II: İqtisadi Sərmayələr, o cümlədən Süni İntellekt (AI) və Rəqəmsal İnfrastruktur**

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi artımı gücləndirmək, sərmayələri təşviq etmək və ikitərəfli biznes mühitini inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının qlobal iqtisadiyyata daha da inteqrasiya etmək və Xəzər regionu üçün enerji, ticarət, data, maliyyə, nəqliyyat və logistika şəbəkəsi kimi mövqeyini gücləndirmək səylərini alqışlayır;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları özəl sektorun fəal iştirakı ilə ikitərəfli və regional iqtisadi, ticarət və sərmayə əməkdaşlığını inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları AI tərəfdaşlıqlarının inkişaf etdirilməsi üzrə əməkdaşlığı genişləndirmək və müvafiq hallarda kosmik sənaye sahəsində əməkdaşlığı və Azərbaycan Respublikasında özəl sektorla əməkdaşlıq ilə AI data mərkəzlərinin inkişafı da daxil olmaqla rəqəmsal infrastruktura sərmayə qoyuluşunu təşviq etmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları uğurlu beynəlxalq təcrübələrə əsaslanaraq, özəl müəssisə kapitalını təşviq etməyə, texnoloji inkişafı erkən mərhələdə riskdən azad etməyə və kommersiyalaşmanı sürətləndirməyə yönəlmiş birgə Tədqiqat və İnkişaf (R&D) dəstək alətləri, innovasiya körpü platformaları, eləcə də kibertəhlükəsizlik və süni intellekt sahəsində sektorəsaslı təşəbbüslər kimi məxsusi mexanizmlərin yaradılmasını araşdırmaq niyyətindədirlər;

6. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları inkişafda olan texnologiyaların, platformaların və biznes təcrübələrinin tətbiqində uğurlu təcrübələri bölüşmək və texniki yardım göstərmək, dəstəkləyici tənzimləyici mühitə əsaslanaraq Azərbaycan Respublikasında istedadların inkişafı və bacarıqlı texnoloji işçi qüvvəsinin artımı üçün tərəfdaşlığı gücləndirmək və transsərhəd və Trans-Xəzər rəqəmsal bağlantılar üçün sərmayələri təşviq etmək niyyətindədirlər;

7. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasında rəqəmsal infrastrukturun inkişafı və AI tətbiqi üçün birgə tədqiqatı, inkişafı, kommersiyalaşmanı, texnologiyanın mühafizəsini və qarşılıqlı müəyyən edilmiş şərtlər əsasında, hüquqi və tənzimləyici çərçivələrə uyğun olaraq texnologiyaların könüllü ötürülməsini dəstəkləmək məqsədilə hökumətlərarası səviyyədə və dövlət-özəl tərəfdaşlıqları vasitəsilə əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə III: Təhlükəsizlik Əməkdaşlığı**

Cənubi Qafqazda sülh Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının ortaq marağındadır və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təhlükəsizlik əməkdaşlığı hər iki dövlətə, eləcə də beynəlxalq və regional sülh və təhlükəsizliyə fayda verir. Birləşmiş Ştatlar Azərbaycan qüvvələrinin beynəlxalq və regional təhlükəsizliyi irəlilətmək üçün Birləşmiş Ştatlar və koalisiya tərəfdaşları ilə birlikdə xidmət etdiyini nəzərə almaqla, Azərbaycanın beynəlxalq sülhməramlı səylərə verdiyi töhfələri yüksək dəyərləndirir.

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları müdafiə sənayesi məhsullarının satışı da daxil olmaqla, müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları terrorizm təhdidinə qarşı birgə mübarizə aparmaq öhdəliklərini nəzərə alaraq, mövcud antiterror əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqları artırmaq məqsədilə əməkdaşlıq etmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının mina və digər partlayıcı maddələrlə çirklənmə səbəbindən üzləşdiyi ciddi çətinlikləri nəzərə alaraq, maliyyə dəstəyi və texnologiya ötürülməsi vasitəsilə humanitar minatəmizləmə sahəsində potensialın artırılmasında əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə IV: İnstitusional Çərçivə və Tətbiq**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları bu Xartiyadan irəli gələn öhdəliklərini yerinə yetirməklə bağlı ortaq niyyəti qəbul edərək mövcud Strateji Tərəfdaşlıq çərçivəsinin bir hissəsi kimi, iqtisadiyyat və ticarət; enerji; bağlantılar, AI və rəqəmsal inkişaf; təhlükəsizlik və müdafiə daxil olmaqla, əməkdaşlıq sahələri üzrə İşçi Qrupları yarada bilərlər.

Müvafiq İşçi Qrupları hazırkı Xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hazırkı Xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüşmək niyyətindədirlər və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformaları yarada bilərlər.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**

**Amerika Birləşmiş Ştatları**
**Hökuməti adından**

# Bakı–Vaşinqton strateji əməkdaşlığında tarixi "ilk"lər

## *ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfərindən doğan nikbinlik*

**ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vensin Bakıya səfəri Azərbaycan-Amerika münasibətləri baxımından tarixi hadisədir. Cənab Vens Birləşmiş Ştatlardan ölkəmizə gəlmiş ən yüksək vəzifəli dövlət rəsmilərindəndir. Buna qədər, yəni müstəqillik dövründə – 2008-ci ildə Azərbaycana ilk dəfə səfər edən Corc Buş administrasiyasının vitse-prezidenti Dik Çeyni olub.**

ABŞ Vitse-prezidentinin Azərbaycana gəlişi ölkəmizlə Amerika arasında münasibətlərin ən yüksək səviyyəyə çatdığı bir vaxtda reallaşır. Səfəri məxsusi edən ilk məqam məhz bundan ibarətdir. Vens Azərbaycana Cənubi Qafqazda sülh gündəminin hakim rol oynamağa getdiyi bir zamanda təşrif buyurub. Bu amil də onun səfərinin məxsusiliyini vurğulayan cəhətlərdən önəmlisidir.

Eyni zamanda, onu da demək lazımdır ki, cənab Vens Azərbaycana Cənubi Qafqaz siyasi platformasında tamamilə yeni bir mərhələnin – sülh gündəminin hakim kəsildiyi bir dövrdə gəlib. Nəzərə alaq ki, bu mərhələdə Birləşmiş Ştatların – ölkə Prezidenti Donald Trampın müstəsna rolu, fövqəladə təşəbbüskarlıq qabiliyyəti var.

Məlum olduğu kimi, Bakı və İrəvan uzun müddətdir davam edən münaqişəyə məhz Vaşinqtonda son qoydular. Bu baxımdan, ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderləri arasında imzalanmış Birgə Bəyannaməni vurğulamaq mümkündür. O bəyannamə ki, Birləşmiş Ştatlar Prezidenti Trampın şahid imzası ilə ərsəyə gəlib və ABŞ-ın fövqəladə təşəbbüskarlığının sülh məntiqinin bariz göstəricisidir.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar. Vensin Bakı səfərində sözügedən Xartiya imzalandı. Qeyd edək ki, bu da bir ilkdir. Sənəd ABŞ-la ölkəmiz arasında ərsəyə gəlmiş, konkret olaraq, Azərbaycanın paytaxtında imzalanmış ən yüksək səviyyəli sənəd kimi də tarixə düşdü.

Əslində, Vensin Bakıya səfəri gedişində Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması bir qədər gözlənilməz oldu. Yəni, qısa müddət ərzində belə bir ali səviyyəli sənədin imzalanması adi məsələ sayıla bilməz. Tam aydındır ki, hər iki dövlət mahiyyətində davamlı inkişaf və əməkdaşlıq amillərinin dayandığı Xartiya yolunda, kifayət qədər böyük səylər göstəriblər. Bu, sənədin strukturundan və məzmununun əhatəliyindən də aydın görünür. Prezident İlham Əliyevin fikirlərinə nəzər salaq: "Hörmətli qonaqla imzaladığımız sənəddə bizim əməkdaşlığımızın müxtəlif istiqamətləri var. Biz, həmçinin təhlükəsizliklə bağlı əməkdaşlığımızı davam etdirəcək, antiterror əməliyyatlarında əməkdaşlıq edəcəyik. Biz, həmçinin enerji təhlükəsi ilə bağlı məsələlərdə işbirliyi quracağıq. Hazırda Azərbaycan öz təbii qaz ehtiyatları ilə 16 ölkənin enerji təhlükəsizliyinə töhfə verir, onlardan 11-i NATO-nun üzvləridir və ABŞ-ın müttəfiqləridir".

Prezident İlham Əliyevin diqqətə çatdırdığımız fikri fonunda amerikalı dövlət rəsmisinin bildirdiyi məqamlar da nikbinlik yaradır: "Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək".

Bəli, Vensin ölkəmizə səfəri və səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin möhkəmlənməsi baxımından əlamətdar hadisədir. Bu hadisə ölkəmizin Orta Dəhlizin mərkəzinə, enerji və kritik resurs qovşağına çevrilməsinə, regional rəqəmsal platforma kimi təqdimatına, regional sülh, Naxçıvan bağlantısı və post-münaqişə reallıqlarını dolayı, amma aydın şəkildə daha da legitimləşdirməsinə imkan verir. Xartiyanın təhlükəsizlik əməkdaşlığı balanslı və ölçülüdür ki, bu amil regionda maraqlı güclər üçün risk yaratmır.

"Tramp marşrutu nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, eyni zamanda, çox etibarlı, təhlükəsiz qaydada böyük daşımalar dəhlizinə çevriləcək. O, Azərbaycan ərazisi, Ermənistan vasitəsilə Asiyanı Avropa ilə birləşdirəcək və digər qonşular da burada iştirak edəcəklər". Bu fikri də Prezident İlham Əliyev Vitse-prezident Ceyms Devid Vensla mətbuata birgə bəyanatında bildirib. Dövlətimizin başçısı sözügedən marşrutun regionda sülhü gücləndirəcəyinə dair əminliyini ifadə edib.

Tam aydındır ki, Birgə Bəyannamənin "Tramp marşrutu" egidası Vensin Azərbaycana səfəri ilə daha da möhkəmləndi. Deməli, regiondakı sülh təşəbbüslərinin daha da güclənəcəyini də vurğulamaq mümkündür. Prezident İlham Əliyevin bildirdiyi də məhz budur: "Bağlantılar, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi ilə biz sülhə, inkişafa və əməkdaşlığa regionda növbəti töhfə verəcəyik".

Ümumən, Vensin Bakıya səfəri gedişində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası və verilmiş bəyanatlar Azərbaycan–ABŞ münasibətlərinin tamamilə yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunun bariz göstəricisidir. Şübhəsiz, səfərin ayrı-ayrı detalları ətrafında da geniş fikirlər yürüdüləcək, rəylər ifadə olunacaq. Başlıca məqam əvvəldə vurğuladığımız tarixdəki ilk amilinin, kifayət qədər, nikbin ovqat yaratmasıdır. Ümid edək ki, bu nikbinlik Bakı–Vaşinqton münasibətlərinin perspektivləri üçün də başlıca paradiqmaya çevriləcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Amerika Birləşmiş Ştatlarının (ABŞ) Vitse-prezidenti Cey. Di. Vens fevralın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ABŞ-ın Vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vitse-prezident Cey. Di. Vensi Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

## A.İ.Mursaqulovun Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azər İsmayıl oğlu Mursaqulov Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 fevral 2026-cı il**

## R.S.İsmayılovun Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Sahil oğlu İsmayılov Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 fevral 2026-cı il**

# Azərbaycan və ABŞ arasında ticarət və strateji əməkdaşlıq müzakirə edilib



**Fevralın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Nümayəndə heyətinin tərkibinə 31 şirkətin rəhbər şəxsləri və nümayəndələri daxildir.**

Görüş zamanı Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq əlaqələrinin təsis edilməsi istiqamətində atılan addımlar, ölkələrimiz arasında enerji, ticarət, nəqliyyat, logistika, TRIPP marşrutu da daxil olmaqla regional bağlantılar, bir sıra əhəmiyyətli sahələrdə iqtisadi sərmayə kimi istiqamətlərdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, planlar və ABŞ-ın özəl sektoru ilə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Vaşinqton Sülh Sammitindən sonra Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib, imzalanacaq Xartiyanın münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Bundan əlavə, görüşdə Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, bərpaolunan enerji resurslarının inkişafının əhəmiyyəti, Orta Dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları, habelə digər qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda İranın milli bayramı qeyd olunub

**Fevralın 10-da İranın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - İslam İnqilabının 47-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.**

İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu bildirib ki, dost, qardaş və qonşu Azərbaycan Respublikası ilə münasibətlərin inkişafı İran İslam Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, iki ölkə arasındakı əlaqələr ortaq tarixi, mədəni, dini və dil yaxınlığına, eləcə də dərin qohumluq bağlarına əsaslanır və qarşılıqlı hörmət, mehriban qonşuluq və ortaq maraqlar prinsipləri üzərində qurulub. İran və Azərbaycan xalqları əsrlər boyu eyni coğrafi-mədəni məkanda formalaşaraq sıx və davamlı münasibətlər yaradıb.

Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev bildirib ki, Azərbaycan–İran münasibətləri mehriban qonşuluq, suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ardıcıl şəkildə inkişaf edir. Onun sözlərinə görə, ikitərəfli əlaqələrin möhkəmlənməsində hər iki ölkə prezidentlərinin nümayiş etdirdiyi siyasi iradə mühüm rol oynayır. Yüksəksəviyyəli qarşılıqlı səfərlər və müntəzəm dialoq isə münasibətlərin dinamik inkişafına və əməkdaşlıq gündəliyinin genişlənməsinə əhəmiyyətli töhfə verir.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

İclasda Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 79-cu maddəsinin şərh edilməsinə dair Baş Prokurorluğun sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun martın 10-na təyin olunmuş iclasında baxılacaq.

# Azərbaycan liderinin ABŞ biznes elitasına strateji açıqlaması

**Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 9-da ABŞ Ticarət Palatasının yüksək səviyyəli nümayəndə heyəti ilə görüşdə səsləndirdiyi fikirlər Azərbaycanın postmünaqişə dövründə formalaşdırdığı yeni xarici siyasət arxitekturasının mahiyyətinin cəmlənmiş ifadəsidir. Çıxış həm iqtisadi diplomatiya, həm qlobal enerji təhlükəsizliyi, həm də regional sabitlik baxımından çoxqatlı siyasi məna daşıyır.**



Prezident İlham Əliyevin çıxışında “etimad” anlayışını mərkəzi kateqoriya kimi önə çəkməsi Azərbaycanın son otuz ildə keçdiyi siyasi-institusional transformasiyanın məntiqi nəticəsidir. 1990-cı illərin əvvəllərində müstəqilliyini yeni bərpa etmiş, daxili siyasi parçalanma, iqtisadi tənəzzül və xarici təhlükəsizlik riskləri ilə üz-üzə qalan Azərbaycan beynəlxalq sistemdə daha çox risk daşıyan, proqnozlaşdırılması çətin aktor kimi qəbul edilirdi. Həmin mərhələdə ölkənin əsas problemi institusional etibarlılığın olmaması idi. Beynəlxalq münasibətlər nəzəriyyəsində qəbul olunduğu kimi, zəif dövlətlərin əsas defisiti güc yox, etimad kapitalıdır.

Məhz bu kontekstdə Prezidentin “etimad illər boyu qurulur və bir səhv addım onu məhv edə bilər” fikri Azərbaycan xarici siyasətinin strateji fəlsəfəsini açıq şəkildə ifadə edir. Burada söhbət uzunmüddətli reputasiya siyasətindən gedir. Azərbaycan özünü beynəlxalq aktorlar üçün qısa müddətli üstünlüklər və ya müvəqqəti güzəştlər təklif edən tərəfdaş kimi deyil, qəbul etdiyi öhdəlikləri dəyişməyən, müqavilə mədəniyyətinə sadiq və davranışı əvvəlcədən proqnozlaşdırıla bilən dövlət kimi mövqeləndirib. İlham Əliyevin vurğuladığı “qısamüddətli taktiki qazanc naminə strateji reputasiyadan imtina edilməməsi” prinsipi Azərbaycanın klassik resurs diplomatiyasından institusional etibarlılıq diplomatiyasına keçidini göstərir.

Qərb biznes dairələri üçün bu amil xüsusilə fundamental xarakter daşıyır. Beynəlxalq kapital axınları daha çox siyasi risklərin idarə olunma səviyyəsinə həssasdır. Siyasi qeyri-sabitlik, normativ bazanın tez-tez dəyişməsi, selektiv yanaşma və institusional zəiflik investisiyalar üçün ən böyük çəkindirici amillərdir. Azərbaycan isə ardıcıl olaraq göstərməyə çalışır ki, daxili siyasi proseslərdən və regional gərginliklərdən asılı olmayaraq, qəbul edilmiş iqtisadi və hüquqi öhdəliklər toxunulmazdır.

Məhz bu kontekstdə “normativ ardıcıllıq” anlayışı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan beynəlxalq şirkətlər və tərəfdaş dövlətlər üçün gələcək perspektivə dair aydın çərçivə yaradır. Hüquqi öhdəliklərin sistemli şəkildə icra olunması, dövlətin arbitraj rolunu saxlaması və siyasi müdaxilənin minimuma endirilməsi ölkənin etimad kapitalını institusional səviyyədə möhkəmləndirir.

*

Prezident İlham Əliyevin “Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq” fikri regional geosiyasətdə şüurlu şəkildə qurulmuş strateji identitetin ifadəsidir. Tarixi təcrübə sübut edir ki, Cənubi Qafqaz kimi geostrateji baxımdan həssas regionlarda yerləşən dövlətlər üçün əsas seçim ya geosiyasi tampon rolunu qəbul etmək, ya da rəqabətin məntiqini əməkdaşlıq platformasına çevirməkdir. Azərbaycan ikinci yolu seçib. Burada əsas məqam ondan ibarətdir ki, Azərbaycan maraqların kəsişdiyi məkan anlayışını ön plana çıxararaq, qarşıdurma potensialını əməkdaşlıq imkanına transformasiya etməyə çalışır. Prezidentin mesajının semantik dəyəri məhz buradadır: Azərbaycan regionda gərginliyi neytrallaşdıran mexanizm rolunu oynamaq niyyətindədir.

Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan eyni zaman kəsi-



yində bir-biri ilə rəqabət və ya açıq qarşıdurma vəziyyətində olan dövlətlərlə strateji tərəfdaşlıq formatları qura bilib. Əgər dövlət bir tərəfin maraqlarını digərinin hesabına açıq şəkildə prioritetləşdirsəydi, bu cür paralel tərəfdaşlıqlar mümkün olmazdı. Eyni zamanda, fərqli təhlükəsizlik və siyasi bloklara mənsub ölkələrlə əməkdaşlıq Azərbaycanın xarici siyasətində bloklaşmadan kənar rasional praqmatizmin üstünlük təşkil etdiyini göstərir. Əgər balanslaşdırma adətən güclər arasında tarazlığı qorumağa yönəlirsə, Azərbaycanın tətbiq etdiyi model daha çox funksional qarşılıqlı asılılıq yaratmağa əsaslanır. Yəni tərəflər arasında əlaqələr elə qurulur ki, Azərbaycanın sabitliyi və əməkdaşlıq mühiti bütün iştirakçılar üçün obyektiv marağa çevrilir.

*

Prezident İlham Əliyevin ABŞ-la münasibətlərin “tamamilə əla dövrə qədəm qoyması” barədə səsləndirdiyi fikir Vaşinqton–Bakı xəttində baş verən struktur xarakterli dəyişikliklərin siyasi ifadəsi kimi dəyərləndirilməlidir. Prezidentin bəyanatı iki ölkə arasında münasibətlərin mahiyyətinin yenidən müəyyənləşdirildiyini, əvvəlki mərhələlərdə mövcud olmuş asimmetrik və epizodik əməkdaşlıq modelinin daha funksional və dayanıqlı formatla əvəzləndiyini göstərir.

ABŞ Ticarət Palatası ABŞ xarici iqtisadi siyasətinin formal diplomatiyadan kənar, lakin real təsir gücünə malik alətlərindən biridir. Onun vasitəsilə formalaşan əlaqələr siyasi administrasiyaların dəyişməsindən asılı olmayaraq davamlılıq qazanır. Mühüm məqam odur ki, Azərbaycan ABŞ üçün qlobal ticarət və investisiya şəbəkəsində funksional regional mərkəz kimi nəzərdən keçirilir. Enerji faktoru münasibətlərin təməlində qalmaqla yanaşı, artıq kifayət edən amil deyil. Nəqliyyat-logistika marşrutları, rəqəmsal infrastruktur, regionlararası bağlantılar və yeni bazarlara çıxış imkanları Azərbaycanın ABŞ biznes dairələri üçün strateji cəlbediciliyini artırır. Bütün bu dəyişikliklər Vaşinqtonun regiona baxışında da transformasiyanı əks etdirir. Azərbaycan geniş Avrasiya məkanında iqtisadi əlaqələrin şaxələndirilməsi baxımından açar mövqeyə malik tərəfdaş kimi qiymətləndirilir.

İlham Əliyevin Avropa İttifaqı və NATO üzvü olan dövlətlərin enerji təhlükəsizliyində Azərbaycanın roluna xüsusi vurğu etməsi Bakının beynəlxalq mövqeyinin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Prezidentin mesajı Azərbaycanın artıq yalnız regional enerji ixracatçısı statusunu aşaraq, qitə miqyaslı enerji təhlükəsizliyi arxitekturasının ayrılmaz elementi kimi formalaşdığını təsdiqləyir. İyirmi bir ölkənin enerji balansında mühüm yer tutmaq ciddi siyasi çəkisi olan struktur faktordur. Enerji asılılığının mövcud olduğu müasir beynəlxalq sistemdə belə bir rol avtomatik olaraq təsir imkanlarını genişləndirir.

*

Prezident İlham Əliyevin Ermənistan–Azərbaycan münaqişəsi kontekstində səsləndirdiyi fikirlər postmünaqişə dövrünün siyasi məzmununu formalaşdıran əsas narrativ xətti aydın şəkildə ortaya qoyur. Beynəlxalq münasibətlər praktikasında qalib tərəfin status-kvonu diktə etməsi və ya uzunmüddətli təzyiq mexanizmlərinə üstünlük verməsi kifayət qədər geniş yayılmış modeldir. Azərbaycan isə fərqli yanaşma sərgiləyərək qalibiyyətin legitimliyini sülh təşəbbüsü ilə möhkəmləndirməyi seçir. Azərbaycanın qalib tərəf olduğu halda ilk sülh addımını atan dövlət kimi təqdim olunması beynəlxalq auditoriya üçün çoxqatlı siyasi mesaj daşıyır. Digər tərəfdən isə, münaqişənin həllindən sonra revanşizm və ya təcridetmə siyasətinə deyil, regional sabitliyin institusionallaşdırılmasına üstünlük verildiyini göstərir.

Sülh narrativinin bu şəkildə qurulması həm də Azərbaycanın postmünaqişə mərhələsində strateji məsuliyyət götürdüyünü göstərir. Müasir beynəlxalq sistemdə hərbi qələbə artıq yekun mərhələ deyil; əsas məsələ qələbədən sonrakı siyasi davranışdır. Azərbaycan bu mərhələdə özünü regional sabitliyin təminatçısı kimi mövqeləndirməklə, geniş geosiyasi məkanda etibarlı tərəfdaş statusunu möhkəmləndirir.

2025-ci il avqustun 8-də sülhün əldə olunmasının ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə qeyd edilməsi isə ayrıca strateji kontekst yaradır. Burada ABŞ regional nizamın formalaşmasında maraqlı olan qlobal aktor kimi təqdim olunur. Azərbaycan üçün bu, sülh prosesinin beynəlxalq legitimliyinin artırılması və regional balansın qorunması baxımından mühüm üstünlükdür. Eyni zamanda, bu mesaj Azərbaycanın xarici siyasətində çoxşaxəli balanslaşdırma modelinin davam etdiyini göstərir. Bakı bir tərəfdən regional təşəbbüskarlığını qoruyur, digər tərəfdən isə qlobal güclərin prosesə cəlb olunmasını legitimlik və davamlılıq aləti kimi istifadə edir

Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin bu görüşdə verdiyi mesajlar Azərbaycanın qlobal siyasi-iqtisadi arxitekturada artan çəkisinin və postmünaqişə dövründə formalaşdırdığı yeni strateji kimliyin açıq manifesti kimi qiymətləndirilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Prezident İlham Əliyevin baxışları və Azərbaycanın fərqli dövlət ampluası

## *Yaxud dövlətimizin başçısının “dünya nəhəngləri”nə 2 başlıca mesajı*



**“Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var. Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq”. Prezident İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən belə deyib.**

Dövlətimizin başçısı həmin görüşdə, həmçinin bir vacib məqama da toxunaraq vurğuladı ki, Azərbaycandan 10 dəfə çox neft və qaz istehsal edən ölkələr media hücumlarına məruz qalmayıblar: “Mənim mesajım ondan ibarət idi ki, ölkələr karbohidrogen ixracından gələn gəlirləri necə istifadə etdiklərinə görə dəyərləndirilməlidirlər”.

Arayış verək ki, yazımızda diqqətə çatdırdığımız bu iki məqamdan irəli gələn məsələləri vurğulayacaq və Azərbaycanın yaratdığı fərq barədə söz açacağıq. O fərq ki, mahiyyətcə ölkəmizin beynəlxalq miqyasdakı nüfuz təminatıdır. O fərq ki, Prezident İlham Əliyev onun ayrı-ayrı epizodlarını ABŞ-ın, bütövlükdə, dünyanın ən aparıcı şirkətlərinin təmsilçilərinin nümayəndələrinin diqqətinə kifayət qədər qətiyyətli və detallı şəkildə çatdırdı. Dövlətimizin başçısının dilə gətirdiyi fikirlərlə, eyni zamanda, Azərbaycanla əməkdaq formuluna dair geniş manifest səsləndirdiyini də deyə bilərik. Yeri gəlmişkən, ölkəmizin liderinin manifest xarakterli baxışlarında daha bir məqam var ki, irəlidə onun barəsində də söz açacağıq.

Qeyd edək ki, ABŞ Ticarət Palatası rəsmisi Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətininin ölkəmizə gəlişinin Birləşmiş Ştatların vitse-prezidenti Ceyms Devid Vensin Bakıya səfəri ərəfəsinə təsadüf etməsi əlamətdar səciyyə daşımaqdadır. Bu məqamı Prezident İlham Əliyev də vurğuladı: “Bildiyiniz kimi, biz hazırda ikitərəfli əlaqələrin çox ümidverici və fəal olan yeni mərhələsinə qədəm qoyuruq və əlbəttə, ABŞ Vitse-prezidentinin səfəri ərəfəsində sizin nümayəndə heyətinizin gəlişi də olduqca əhəmiyyətlidir. Çünki bizim təmaslarımızın bir hissəsi biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyimizin tərkib hissəsi olan bir sıra digər məsələlər üzərində cəmləşib”.

Bəli, Prezident İlham Əliyev bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədlərinin, sazişlərin və bəyannamələrin mövcudluğunu, lakin həmin ölkələrdən bəzilərinin bir-biri ilə yaxşı münasibətdə olmadığını xatırlatması, habelə Azərbaycanın heç vaxt toqquşma yeri olmayacağını vurğulaması kifayət qədər ciddi mesajdır. Bu, həm ölkəmizin münasibətlərdə prioritet saydığı yanaşmaların bəyan edilməsi, həm də Birləşmiş Ştatlarla ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış sənədin Strateji Tərəfdaşlıq Xartiyası məntiqində dayanan məsələlərin açıqlanmasıdır. Başqa sözlə desək, dövlətimizin başçısı fikirləri ilə, eyni zamanda, hazırlanması üçün İşçi Qrupunun formalaşdırılmasına dair razılığın əldə olunduğu Xartiyanın strukturunu diqqətə çatdırdı. O strukturu ki, mürəkkəb siyasi sistematikaya malik Cənubi Qafqaz coğrafiyasında tarixi və müəyyən mənada əbədi sayılacaq maraqları olan ölkələrin mənafelərinə, qətiyyən, zidd deyil, risk yaratmır.

Dolayısı ilə Prezident İlham Əliyev bölgənin gələcək inkişaf trayektoriyasında digər ölkələrə qarşı demarş ritorikasının ola bilməyəcəyinə dair aydın mesaj verdi. Ölkəmizin liderinin keçmişə ekskursu da həmin mesajı dolğunlaşdırmaq niyyətindən qaynaqlanırdı. Bu yerdə Gürcüstanın eks-prezidenti Mixeil Saakaşvilinin bir fikrini diqqətə çatdıraq. M.Saakaşvili Ermənistanın Qərbyönümlü xətti barədə söz açarkən həmin xətti boğazdanyuxarı və pafosa hesablanmış şəkildə təqdim edənlərə cavab olaraq, ilk dəfə Azərbaycanın Cənubi Qafqaza Qərb kapitalını gətirdiyini vurğulamışdı. O da bu fikri səsləndirərkən keçmişə üz tutmuşdu. O keçmişdə Ulu öndər Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” var.

O müqavilə ki, fevralın 9-da Prezident İlham Əliyevlə görüşdə iştirak edən xarici şirkətlərin, o cümlədən, ABŞ şirkətlərinin bir çoxu məhz onun sayəsində Cənubi Qafqazda qərarlaşmaq və mənfəət əldə etmək imkanı qazanıblar. Baxmayaraq ki, 30 il əvvəl də region haqqında söz açdığımız siyasi mürəkkəblik sxematikasını qoruyurdu. Sadəcə, Heydər Əliyevin məharəti qlobal maraqları uzlaşdırmağa imkan verdi. Nəzərə alaq ki, məhz həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qətiyyətlə demək olar ki, hazırda Cənubi Qafqaz coğrafiyası tamamilə yeni mərhələnin başlanğıcıdır. O mərhələnin ki, TRIPP bağlantı layihəsi kimi dəqiq strukturu var. Azərbaycan 30 il əvvəl bu coğrafiyada beynəlxalq maraqları uzlaşdırdığı kimi, yenə eyni missiyanı icra etməkdədir. Prezident İlham Əliyev isə keçmişin mənfi stereotiplərinin qeydə alınmaması üçün, bir növ, immunitet formalaşdırır. Dövlətimizin başçısının Azərbaycandan 10 dəfə çox neft və qaz istehsal edən ölkələrin media hücumlarına məruz qalmadıqlarını xatırlatması da bundan qaynaqlanır.

Onu da nəzərə alaq ki, müstəqillik illərində ölkəmizə münasibətdə xeyli ədalətsiz yanaşmalar qeydə alınıb. Bu yanaşmalar Azərbaycanın heç vaxt oyun qaydalarını pozmamasına, bütün öhdəliklərin icrasına məsuliyyətlə yanaşmasına rəğmən olub. Hətta, ötən müddətdə Ermənistana xüsusi münasibətin, ölkənin işğalçılıq siyasətinə haqq qazandırmaq motivlərinin mövcudluğunu görmüşük. Təsəvvür edin, Azərbaycanın sayəsində Cənubi Qafqaza ayaq basmış Qərb institutları və şirkətləri ölkəmizi deyil, ərazilərimizə qəsb reallaşdıran məmləkəti üstün tutublar.

Həqiqətən, Azərbaycana qarşı çox ədalətsizliklər olub. Ədalətsizlik müəllifləri ölkəmizi neft gəlirlərini düzgün bölməməkdə ittiham edib və sair cəfəng tezislərə baş vurublar. Bu səbəbdən dövlətimizin başçısı vurğulayır: “Hər kəs görə bilər ki, Azərbaycanda sərvətin bölüşdürülməsi çox ədalətli şəkildə həyata keçirilir”.

Əlbəttə, keçmişin dərslərindən nəticə çıxaran Azərbaycan gələcəyə köklənir. Prezident İlham Əliyevin cənab Çoksinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə dediyi fikirlər, eyni zamanda, gələcəyin manifesti idi. Ölkəmizin liderinin manifest xarakterli baxışları ilə bağlı diqqətə çatdıracağımızı vurğuladığımız daha bir məqam da budur.

Azərbaycana o gələcəyə köklənir ki, orada işğal və təcavüz kimi anti-bəşəri amillər yoxdur. O gələcək ki, onun üfiqlərində ölkəmizin Cənubi Qafqazı qlobal siyasi kataklizmalardan uzaq tutmaq, sülh, inkişaf, tərəqqi və rifah məkanına çevirmək kimi ali niyyəti var. Azərbaycan Birləşmiş Ştatlarla əməkdaşlığa da mövcud prizmadan yanaşır. Ona görə hesab edirik ki, Prezident İlham Əliyevin ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin ölkəmizə səfəri öncəsi verdiyi mesajlar, Ağ Evin yüksək səviyyəli təmsilçisinin Cənubi Qafqaza səfər prioritetinin Azərbaycan seqmentinin formalaşmasında əhəmiyyətli rol oynayacaqdır və oynayıb da.

Yaşadığımız coğrafiyada ölkəmizin prinsipial mövqeyinin nəzərə alınmaması kimi bir durum ola bilməz. Azərbaycanın mövqeyini isə bir daha vurğulayaq: Ölkəmizin hər bir dövlətlə, o cümlədən, ABŞ-la əməkdaşlığı bərabərtərfli əsaslara malikdir. Rəsmi Bakının heç bir formulunda Cənubi Qafqazın tarixi-siyasi düzənini pozmaq kimi niyyəti yoxdur və olmayacaq. Yəni, münasibət müstəvisinə baxışlarımız üçüncü dövlətə və ya qüvvəyə qarşı yönəlməyib. Hərçənd, həmin qüvvə və dövlətlərin də əməkdaşlıqdan fayda götürmək imkanları var.

Azərbaycanın məqsədi, əvvəldə vurğuladığımız kimi, sülh, sabitlik, tərəqqi və rifahdır. Ölkəmizin niyyəti regionda düşmənçilik və ixtilaflar səhifəsini qapatmaqdır. Nəhayət, Azərbaycan irəli sürdüyü təşəbbüslərlə, bütövlükdə, region xalqları üçün fayda və mənfəət düsturunu irəli sürür. Prezident İlham Əliyev fevralın 9-da cənab Çoksinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bu məqamları da vurğulamış oldu və dünyaya Azərbaycanın fərqini son dərəcə əhatəli şəkildə anlatdı.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xarici prodüserlərin Azərbaycanda film çəkməsinə qapı açılır

## *Milli Məclis bəzi qanunlara dəyişiklikləri təsdiqlədi*

**Milli Məclisin dünənki plenar iclasının gündəliyinə 12 məsələ daxil edilmişdi. Gündəlikdəki məsələlərin müzakirəsindən əvvəl deputatlar cari mövzular ətrafında çıxışlar etdilər.**



Deputat Qüdrət Həsənquliyev çıxışında sosial problemlərə toxunaraq son dövrlər gənclərin iş tapmaqda ciddi çətinliklərlə üzləşdiyini qeyd etdi. Bu baxımdan deputat yeni iş yerlərinin açılmasının vacibliyini vurğuladı: “Ölkəmizdə yalnız energetika sektoruna deyil, eyni zamanda, maşınqayırma və yüngül sənayenin inkişafına da investisiyalar yönəldilməlidir. Yeni iş yerlərinin yaradılmasına böyük ehtiyac var. Vətəndaşlar, xüsusilə gənclər iş tapmaqda problemlərlə üzləşirlər”. Q.Həsənquliyev 2023-cü ildən bəri ölkədə kənd təsərrüfatı istehsalında azalmanın müşahidə olunduğunu da diqqətə çatdırdı: “Daxili istehsalın zəifləməsi ərzaq məhsullarının idxalının artmasına səbəb olub. Mövcud vəziyyət kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsini zəruri edir”.

Deputat Razi Həsənquliyev “Qaz təchizatı haqqında” qanuna dəyişiklik edilməsini təklif etdi. Onun sözlərinə görə, dəyişiklik təcili xarakter daşımalıdır ki, vətəndaşlar mülkiyyət sənədi tələb olunmadan yaşayış evlərinə qaz çəkə bilsinlər. Deputat mövcud yanaşmanı tənqid edərək bildirib ki, qaz xətti olduğu halda evlərin isidilməməsi məntiqsizdir: “Qaz göz qabağındadır, amma evin içi buz kimidir. Boru var, qaz var, amma evdə istilik yoxdur. Vətəndaşa deyirik ki, sənədin yoxdur, gözlə. Bəs o insan bu müddətdə necə yaşasın? Qışa deyək ki, bir az gözlə, uşağa deyək ki, üşümə? Yaşlı adama deyək ki, soyuğa dözsün? Bu, real həyatdan qopmuş yanaşmadır”.

Milli Məclisin deputatı Vüqar Bayramov ölkə başçısının yürütdüyü uğurlu daxili siyasətdən və bu prosesin Qarabağda nəticələrindən bəhs etdi: “Yalnız son 2 ildə dövlət büdcəsindən sosial istiqamətə 32,7 milyard manat vəsait ayrılıb. Bu il isə sosial istiqamətə 17,1 milyard manatın ayrılması nəzərdə tutulub. Dünən Prezidentin imzaladığı sərəncamla 1,1 milyona yaxın vətəndaşımızın pensiyaları artırıldı. Bütövlükdə, şanlı Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən 22,1 milyard manat vəsait xərclənib. Artıq işğaldan azad olunan ərazilərimizdə 75 mindən çox vətəndaşımız yaşayır və çalışır”.

*

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İlk olaraq Azərbaycanın daha bir beynəlxalq konvensiyaya qoşulması məsələsi müzakirə edildı. İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə, həmçinin ağır cinayətlərə dair sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsini nəzərdə tutan Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyasının təsdiqi haqqında qanun layihəsi müzakirəyə çıxarıldı.

Layihəni Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev təqdim etdi. O bildirdi ki, Konvensiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, eyni zamanda, ağır cinayətlərə aid sübutların elektron formada toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi çərçivənin formalaşdırılmasıdır.

Qeyd edildi ki, sənəd 2025-ci il oktyabrın 25-də Hanoy şəhərində imzalanıb. Səsvermənin nəticələrinə əsasən, qanun layihəsi qəbul edildi və Azərbaycan BMT-nin “Kibercinayətkarlığa qarşı” Konvensiyasını ratifikasiya edən ilk ölkə oldu.

Daha sonra “Təhsil haqqında” qanuna dəyişiklik edilməsi məsələsi müzakirə edildi. Layihəyə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları dövrdə təhsil haqqı dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

“Patent haqqında” qanuna beynəlxalq təcrübəyə uyğun olaraq bir sıra yeni anlayışların daxil edilməsi təsdiqləndi. Qeyd edildi ki, insanın klonlaşdırılması üsulları və klonu, onun rüşeym xəttinin hüceyrələrinin genetik tamlığının modifikasiyası üsulları, eləcə də insan embrionlarının sənaye məqsədləri üçün istifadəsi patent obyektləri kimi qəbul edilməyəcək. Bununla yanaşı, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikası Qanununa edilən dəyişikliyə əsasən, ölkədə asbestin istifadəsi qadağan edildi. Sənəd müzakirələrdən sonra üçüncü oxunuşda qəbul olundu. Eyni qaydada, Milli Məclis Əmək və Vergi məcəllələrinə, həmçinin “Əhalinin sağlamlığının qorunması haqqında” və “Onkoloji yardım haqqında” qanunlara edilən dəyişiklikləri ikinci oxunuşda qəbul etdi.

Cinayət və Cinayət-Prosessual məcəllələrinə edilən dəyişikliklərə əsasən, cinayət mühakimə icraatı zamanı prosessual sənədlərin elektron formada tərtib edilməsi, elektron qeydiyyatı və elektron dövriyyəsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təsdiqlənəcək. Qeyd olundu ki, kağız daşıyıcıda tərtib olunması nəzərdə tutulan sənədlər gücləndirilmiş elektron imza və sertifikatlaşdırılmış elektron imza ilə göndərilə, saxlanıla və yoxlanıla biləcək.

“Media haqqında” qanuna nəzərdə tutulan dəyişikliyə əsasən, yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərərçəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasına yalnız həmin şəxslərin və onların qanuni nümayəndələrinin yazılı razılığı ilə yol veriləcək. Media subyekti və jurnalist tərəfindən bu kateqoriyaya aid şəxslərin şəxsiyyəti ilə bağlı hər hansı məlumatın onların və qanuni nümayəndələrinin yazılı razılığı olmadan yayılması qadağan ediləcək. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Milli Məclis “Uşaq hüquqları haqqında” yeni qanun layihəsini birinci oxunuşda qəbul etdi. 8 fəsil, 63 maddədən ibarət qanun layihəsinə əsasən, uşaq öz gəlirlərinə (o cümlədən aliment, təqaüd, pensiya, müavinət və s.), vərəsəlik və ya hədiyyə yolu ilə əldə etdiyi əmlaka, habelə onun vəsaiti hesabına əldə olunmuş digər əmlaka mülkiyyət hüququna malik olacaq. Eyni zamanda, hər bir uşağın şəxsi və ailə həyatının sirrinin qorunması hüququ təsbit edilir. Qanunda nəzərdə tutulan hallar istisna olmaqla, uşağın şəxsi və ailə həyatına müdaxilə qadağan ediləcək.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə, video və foto çəkilişinə, səs yazısına və digər oxşar hərəkətlərə məruz qoyula bilməz. Həmçinin uşaqların yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının sirrinin qorunmasına təminat veriləcək.

Bundan başqa, uşaqlara aid fərdi məlumatların dairəsi, eləcə də həmin məlumatların toplanması, emalı, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən ediləcək.Yeni qanun layihəsi uşağın doğumdan sonra qeydiyyatı, ad və vətəndaşlıq hüquqlarını sistemləşdirir. Layihəyə əsasən, hər bir uşağın doğumu Ailə Məcəlləsinə uyğun qeydiyyata alınır və qanunda nəzərdə tutulan istisnalar xaricində Azərbaycan vətəndaşlığı əldə edir. Uşağa ad, ata adı və soyadın verilməsi valideynlərin razılığı əsasında həyata keçirilir, razılıq olmadıqda isə məsələ müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur. Valideynlər olmadıqda və ya atalıq müəyyən edilmədikdə ad və soyadın verilməsi xüsusi qaydalarla tənzimlənir. Qanun layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edildi.

“Kinematoqrafiya haqqında” qanuna edilən dəyişikliyə əsasən, xarici prodüserləri Azərbaycan ərazisində film istehsalına cəlb etmək məqsədilə filmlərin istehsalı üçün çəkilmiş xərclər qismən geri ödəniləcək. “Yol hərəkəti haqqında” və “Avtomobil yolları haqqında” qanunlara edilən dəyişiklərə görə, ödənişli avtomagistrallarda yol hərəkəti üçün maksimum sürət 130 km/saat müəyyən edilir. Hər iki qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Bununla da, Milli Məclisin plenar iclası sona çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Avropada ayrılan yollar

*(əvvəli 1-ci səhifədə)*

Hazırkı məqamda sözügedən bəyanatın aktuallığı hər zamankindən daha kəskin xarakter daşıyır. Asiya və Şimali Amerika qitələrində texnoloji sıçrayışların baş verdiyi dövrdə “qoca qitə”nin qarşısında duran əsas çağırış daxili parçalanma, qərar qəbuletmə mexanizmlərindəki ləngimələr və milli eqoların kollektiv maraqları üstələməsidir.

Ursula fon der Lyayenin rəhbərliyi altında formalaşan və iddialı şəkildə “Geosiyasi Komissiya” adlandırılan strukturun fəaliyyəti dövründə Mario Draginin rəqabət qabiliyyətinə dair hazırladığı və hələ 2024-cü ilin sentyabrında təqdim edilən hesabatı, həmçinin Enriko Lettanın Vahid Bazarın gələcəyinə dair təhlilləri İttifaqın iqtisadi immunitetinin nə dərəcədə zəiflədiyini aydın şəkildə ortaya qoydu. Bu sənədlərdə əks olunan faktlar sübut edir ki, Avropa sənayesi okeanın o tayındakı rəqibi ABŞ və Şərqdəki nəhəng Çinlə müqayisədə məhsuldarlıq baxımından ciddi şəkildə geri qalır. Lakin problemin kökündə siyasi iradənin çatışmazlığı dayanır.

İttifaq daxilindəki fikir ayrılıqları struktur xarakterli çatlardır. Şimalın fiskal intizam tərəfdarı olan “qənaətcil” hökumətləri ilə Cənubun daha çox investisiya və ortaq borclanma tələb edən yanaşması arasındakı uçurum strateji qərarların qəbulunu mümkünsüz edir. Fon der Lyayenin “konsensusun olmaması” ifadəsi məhz Brüsseldəki danışıqlar masalarında illərdir həllini tapmayan, lakin qlobal rəqabətdə Avropanı geri salan iflic vəziyyətinə işarədir.

Mario Draghi tərəfindən hazırlanan strateji sənəddə açıq şəkildə bəyan edilmişdi ki, Avropa iqtisadiyyatının rəqabət qabiliyyətini bərpa etmək naminə illik əlavə olaraq minimum 800 yüz milyard avro investisiyaya ehtiyac duyulur. Ancaq nəhəng maliyyə vəsaitinin hansı mənbələrdən, hansı mexanizmlər vasitəsilə cəlb ediləcəyi məsələsi hələ də qızğın mübahisələrə səbəb olur. Üzv dövlətlərin milli büdcələrindən əlavə vəsait ayırmaq istəməməsi, eyni zamanda, ümumavropa səviyyəsində yeni maliyyə alətlərinin yaradılmasına qarşı çıxması investisiya aclığı yaradır.

Sənaye bazasının aşınması prosesi göz qabağındadır. Enerji daşıyıcılarının qiymətindəki volatillik və ABŞ-la müqayisədə enerji xərclərinin dəfələrlə yüksək olması Avropa sənayesinin "bel sütunu" sayılan kimya, metallurgiya və avtomobil sənayesi kimi enerji tutumlu sahələrin rentabelliyini aşağı salır. Nəticədə, sənaye müəssisələrinin istehsalı azaltması və ya daha ucuz enerji resurslarına, habelə daha əlverişli vergi mühitinə malik regionlara köçürülməsi yəni de-industrializasiya prosesi sürətlənir. Qeyd olunan tendensiya uzunmüddətli perspektivdə Avropanın texnoloji suverenliyini itirməsi və sadəcə qlobal oyunçuların istehsal etdiyi mallar üçün nəhəng istehlakçı bazarına çevrilməsi təhlükəsini yaradır.

Digər mühüm məqam Enriko Lettanın hesabatında vurğuladığı "Vahid Bazar" anlayışının genişləndirilməsi zərurətidir. Malların sərbəst dövriyyəsi təmin edilsə də, maliyyə, enerji və telekommunikasiya sahələrində milli sərhədlər hələ də qalın divarlar kimi mövcuddur. Hazırda Avropada iyirmi yeddi fərqli tənzimləmə rejimi, iyirmi yeddi fərqli kapital bazarı və çoxsaylı milli maneələr fəaliyyət göstərir. Qeyd olunan bürokratik əngəllər startapların böyüyərək qlobal miqyaslı şirkətlərə çevrilməsinin qarşısını alır.

Avropada yaranan innovativ ideyalar kommersiyalaşmaq və böyümək üçün lazım olan kapitalı tapmaq məqsədilə okeanın o tayına üz tutur. Avropalıların illik yüz milyardlarla avro həcmində qənaət vəsaitinin Amerika kapital bazarlarına axması və orada Amerika şirkətlərini maliyyələşdirməsi faktı vəziyyətin nə qədər paradoksal olduğunu nümayiş etdirir. "Kapital Bazarları İttifaqı"nın yaradılması istiqamətindəki danışıqların illərdir nəticəsiz qalması,




məhz milli hökumətlərin maliyyə sektoru üzərindəki nəzarəti və suverenliklərini bölüşmək istəməməsindən qaynaqlanır. Ursula fon der Lyayenin xəbərdarlığı inteqrasiya prosesinin baş tutmaması halında Avropanın maliyyə cırtdanına çevriləcəyini proqnozlaşdırır.

Siyasi fraqmentasiya məsələsi iqtisadi problemlər qədər dərindir. Son illərdə keçirilən seçkilər, Avropa siyasi landşaftının parçalandığını, ənənəvi mərkəzçi koalisiyaların zəiflədiyini və populist qüvvələrin yüksəlişini nümayiş etdirdi. İttifaqın “mühərriki” sayılan Berlin və Paris oxundakı daxili siyasi qeyri-sabitlik, Brüsseldə cəsarətli və strateji qərarların qəbul edilməsinə mane olur. Milli maraqların ümumavropa maraqlarından üstün tutulması tendensiyası miqrasiya, büdcə müzakirələri və xarici siyasət məsələlərində vahid mövqe sərgiləməyi müşkülə çevirir.

Yekdillik prinsipinin hələ də xarici siyasət və vergi kimi həssas sahələrdə qüvvədə olması dövlətin bütün prosesi bloklamasına, hətta şantaj aləti kimi istifadə etməsinə imkan verir. “İxtisaslı səsçoxluğu” prinsipinə keçid təklifləri suverenliklərini itirmək istəməyən kiçik dövlətlərin kəskin müqaviməti ilə üzləşir. Nəticədə, Ukraynadakı münaqişənin davam etdiyi, Yaxın Şərqdə gərginliyin artdığı bir dövrdə Avropa İttifaqı çevik reaksiya verə bilmir.

Müdafiə sənayesinin inteqrasiyası həyati əhəmiyyət kəsb etsə də, burada da konsensus problemi özünü qabarıq göstərir. Üzv dövlətlər müdafiə satınalmalarını milli şirkətlərdən və ya ABŞ-dan etməyə üstünlük verirlər. Birgə silah istehsalı layihələri milli qürur, sənaye proteksionizmi və qarşılıqlı etimadsızlıq səbəbindən ləngiyir. İyirmi yeddi fərqli ordunun, silah sistemlərinin mövcudluğu resursların səmərəsiz istifadəsinə gətirib çıxarır. Əgər müdafiə sahəsində səylər birləşməsə, Avropa nəinki qlobal oyunçu ola bilməyəcək, hətta sərhədlərinin təhlükəsizliyini təmin etməkdə aciz qalacaq.

Əgər Ursula fon der Lyayenin bəyanatındakı qorxulu ssenari reallaşarsa, yəni konsensus əldə edilməzsə və zəruri islahatlar həyata keçirilməzsə, qarşıdakı illər üçün proqnozlaşdırılan hadisələr kifayət qədər bədbin xarakter daşıyır. İlk növbədə, “iqtisadiyyatın ləng aqoniyası” prosesi dərinləşəcək. Struktur islahatlarının aparılmaması Avropanın qlobal iqtisadiyyatdakı payının tədricən, lakin dönməz şəkildə azalmasına səbəb olacaq.

Nəticə etibarilə, Ursula fon der Lyayenin sözləri Avropa siyasi elitasına ünvanlanmış son ultimatum xarakteri daşıyır. Texniki həll yolları bəllidir, resurslar mövcuddur, çatışmayan yeganə element siyasi cəsarət və qarşılıqlı etimaddır. Avropa liderləri klassik “məhbus dilemması” ilə üz-üzədirlər. Ya qısamüddətli, dar çərçivəli milli maraqları qurban verərək uzunmüddətli kollektiv qazanc əldə edəcəklər, ya da fərdi maraqları üstün tutaraq birlikdə uduzacaqlar.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Brüsseldə etimad böhranı və Münxen güzgüsü

*(əvvəli 1-ci səhifədə)*

Münxen hesabatında diqqətçəkən tezislərdən biri Avropanın öz təhlükəsizliyini ABŞ-ın təmin etdiyi “təhlükəsizlik çətiri”ndən kənarda düşünməyə başlamasıdır. Görünür, strateji muxtariyyət anlayışı yenidən siyasi gündəmdir. İdeyanın əsas lokomotivi isə Fransadır. Paris hesab edir ki, Avropa nə Rusiya ilə qarşıdurmada, nə Çinlə iqtisadi rəqabətdə, nə də Yaxın Şərq və Qafqaz kimi həssas regionlarda ABŞ-ın prioritetlərinə kor-koranə bağlanmalıdır.

Buna baxmayaraq, Avropada müşahidə edilən oyanış daxili ziddiyyətlərlə müşayiət olunur. Şərqi Avropa ölkələri, xüsusən Polşa və Baltik dövlətləri ABŞ-ın təhlükəsizlik təminatını əvəzolunmaz hesab edirlər. Almaniya isə sözügedən məsələdə tərəddüdlü mövqedədir. Rəsmi Berlin bir tərəfdən Vaşinqtonla transatlantik bağların qorunmasını istəsə də, digər tərəfdən Avropanın daha müstəqil hərbi-siyasi aktora çevrilməsinin labüdlüyünü qəbul edir. Nəticədə Aİ daxilində vahid təhlükəsizlik ideyasının formalaşması prosesi ləngiyir.

Məsələ ilə bağlı ABŞ-ın NATO-dakı səfiri Metyu Uitakerin bəyanatı diqqət çəkir. O vurğulayıb ki, ABŞ hesabat müəlliflərinin iddia etdiyi kimi NATO-nu dağıtmaq və ya mövcud müttəfiqlikləri zəiflətmək niyyətində deyil. Məqsəd, sadəcə, NATO ölkələri arasında müdafiə yükünün daha balanslı bölüşdürülməsinə nail olmaq, Avropalı müttəfiqləri daha çox iş görməyə, bacarıqlı və güclü olmağa təşviq etməkdir. Onun sözlərinə görə, məhz bu güc sülhün təminatıdır: “Vaşinqton Avropa liderlərinin iddialarını rədd edir və ABŞ-ın NATO-ya, eləcə də transatlantik münasibətlərə sadiqliyini bir daha vurğulayır”.

Bəli, rəsmi mövqedən də göründüyü kimi, ABŞ Avropanın təhlükəsizliyini hələ də öz milli maraqlarının ayrılmaz hissəsi hesab edir. Ancaq burada əsas problem etimad böhranıdır. Avropa artıq rəsmi bəyanatlara güvənmək niyyətində deyil. Çünki siyasi xəttin administrasiyadan administrasiyaya dəyişə bilməsi kontinentdə strateji qeyri-müəyyənlik yaradır. Trampdan sonra gələn administrasiyaların mövqeyi daha yumşaq olsa belə, “ABŞ həmişə yanımızda olacaqmı?” sualı Avropanın siyasi şüurunda qalıcı yer tutub.

ABŞ–Aİ münasibətlərindəki çatlar qlobal təhlükəsizlik sisteminə birbaşa təsir göstərir. NATO-nun gələcəyi, Ukrayna müharibəsi, Yaxın Şərqdəki qeyri-sabitlik, Çinlə rəqabət kimi məsələlərdə koordinasiyanın zəifləməsi mövcud riskləri artırır. Bu halda, Münxen Təhlükəsizlik Konfransı artıq bu müzakirələrlə yanaşı, fikir ayrılıqlarının açıq şəkildə üzə çıxdığı güzgüyə çevrilir. Cari durum regional aktorlar üçün yeni imkanlar açır. Daha dəqiq desək, böyük güclər arasında balansın pozulması çevik diplomatiya yürüdən ölkələrə manevr imkanı verir.

Sevindirici haldır ki, Azərbaycan son dövrlər Konfransın aktiv iştirakçılarından birinə çevrilib. Prezident İlham Əliyevin bu konfranslara qatılması dövlətimizin beynəlxalq təhlükəsizlik arxitekturasında artan rolunun bariz göstəricisidir. Ölkə başçısı müxtəlif illərdə Münxen Təhlükəsizlik Konfransında iştirak edərək həm plenar iclaslarda, həm də ikitərəfli görüşlər çərçivəsində Azərbaycanın mövqeyini birbaşa beynəlxalq auditoriyaya çatdırıb.

Dövlətimizin başçısının tədbirdəki çıxışlarının fərqləndirici cəhətlərindən biri birbaşa debat formatında olmasıdır. Prezident İlham Əliyev beynəlxalq auditoriya qarşısında mürəkkəb və həssas məsələlərdə emosional ritorikadan uzaq, faktlara əsaslanan və prinsipial mövqe nümayiş etdirib. Məhz bu səbəbdən, rəsmi Bakı son illər qlobal və regional proseslərdə özünü dialoq yaradan aktor kimi təsdiqləyib.

Sonda bir məsələni də qeyd edək ki, ABŞ–Aİ arasında artan gərginliyə baxmayaraq, Azərbaycan hər iki tərəflə praqmatik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığı qoruyub saxlaya bilib. Ölkəmizin xarici siyasətinin əsas üstünlüyü ideoloji qütbləşmədən uzaq, milli maraqlara söykənən balans strategiyasıdır. Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın mövqeyi bu baxımdan rasional və realistik xəttin təcəssümü kimi dəyərləndirilə bilər.

Avropa üçün Azərbaycan etibarlı enerji tərəfdaşıdır, ABŞ üçün isə Cənubi Qafqazda sabitliyin qorunmasında mühüm regional aktordur. Bu, Bakıya unikal diplomatik mövqe qazandırır. Bakı regional təhlükəsizlik modelini kənar hərbi-siyasi bloklara inteqrasiya əvəzinə əməkdaşlıq və kommunikasiyaların açılması üzərindən qurmağı təklif edir. Bu yanaşma həm Avropanın, həm də Amerikanın maraqlarına cavab verir.

***Nəzrin ELDARQIZI***
***XQ***




### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Bir neçə gün sonra işinə başlayacaq 62-ci Münxen Təhlükəsizlik Konfransı təbii olaraq qlobal təhlükəsizlik gündəminin əsas müzakirə platformalarından biri kimi diqqət mərkəzindədir. Xüsusilə son illər Transatlantik münasibətlərdə müşahidə olunan gərginlik fonunda konfrans Avropa İttifaqı ilə ABŞ arasında dialoq üçün imkanlar yaradır. Konfrans ərəfəsində Aİ liderlərinin ABŞ siyasətini tənqid edən hesabat hazırlaması isə tərəflər arasında fikir ayrılıqlarının aktuallığını qoruduğunu göstərir.

Münxen Təhlükəsizlik Konfransı uzun illərdir ki, Qərb dünyasında təhlükəsizlik, geosiyasət və strateji əməkdaşlıq məsələlərinin müzakirə olunduğu əsas platforma rolunu oynayır. Son dövrlər ABŞ-ın tərəfdaşlarla məsləhətləşmədən birtərəfli qərarlara üstünlük verməsi, Avropanın isə strateji muxtariyyət axtarışlarını gücləndirməsi Transatlantik münasibətlərdə etimad boşluğu yaradıb.

Belə bir mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın Münxen Təhlükəsizlik Konfransında fəal iştirakı və ölkə başçısı İlham Əliyevin çıxışları xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan artıq uzun müddətdir ki, bu konfransda təkcə regional deyil, qlobal mövzular üzrə mövqeyini açıq şəkildə ifadə edən aktordur. Prezident İlham Əliyevin Münxendə səsləndirdiyi fikirlər, xüsusilə enerji təhlükəsizliyi, regional sabitlik və beynəlxalq hüquq məsələlərinə dair yanaşmaları Qərb auditoriyasında diqqətlə qarşılanır.

Azərbaycanın fərqləndirici cəhəti ondan ibarətdir ki, ölkə eyni vaxtda həm Avropa İttifaqı, həm də ABŞ ilə praqmatik və qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurmağa nail olub. Enerji sahəsində Avropa üçün etibarlı tərəfdaş olan Azərbaycan, eyni zamanda, ABŞ-la təhlükəsizlik və siyasi dialoq xəttini inkişaf etdirir. Bu balanslaşdırılmış və çoxvektorlu xarici siyasət modeli Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirən əsas amillərdən biridir.

Beləliklə, Azərbaycan qlobal güclər arasında gərginliyin azaldılmasında birbaşa aktor olmasa da, balanslı və praqmatik xarici siyasəti ilə dialoqa əsaslanan tərəfdaşlıq modelini nümayiş etdirir. Bu model gələcəkdə transatlantik münasibətlərin daha sağlam və qarşılıqlı etimada əsaslanan müstəviyə keçidi üçün dəyərli nümunə kimi qiymətləndirilə bilər.

# Azərbaycanla bağlı dəyişən strategiya

**Dünyada regional güc mərkəzlərinin yenidən formalaşması qlobal dövlətlərin xarici siyasətinə ciddi təsir göstərib. Xüsusilə Avrasiyanın mərkəzində və ona yaxın ərazilərdə yerləşən bölgələrin enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri baxımından artan rolu, beynəlxalq münasibətlərdə yeni yanaşmaların yaranmasını zəruri edib. ABŞ-ın bu bölgəyə yanaşmasında köklü dəyişikliklər də bundan xəbər verir. Artıq Ağ Ev Mərkəzi Asiyaya dar coğrafiya kimi deyil, daha geniş siyasi-iqtisadi və geostrateji məkan kimi baxır.**



Soyuq müharibədən sonra ABŞ-ın Mərkəzi Asiya siyasəti əsasən, sovet dövründən qalma yanaşmalara söykənirdi. Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla məhdudlaşan bu baxış regionun real geosiyasi çəkisini tam əks etdirmirdi. Son otuz ildə bölgədə baş verən proseslər göstərdi ki, bu yanaşma aktuallığını itirib. Xüsusilə Azərbaycanın region ölkələri ilə özünü vahid siyasi-iqtisadi məkanın tərkib hissəsi kimi görməsi, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində oynadığı mühüm rol Böyük Mərkəzi Asiya anlayışının formalaşmasını obyektiv zərurətə çevirib.

Yeni baxışa əsasən, Mərkəzi Asiya yalnız beş postsovet dövləti və Azərbaycanla məhdudlaşmamalı, eyni zamanda, regionda geosiyasi əhəmiyyət daşıyan ölkələri də əhatə etməlidir. Bu dövlətlər nəqliyyat-kommunikasiya xətləri, liman infrastrukturu, iqtisadi maraqlar və tarixi geosiyasi tərəfdaşlıqlar vasitəsilə regionun xarici dünya ilə əlaqələrini təmin edən mühüm cinahlar rolunu oynayır. Bu baxımdan region Avropa ilə Asiyanı birləşdirən açıq və çevik geosiyasi platforma kimi çıxış edir və onun strateji əhəmiyyətini artırır.

Regionun geosiyasi əhəmiyyətini artıran başlıca faktorlardan biri də onun nüvə silahına malik və ya bu potensiala yaxın olan dövlətlərlə əhatə olunmasıdır. Çin, Rusiya, Hindistan və Pakistan artıq nüvə dövlətləridir, İran bu statusa can atır, Türkiyə isə nüvə texnologiyaları sahəsində artan imkanlara malikdir. Belə mühitdə bölgədə baş verə biləcək hər hansı münaqişə qlobal təhlükəsizlik üçün ciddi risklər yaradır. Bu baxımdan, sabitliyin qorunması təkcə regional deyil, beynəlxalq təhlükəsizliyin də mühüm şərtidir.

Müasir dövrdə ABŞ-ın Mərkəzi Asiyaya yönəlmiş strateji maraqları təkcə siyasi deyil, həm də dərin iqtisadi əsaslara söykənir. Regionun enerji daşıyıcıları, nadir torpaq elementləri, uran və litium kimi strateji resurslarla zənginliyi Vaşinqton üçün qlobal texnoloji zəncirin təhlükəsizliyi baxımından əhəmiyyət kəsb edir. Xüsusilə Qazaxıstan və Özbəkistan kimi ölkələrin bu sahədəki potensialı ABŞ-ın iqtisadi təhlükəsizlik strategiyasında mühüm yer tutur. Bu kontekstdə Orta Dəhliz kimi alternativ nəqliyyat marşrutlarının inkişafı regionun dünya bazarlarına inteqrasiyasını sürətləndirməklə yanaşı, ticarət və logistik balansın formalaşmasına da ciddi töhfə verir.





ABŞ-ın regiondakı iqtisadi fəaliyyətinin əsas hərəkətverici qüvvəsi dövlətlərarası razılaşmalardan daha çox özəl sektorun və iri korporasiyaların investisiya imkanlarıdır. Amerika Birləşmiş Ştatları regionun iqtisadi dayanıqlığını Avropa və Cənubi Asiya ilə əlaqələndirən ticarət dəhlizlərinə, limanlara və tranzit məntəqələrinə özəl investisiyaların cəlb edilməsi vasitəsilə artırmağı hədəfləyir. Bu strateji xəttin tərkib hissəsi olaraq, Donald Tramp administrasiyası yaxın üç il ərzində Mərkəzi Asiyada biznes mövcudluğunu maksimum dərəcədə gücləndirməyi planlaşdırır. Bişkekdə keçirilən "B5+1" forumu zamanı ABŞ-ın xüsusi səfiri Serxio Qor tərəfindən səsləndirilən fikirlər də təsdiqləyir ki, Vaşinqton bölgəni xarici iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi qəbul edir.

Yeni iqtisadi mərhələdə əməkdaşlığın ən perspektivli sahələri kimi elektron ticarət, süni intellekt texnologiyaları, strateji mineral resursların hasilatı, kənd təsərrüfatı və nəqliyyat infrastrukturunun modernləşdirilməsi müəyyən edilib. Bişkek forumunda imzalanan və ümumi dəyəri 40 milyard ABŞ dollarını ötən 20-dən çox müqavilə bu əməkdaşlığın miqyasını əyani şəkildə nümayiş etdirib. ABŞ hökuməti bölgədə fəaliyyət göstərən Amerika şirkətlərinin investisiya risklərini azaltmaqla, Mərkəzi Asiya ilə tarixində heç vaxt olmadığı qədər yüksək səviyyəli və praktik nəticələrə söykənən iqtisadi tərəfdaşlıq qurur.

Onu da qeyd edək ki, region təhlükəsizlik baxımdan da ABŞ üçün strateji əhəmiyyət daşıyır. Regionun Yaxın Şərq, Cənubi Asiya və Əfqanıstanla coğrafi yaxınlığı radikal ideologiyaların yayılması üçün əlverişli zəmin yaradır. Bu təhlükə həm region dövlətlərini, həm də Qərbi ciddi şəkildə narahat edir. ABŞ-ın aparıcı Mərkəzi Asiya ölkələri ilə koordinasiyalı şəkildə terrorla mübarizə aparması bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, ABŞ-ın qlobal təhlükəsizlik strategiyasında Çinə qarşı rəqabətin güclənməsi Mərkəzi Asiyanın rolunu daha da artırır. Çin üçün Avropaya və Yaxın Şərqə gedən əsas yolların bu regiondan keçməsi onu Pekinin qlobal ambisiyalarında mühüm tranzit və təsir məkanına çevirir. ABŞ isə alternativ ticarət dəhlizləri və şaxələndirilmiş resurs təchizatı vasitəsilə bu üstünlüyü balanslaşdırmağa çalışır.

Bütün bunlar göstərir ki, Mərkəzi Asiya anlayışı təkcə coğrafi termin deyil, formalaşmaqda olan yeni geosiyasi reallıqların ifadəsidir. Bu geosiyasi rellıqda əsas rollardan birini Azərbaycan oynayacaq. Cünki Azərbaycan Mərkəzi Asiya resurslarının (neft, uran və nadir metallar) Rusiya ərazisinə daxil olmadan birbaşa Avropa bazarlarına çıxışını təmin edən etibarlı qovşaqdır. Orta Dəhliz Avropaya yükdaşıma müddətinə görə dəniz yolu ilə müqayisədə daha sərfəlidir. Bu da ABŞ şirkətləri üçün vaxt və xərc səmərəliliyi deməkdir. Zəngəzur dəhlizinin işə düşməsi isə bütün tərəflər üçün yeni imkanlar açacaq. BMTM-in şöbə müdiri Vasif Hüseynov qeyd edib ki, layihə suverenlik və qarşılıqlılıq prinsiplərinə əsaslanan iqtisadi və infrastruktur təşəbbüsü kimi təqdim edilsə də, Avrasiyanın əsas geosiyasi kəsişmə nöqtələrindən birində uzun illər formalaşmış qüvvələr balansına birbaşa təsir göstərir. Azərbaycanın iştirakı beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq deməkdir.

Mövzu ilə bağlı **iqtisatşı ekspert Mahir Zeynalov** XQ-yə bildirdi ki, Mərkəzi Asiyanın iqtisadi potensialının artması və bu regionun qlobal bazarlara inteqrasiyası müasir dünya nizamında ABŞ-ın strateji maraqlarının mərkəzində dayanır: "ABŞ üçün Azərbaycan təkcə enerji mənbəyi



deyil, həm də Mərkəzi Asiyaya açılan ən təhlükəsiz və yeganə müstəqil logistik qapıdır. ABŞ-ın regiondakı əsas prioriteti Çin və Rusiyadan asılı olmayan alternativ dəhlizlərin təhlükəsizliyini təmin etməkdir ki, bu da birbaşa Azərbaycanın infrastruktur gücü ilə bağlıdır. Strateji baxımdan ABŞ Azərbaycanın Orta Dəhlizdəki dominant rolunu özünün iqtisadi təhlükəsizlik maraqlarına uyğun hesab edir. ABŞ-ın logistika nəhəngləri və investisiya şirkətlərinin Azərbaycanın modernləşdirilmiş liman və dəmir yolu infrastrukturuna marağı artır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücünün 25 milyon tona çatdırılması və Orta Dəhlizin imkanlarının genişləndirilməsi ABŞ-ın regiondakı ticarət dövriyyəsini sürətləndirmək və Amerika mallarının Mərkəzi Asiya bazarlarına maneəsiz çatdırılmasını təmin etmək maraqlarına xidmət edir.

Eyni zamanda, enerji təhlükəsizliyi sahəsində ABŞ-ın maraqları Azərbaycanın yaratdığı Cənub Qaz Dəhlizi üzərində cəmlənib. Bu dəhlizin gələcəkdə Mərkəzi Asiyanın karbohidrogen resurslarını da qəbul edə biləcək potensiala malik olması ABŞ-ın Avropadakı müttəfiqlərinin enerji asılılığını azaltmaq strategiyasının əsas hədəfidir. Vaşinqtonun "Tramp marşrutu" (TRIPP) kimi konseptual yanaşmaları və "C5+1" formatında Azərbaycanın iştirakını arzulaması çox şeydən xəbər verir".

Beləliklə, Azərbaycanın təklif etdiyi logistik və strateji imkanlar ABŞ-ın Avrasiyadakı milli maraqlarının təmin olunması üçün əvəzolunmaz imkandır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Moskva da TRIPP-də iştiraka can atır

## *İrəvan isə bunu gerçək saymır*




**Rusiya tərəfi Moskvanın TRIPP (Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu) layihəsində mümkün iştirakı ilə bağlı parametrləri İrəvanla müzakirə etməyə hazırdır. Bu barədə "İzvestiya" qəzetinə müsahibəsində Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirib: "Trampın yolu" layihəsinə gəlincə, biz mövqeyimizi qorumuşuq. Erməni–amerikan təşəbbüsünün detallarını hələ öyrənmək lazımdır. İrəvandakı tərəfdaşlarla həm layihənin parametrlərini, həm də Rusiyanın bu və ya digər formada mümkün iştirakını müzakirə etmək üçün məsləhətləşmələrə hazırıq".**

Qaluzin xatırladıb ki, Ermənistanın dəmir yolu şəbəkəsi 2038-ci ilə qədər "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin törəmə şirkətinin idarəetməsindədir, ölkədə Rusiya rels sistemi istifadə olunur, İranla sərhəddə isə Rusiya sərhədçiləri yerləşdirilib: "Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü amilini də nəzərə almaq lazımdır. Bu şəraitdə aydındır ki, tərəfdaşlar Rusiyasız keçinə bilməz". Qaluzin, həmçinin bildirib ki, regionda kommunikasiyaların açılması ilə bağlı mühüm mexanizmlər Rusiya, Ermənistan və Azərbaycan arasında baş nazir müavinləri səviyyəsində fəaliyyət göstərən üçtərəfli format çərçivəsində işlənib hazırlanıb. Ancaq Qaluzin və onun kimi düşünənlərin yanaşmaları Ermənistanda birmənalı qarşılanmır və Moskvanın bölgədəki roluna dair fərqli gözləntilər formalaşıb. Hakimiyyətə yaxın dairələrdə və ekspert mühitində Rusiyanın TRIPP layihəsində iştirakına zərurət olmadığı fikri getdikcə daha tez-tez dilə gətirilir. Xüsusən də Qərblə əlaqələrin genişləndirilməsi fonunda İrəvan alternativ kommunikasiyaların mümkünlüyünü ön plana çıxarmağa çalışır.

Bu yanaşma Rusiyanın çoxəsrlik dostluq, strateji müttəfiqlik, təhlükəsizlik və sair amillərə əsaslanan arqumentləri ilə ziddiyyət təşkil edir. Nəticədə TRIPP layihəsi ətrafında yaranan müzakirələr Ermənistanın geosiyasi seçimi ilə bağlı İrəvan və Moskva arasındakı fikir ayrılıqlarını da üzə çıxarır. Bu dəfə də istisna olmadı. Ermənistan parlamentinin sədri Alen Simonyan dünən jurnalistlərə açıqlamasında Rusiyanın TRIPP layihəsində iştirakını mümkün hesab etmədiyini bildirib: "Siz bunu necə təsəvvür edirsiniz? Bu, erməni–amerikan şirkətidir". Parlament sədri xatırladıb ki, Ermənistan ərazisi üzrə hərəkət yalnız TRIPP çərçivəsi ilə məhdudlaşmır.

"Budur, Azərbaycandan taxıl və yanacaq daşınır. Axı, bu TRIPP deyil", – deyə Simonyan bildirib və Rusiyanın layihəni genişləndirərək ona digər istiqamətləri də daxil etməsi təklifi ilə bağlı fikrini yarımçıq şəkildə ifadə edib: "TRIPP-ə bənzər mexanizm uzun müddətdir müzakirə olunur, sadəcə, ABŞ-la bu, sülh prosesi çərçivəsində prezident Trampın sayəsində mümkün olub", – deyə Simonyan qeyd edib. Daha bir yarımçıq fikir səsləndirən spiker Rusiya iştirakının mümkün variantının, əlbəttə ki, Ermənistan tərəfinin razılığı ilə, Amerika tərəfindən nəzərdən keçirilə biləcəyini istisna etməyib.

Simonyan sonda bəyan edib ki, Rusiya TRIPP üzərində cəmləşməməlidir: "Yollar çoxdur. Onlar fəaliyyət göstərir. Axı, onlar 100 ildir burdadırlar, bu kimi layihəni də həyata keçirə bilərdilər". Əlbəttə, Rusiya xarici işlər naziri müavininin TRIPP layihəsi ilə bağlı açıqlamaları Moskvanın regional kommunikasiya üzərində mövqeyini qorumaq niyyətindən xəbər verir. Rəsmi Moskva bu layihəyə ehtiyatlı yanaşdığını gizlətmir və Ermənistanla mümkün formatlar üzrə məsləhətləşmələrə hazır olduğunu bildirir.

Qaluzinin vurğuladığı texniki amillər, yəni dəmir yollarının idarə olunması, rels sistemi, sərhəd təhlükəsizliyi və Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü Rusiyanın mövcud təsir mexanizmlərini xatırlatma xarakteri daşıyır. Lakin reallıqda TRIPP layihəsinin siyasi və geosiyasi məzmunu Moskvanın bu təşəbbüsdə fəal iştirakını sual altında qoyur. Layihə ilkin mərhələdən etibarən Ermənistan–ABŞ formatında təqdim olunub və Vaşinqtonun regiondakı rolunun artması kontekstində gündəmə gətirilib.

Bu isə onu göstərir ki, TRIPP təkcə nəqliyyat və logistika təşəbbüsü deyil, həm də Ermənistanın xarici siyasət prioritetlərində baş verən dəyişikliklərin tərkib hissəsidir. Ermənistan siyasi rəhbərliyi və parlament dairələrindən gələn açıqlamalar Rusiyanın bu layihədə iştirakına isti baxılmadığını göstərir. İrəvan açıq şəkildə kommunikasiyaların açılması ilə TRIPP-i eyniləşdirmir və alternativ marşrutların, fərqli mexanizmlərin mövcudluğunu ön plana çıxarır. Bu yanaşma, əslində, Rusiyanın illərdir formalaşdırdığı üçtərəfli işçi qrupundan müəyyən məsafə saxlamaq cəhdi kimi də qiymətləndirilə bilər. Ermənistan parlamenti sədrinin TRIPP layihəsi ilə bağlı səsləndirdiyi fikirlər də İrəvanın bu təşəbbüsə yanaşmasını ortaya qoyur. Onun Rusiyanın layihədə iştirakını təsəvvür etmədiyini açıq şəkildə dilə gətirməsi, əslində, texniki yox, siyasi seçim kimi dəyərləndirilə bilər. Çünki Simonyanın arqumentləri nəqliyyat mexanizmlərinin mahiyyətindən çox, layihənin kimlər tərəfindən formalaşdırıldığına fokuslanır.

Simonyan TRIPP-i sırf Ermənistan–ABŞ platforması kimi təqdim etməklə, kommunikasiyaların açılması məsələsini bu layihə ilə eyniləşdirmədiyini də nümayiş etdirir. Onun Azərbaycandan Ermənistana daşınan taxıl və yanacaq nümunəsini qabartması, mövcud marşrutların artıq işlək olduğunu və TRIPP-in yeganə mexanizm olmadığını göstərmək məqsədi daşıyır. Bu yanaşma, bir tərəfdən Rusiyanın proseslərdən kənarda saxlanılmadığını iddia etməyə imkan verir, digər tərəfdən isə Moskvanın konkret bu layihə üzrə rolunu minimuma endirir.

Eyni zamanda, Simonyanın açıqlamalarında müəyyən ziddiyyətlər də sezilir. O, TRIPP-ə bənzər mexanizmlərin uzun müddətdir müzakirə olunduğunu etiraf etsə də, məhz ABŞ-la bu layihənin reallaşmasını xüsusi olaraq vurğulayır. Bu onu göstərir ki, İrəvan üçün əsas məsələ mexanizmin özü yox, onun hansı siyasi çərçivədə və kiminlə həyata keçirilməsidir. Sülh prosesi fonunda Vaşinqtonun rolunun qabardılması da bu kontekstdə təsadüfi görünmür.

Bununla belə, Rusiyanın regiondakı mövcudluğu və təsir imkanlarını tamamilə inkar etmək real deyil. Moskva hələ də Ermənistanda hərbi-siyasi alətlərə malikdir, hələ də ölkənin nəqliyyat və iqtisadi infrastrukturunda mühüm paya sahibdir. Kommunikasiyaların açılması ilə bağlı əvvəlki razılaşmalar onun iştirakı ilə formalaşıb. Ancaq konkret olaraq TRIPP layihəsi kontekstində Rusiya daha çox kənar müşahidəçi və ya dolayısı ilə təsir göstərməyə çalışan tərəf kimi qalacaq. Beləliklə, Qaluzinin açıqlamaları Moskvanın proseslərdən kənarda qalmaq istəmədiyini nümayiş etdirsə də, mövcud siyasi konfiqurasiya Rusiyanın TRIPP-də birbaşa və tamhüquqlu iştirakını real etmir.

Layihənin gələcək taleyi isə böyük ölçüdə Ermənistanın Qərblə münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyindən asılı olacaq. TRIPP layihəsi Ermənistan üçün daha çox yeni siyasi istiqamətin simvolu kimi təqdim olunur və bu səbəbdən Rusiyanın birbaşa iştirakı İrəvanda arzuolunan deyil.

Onu da bildirək ki, Ermənistan Dövlət Gəlirləri Komitəsinin sədri Eduard Akopyan dünən keçirdiyi mətbuat konfransında TRIPP layihəsi çərçivəsində gömrük nəzarətinin həyata keçiriləcəyini və Ermənistan Aİİ-nin üzvü olduğuna görə, ittifaqın bütün hüquqi sisteminin qüvvədə olacağını bildirib. Onun sözlərinə görə, layihədə "front-ofis" və "back-ofis" anlayışları tətbiq ediləcək, ABŞ-la əməkdaşlıq çərçivəsində isə sərhəd-keçid məntəqələrində rentgen avadanlıqlarının intellektual monitorinqi üçün xüsusi mərkəz yaradılacaq və insan amili tədricən azalacaq.

Akopyanın bu açıqlaması Ermənistanın mövcud hüquqi-idarəetmə sistemindən kənara çıxmadığını təsdiqləyir. Bu isə bir tərəfdən Moskvanın dolayı təsir imkanlarını saxladığını göstərir, digər tərəfdən TRIPP-in daha çox siyasi-etimad layihəsi kimi təqdim olunduğunu ortaya qoyur. Praktik müstəvidə isə söhbət əsasən texnoloji yenilənmədən gedir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan ziyalılığı və ziyalısı





## I MƏQALƏ

### Ziyalı və ziyalılıq ənənəsi

Elə ölkələr vardır ki, ziyalılığın ənənəsi mövcuddur. Bu, yalnız ölkədə ziyalıların varlığı ilə izah olunmur. Tarix boyu çox qövmlərdə ziyalılar olmuşlar. Lakin elə toplumlar vardır ki, onlar daxili intellektual potensialla yanaşı, özünün mənəvi, mədəni, əxlaqi, həyat tərzi və sosial kollektiv fəaliyyət xüsusiyyətləri ilə ziyalılığı kəsintisiz təcrübə prosesinə çevirə bilirlər. Bu toplumlarda intellektual fəaliyyət qövmün praktiki həyat tərzi və sosial davranış modelləri ilə tarixi zaman-məkan birliyində vəhdət təşkil edir.

Burada artıq cəmiyyətin özünü təşkil etməsi ilə özünü yaratması fəlsəfələrinin tənqidi (və ya kritik) münasibətlərinin "metafəlsəfəsi" aktuallaşır. Yəni toplum (kollektiv mövcudat kimi) o zaman ziyalılıq ənənəsinə malik olur ki, intellektual fəaliyyətlə sosial həyat arasında vəhdəti praktikada hər zaman təcrübədən keçirə bilir. Bu anlamda ziyalılıq ənənəsi özünəməxsus keyfiyyətləri və funksional özəllikləri olan kollektiv şüuri təcrübə prosesidir.

Məhz bu anlamda "intellektual fəaliyyət fəlsəfəsi" ilə "sosial davranış modelləri fəlsəfəsi"nin qarşılıqlı tənqidi münasibətlər müstəvisində "metafəlsəfə" yarada bilən qövmün ziyalılıq ənənəsi formalaşır. Sırf konseptual idraki prizmada bu, obrazlı desək, "dərketmənin dərkedilməsi", "fəlsəfənin fəlsəfəsi" və ya cəmiyyətin bəşəri intellekt potensialı ilə milli intellekt potensialının məntiqi-rasional və "emosional-duyğusal" (hər bir situasiyanı kollektiv olaraq daxili yaşantı kimi anlamaq) sintezinə nail olmaq deməkdir.

### Ziyalılıq nümunəsi

Ziyalılıq ənənəsi bütövlükdə qövmün mövcudluğunun bütün sferalarına fundamental təsir edir. Onu faktiki olaraq yaradır və bu prosesin kəsintisiz olmasını təmin edir. Əgər ziyalılıq ənənəsi yoxdursa, bu funksiyanı başqa faktorlar yerinə yetirir ki, ayrı-ayrı qövmlər də bir-birindən bu meyar üzrə fərqlənə bilirlər. O baxımdan mühüm tezislərdən biri belədir: ziyalılıq ənənəsi tarixi zaman kontekstində konkret ziyalı nümunəsi formalaşdırır. Bu mənada "universal ziyalılıq" bəşəri miqyasda abstrakt var ola bilən fenomendir. Onun konkret və praktiki təzahür üsulu hər bir xalqın özünəməxsus ziyalı nümunəsi yetişdirməsi ilə bağlıdır. Yəni bir qədər də ümumiləşdirsək, hər bir cəmiyyətdə tarixi dövrün zaman-məkan kontinuumunda mövcudolma özəllikləri ziyalılıq nümunələrini aktuallaşdırır və reaktuallaşdırır (təkrar-təkrar aktual edir).

Əgər bu konseptual yanaşmanı qəbul etsək, özlüyündə bir tezis meydana gəlir: hər bir cəmiyyət ziyalılıq ənənəsi çərçivəsində ziyalıya hörmət (və ya sayğı) örnəyi yaratmalıdır. Başqa halda ziyalılıq ənənə olmur və ziyalı kollektiv birgəyaşam mühitində üzərinə düşən vəzifələri (ictimai, tarixi, mədəni, mənəvi, əxlaqi funksiyaları) yerinə yetirə bilmir. Bu halda ziyalının intellekti və mənəvi dünyası "inciyir". Özünü ziyalı kimi tam qiymətləndirə bilmir və deməli, yaratma passionarlığı minimuma enir. Onun bütövlükdə ictimai mühitə təsiri dağınıq, yayğın və səmərəsiz xarakter alır. Bu zaman cəmiyyət səviyyəsində iki arzuolunmaz hal meydana gəlir.

Birincisi, ziyalı ilə sosiumun aktual gündəmi arasında uçurum yaranır – ziyalı üçün "zahidlik donu biçilir". Bu mövqeyə sıxışdırılmış ziyalı intellektual və mənəvi "dəyanti"ni, azad düşüncə qüdrətini itirir. Nəticədə şairin dediyi olur: "zahidin bir barmağın kəssən dönüb haqdan qaçar", amma "gerçək aşiqi sərpa soyarlar, ağrımaz"! Yəni toplum kollektiv mövcudat kimi böyük dərəcədə "gerçək aşiqlik" meyarlarını itirə bilir.

İkincisi, bütövlükdə qövmün ziyalılıq ənənəsi (əsl ziyalı yetişdirmək funksiyası da bura daxildir) ciddi zərər görür. Onun ən fəlakətli mərhələsi ziyalının özünü ictimai faydasız hesab etməsi anından başlayır.

Tarix hər bir xalqı ziyalılıq ənənəsini saxlamaqda sınağa çəkir. Cəmiyyət yuxarıda vurğuladığımız iki xüsusiyyət arasında "var-gəl" edir. Ziyalı ənənəsi güclü olan toplum həmişə məsələni ziyalılıq ənənəsinin inkişafı xeyrinə seçir. Deməli, ziyalılıq üçün də seçim anı elə həqiqət anıdır!

İndi Azərbaycan cəmiyyəti üçün də bu seçim anı (həqiqət anı) gəlmişdir. İki yol vadır: birincisi, azərbaycanlılar kollektiv mövcudat kimi ya öz ziyalılıq ənənələrinə sahib çıxmalı, ikincisi, ya da sahib çıxmalıdırlar! Bu, tərəfkeşlik və pafos deyildir – Azərbaycanda mövcud olan ziyalılıq ənənəsinin tarixindən, mahiyyətindən, özəlliklərindən və onun cəmiyyətdə yerinə yetirdiyi funksiyaların ümumi məntiqindən qaynaqlanan praqmatik seçimdir. Obrazlı desək, "iki seçimin bir seçimdə vəhdəti" – biz bəşəri təsiri olan inkişaf nümunəsini seçməyə Tanrıdan məhkumuq! Türklər ilahi ədaləti, nizamı və aydınlığı Yer üzündə yaymağa müvəkkildirlər! Sadəcə, Oğuznamələrə baxın!

### Ziyalılıq ənənəsi

Hər bir ölkənin özünəməxsus elmi tədqiqat ənənəsi, təcrübəsi və alimin araşdırma "mədəniyyəti" ilə yanaşı, ziyalının sosial davranış standartları və onların cəmiyyət tərəfindən qəbul edilməsi özəlliyi də vardır. Bundan başqa, elmi tədqiqatla təhsil arasında hər bir ölkə üçün xüsusi təcrübə yaranır. Azərbaycanda elmi tədqiqatlar modeli yunan elmi-məntiqi xüsusiyyətlərlə yerli elmi, fəlsəfi və mədəni araşdırma ənənəsinin sintezində formalaşmışdır.

Bu zaman, ümumiyyətlə, şərq fəlsəfi-elmi düşüncə mədəniyyəti ilə yunan elmi təfəkkür nümunəsinin fərqli tarixi dönəmlərdə müxtəlif münasibətləri özünü göstərmişdir. İslamın Azərbaycanda qəbulundan sonra bu münasibətlər yeni çalarlar almışdır.

Bu, daha çox təhsil almaq xüsusiyyətlərində özünü göstərmişdir. Təhsil həm institutlaşma (yəni təhsil almaq strukturunun yaradılması), həm də praktiki istifadə üsullarında ifadə olunmuşdur. Nəticədə Azərbaycanda özünəməxsus ziyalılıq ənənəsinin idraki, elmi, alınan biliklərin tətbiqi praktikası formalaşmışdır. Bunların fonunda elm-təhsil münasibətləri ziyalılığın ənənəvi hal almasında prinsipial rol oynamışdır.

Azərbaycan ziyalılığında məsələnin başqa mühüm tərəfini ziyalının sosial-mədəni və mənəvi-əxlaqi davranış nümunələrinin olduqca əhəmiyyətli faktor sayılması ilə bağlıdır. Əlbəttə, bütün cəmiyyətlərdə alimlik və müəllimliklə sosial-psixoloji davranış nümunəsi arasında sıx bağlılıq mövcud olmuşdur.

Lakin Azərbaycanda türk və müsəlman mədəniyyətinin təmsilçisi kimi mənəviyyata və əxlaqa ayrıca qiymət verilmişdir. Azərbaycan ziyalısı mütləq mənəviyyat, əxlaq və müdriklik nümunəsi olmalıdır. Bu fəzilətlilik şərti əsrlərdir ki, Azərbaycan ziyalılığının əsas faktorlarından biri kimi qəbul edilir.

Beləliklə, Azərbaycan ziyalılıq ənənəsində elmi yaradıcılıq passionarlığı ilə mənəvi-əxlaqi və sosial-psixoloji davranış normalarının özünəməxsus münasibətlər sistemi mövcud olmuşdur. Bu məqamı Azərbaycanda akademik tədqiqatlar ənənəsini formalaşdıran və uyğun tədqiqat institutlaşmasının ana xəttini təşkil edən akademiyaların yaradılması prosesi fonunda izah edək. Çünki bu zaman təhsildə uğur əldə edən insanların akademik tədqiqata baş vurması xüsusi ziyalılıq nümunəsi yaratmışdır.

İndi Azərbaycan ziyalılığını, obrazlı desək, "akademik ziyalılıq" nümunəsindən kənar təsəvvür etmək mümkün deyildir. Bir daha vurğulamaq istərdik ki, bu, şərti fərqləndirmədir və əsas məqsəd təhsillə elmin ölkəmizdə özəl sıx qarşılıqlı əlaqəsindən formalaşan ziyalılıq ənənəsində müəllim-akademik tandemi vahid obrazın ayrılmaz atributlarıdırlar.

Eyni zamanda, "akademik ziyalılığın" bir inkaredilməz əlaməti vardır – akademikliyi müəllimlik yetişdirir. Elmi dərəcəsindən asılı olmayaraq, hər bir alimi yetişdirən təhsildir, onun şərəfli, qayğıkeş və həmişə önlərində baş əyəcəyimiz müəllimlərdir! Bizlər orta məktəbdəki müəllimlərimizi (mənim üçün müqəddəs olan: Səməd Qurbanovu, Mahmud Məmmədovu, İmamhüseyn Ömərovu, Təhminə Ömərovanı və başqalarını), "Arif babayevləri, Maarif əkbərovları, Qəmbər namazovları, camal mustafayevləri" və elm, davranış, əxlaq, mənəviyyat, düzlük, doğruluq öyrəndiyimiz minlərlə ziyalılarımızı əsla unutmadıq və unutmayacağıq!

Lakin "akademik ziyalılığı"n da özünəməxsus anlamı, duyğusu və zövqü vardır. Bunu Azərbaycanda tarixən akademik institutlaşmanın, onun cəmiyyətə və hətta tarixin müəyyən dönəmlərində geniş mədəniyyət və geosiyasət məkanına təsirlərinin özəlliklərindən görə bilərik. Bu tezisin işığında indi Azərbaycanda akademik institutlaşmanın yaranması və təkamülü xüsusiyyətlərinə nəzər salaq.

### Milli akademiya ənənəsi

Çoxlu sayda mənbələrdə yazılır ki, Bizansda akademiyalar ləğv ediləndən sonra (V əsrdə Edessa, VI əsrdə Afina akademiyaları ləğv edilmişdir) Azərbaycanın indiki coğrafi-mədəni məkanında çoxlu sayda akademiyalar meydana gəlmişdir. Qədimdən Azərbaycanın coğrafi-mədəni məkanında folklor, ədəbiyyat, fəlsəfə, riyaziyyat, etika, coğrafiya, fizika, kimya, tibb və s. elm sahələri mövcud olmuşdur. Onlar institusional səviyyədə bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf etmişlər.

IX əsrdə Bağdad Akademiyasının meydana gəlməsi Azərbaycanda da elmin inkişafına təkan vermişdir. Həmin Akademiyada müxtəlif elm sahələri öyrənilirdi. Orta əsrlərdə Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiyədə və digər şəhərlərdə elmi mərkəzlər yaradılmışdır. Nəsirəddin Tusinin Marağa rəsədxanası dünyada məşhur idi. Orada müxtəlif ölkələrdən gəlmiş insanlar elm öyrənir və vətənlərində T.Tusi rəsədxanasının elmi tədqiqat ənənəsini davam etdirirdilər.

N.Tusinin elmi mərkəzi akademik tədqiqatın şərtləri daxilində fəaliyyət göstərirdi. Orada indi akademik fəaliyyət üçün lazım olan elmi-metodoloji və maddi-texniki struktur mövcud idi. Nəsirəddin Tusinin təşkil etdiyi alimlər yığıncağı, müasir dildə desək, akademiyanın rəyasət heyəti Təbriz şəhərində yerləşirdi. Ayrıca şəhərcikdə tələbələr və tədqiqatçılar üçün şərait yaradılmışdı.

Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Fazil Şirvani, Əminəddin Müzəffər Təbrizi, Müxdəsəddin Səlmasi və başqalarının çox dəyərli əsərlərinin meydana gəlməsində akademik ənənənin ciddi rolu olmuşdur.

Şamaxı akademiyası müasir Azərbaycan Respublikasının coğrafi-mədəni məkanında ilk akademiya kimi göstərilir. Onu Ömər Osman oğlu yaratmışdı. O, Azərbaycan alimi və həkimi kimi tanınmışdı. Şamaxı akademiyasının tərkibində ciddi araşdırmalar aparılan tibbi məktəb mövcud idi. Orada xarici tədqiqatçıların da çalışdığı haqqında informasiyalar vardır.

Şamaxı akademiyasında Ömər Osman oğlu xarici mühitin faktorlarının insan fiziologiya və patologiyasında təsirinin öyrənilməsinə çox geniş yer verirdi. Mənbələrdə yazırlar ki, bunların içərisində Günəşin təsirindən o qədər danışmışdır ki, onun doğulduğu yer indi də "Dədə Günəş" adı ilə məşhurdur.

XIII əsrdə Təbrizdə elmlər akademiyası yaradılır. Onu Azərbaycan tarixçisi və məşhur həkimi Rəşidəddin yaratmışdı. Təbriz akademiyasında müxtəlif ölkələrdən - Çin, Misir, Hindistan və bir sıra Avropa ölkələrindən olan tədqiqatçılar çalışırdı.

Tədqiqatçılar vurğulayırlar ki, "bu akademiyanın idarələrinin hamısı Təbrizin yaxınlığındakı "Rübe-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi. Bu akademiyanın xarabalıqları indi də həmin yerdə durur. Burada o zaman alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar və s. mövcud idi. Bu akademiyada əsas yeri tibb, əczaçılıq, botanika tutmuşdur... Rəşidəddin Azərbaycan alimlərinə böyük qiymət verirdi. O, yazırdı ki, Aristotel və Platonun öz dövrləri var idi. İndi isə başqa dövrdür" (mənbə: Orta Əsrlər şərqində elm akademiyaları).

XV-XVIII əsrlərdə də Azərbaycandakı akademiyalar fəaliyyətlərini davam etdirmişdir. Həmin dövrdə Əbdürrəşid Bakuvinin elmi fəaliyyəti çox səmərəli olmuşdur; ölkənin coğrafiyası və təbiəti ilə bağlı qiymətli məlumatlar vermişdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azad edilmiş ərazilərin "yaşıl" gələcəyi

## *Təmiz enerji istehsalı bölgənin dirçəlişində və tərəqqisində önəmli rol oynayacaq*

**İşğaldan azad edilmiş ərazilər Azərbaycanın iqtisadi gələcəyinə dair yeni baxışların formalaşdığı əsas məkana çevrilməkdədir. Postmünaqişə dövründə bu regionların bərpası təkcə fiziki infrastrukturun yenidən qurulması deyil, eyni zamanda, tamamilə yeni iqtisadi modelin tətbiqi anlamına gəlir. Bu modelin mərkəzində isə "yaşıl enerji" dayanır.**

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi mövqeləndirilməsi texniki baxımdan əsaslandırılmış qərar olsa da, məsələ təkcə günəş panelləri və külək stansiyalarının quraşdırılması ilə məhdudlaşmır. Əsas çağırış texnoloji potensialdan iqtisadi idarəetmə mərhələsinə keçidin təmin olunmasıdır. Bu mənada "yaşıl enerji" artıq sadəcə texniki layihə deyil – iqtisadi institutdur və onun uğuru institusional keyfiyyətdən asılıdır.

Azad edilmiş ərazilərin bərpası prosesi Azərbaycanda son illərin ən irimiqyaslı dövlət investisiya proqramlarından birinə çevrilib. Bu regionlara yönəldilən daxili investisiyalar təkcə dağıdılmış infrastrukturun bərpasını deyil, eyni zamanda, yeni iqtisadi modelin – xüsusilə "yaşıl enerji" əsaslı inkişaf strategiyasının formalaşdırılmasını hədəfləyir. Son 5 il ərzində azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üçün dövlət büdcəsindən 22 milyard manatdan artıq vəsait ayrılıb. Bu isə orta hesabla ildə, təxminən, 4–4,5 milyard manat daxili investisiya deməkdir. Dövlət başçısı İlham Əliyev bu vəsaitlərin əhəmiyyətini dəfələrlə vurğulayaraq bildirib ki, söhbət yalnız bərpa işlərindən deyil, gələcək onilliklər üçün iqtisadi baza yaradan strateji yatırımlardan gedir.

İstifadəsi, logistika, mühəndislik və texniki xidmət sahələrində yaranır.

Məşğulluq göstəriciləri də "yaşıl enerji" layihələrinin sosial-iqtisadi əhəmiyyətini artıran mühüm amillərdəndir. "International Renewable Energy Agency" (IRENA) məlumatlarına görə, bərpaolunan enerji sektoru son illərdə dünyada ən sürətlə artan məşğulluq sahələrindən biridir. Qlobal miqyasda bu sektorda çalışanların sayı son on ildə təxminən iki dəfədən çox artıb. Xüsusilə regionlarda həyata keçirilən layihələr yerli kadrların hazırlanması və uzunmüddətli məşğulluğun təmin edilməsi baxımından effektiv hesab olunur.

Proqnozlara görə, "yaşıl enerji" obyektlərinin istismara verilməsi ilə azad edilmiş ərazilərdə iqtisadi dövriyyə tədricən genişlənəcək, daimi məşğulluq formalaşacaq və regionlara qayıdış prosesinin iqtisadi əsasları möhkəmlənəcək. Enerji təminatının stabil olması bu əraziləri yalnız yaşayış üçün deyil, istehsal və sahibkarlıq üçün də cəlbedici edəcək. Nəticədə bölgələr "bərpa olunan ərazi" statusundan çıxaraq fəal iqtisadi subyektə çevrilə bilər.

Ölkə miqyasında proqnoz isə daha genişdir. "Yaşıl enerji" layihələrinin azad edilmiş ərazilərdə cəmlənməsi Azərbaycanın ümumi enerji balansında



Hazırkı mərhələdə "yaşıl enerji" layihələrinin rəsmi təqdimatı əsasən texniki göstəricilərə – quraşdırma gücünə, istehsal potensialına və enerji balansına töhfəsinə fokuslanır. Bu yanaşma layihələrin ilkin mərhələsi üçün tamamilə əsaslandırılmışdır və beynəlxalq təcrübədə də geniş tətbiq olunur. Çünki bərpaolunan enerji sektorunun formalaşmasının başlanğıc mərhələsində əsas prioritet texniki imkanların yaradılması və sistemin dayanıqlı işləməsinin təmin edilməsidir.

Avropa İttifaqı ölkələrində, ABŞ-da və bir sıra Asiya dövlətlərində "yaşıl enerji" layihələri təkcə enerji siyasətinin aləti deyil, eyni zamanda, regional inkişaf və fiskal dayanıqlılıq mexanizmi kimi qiymətləndirilir. Bu ölkələrdə layihələrin texniki göstəriciləri ilə yanaşı, onların iqtisadi təsirini ölçən modellər də tətbiq olunur və bu nəticələr gələcək investisiya qərarlarının formalaşmasında mühüm rol oynayır.

Azad edilmiş ərazilərimizdə "yaşıl enerji" layihələrinin həyata keçirilməsi bu baxımdan xüsusi imkanlar yaradır. Layihələr sıfırdan qurulduğu üçün texniki və iqtisadi meyarların paralel şəkildə formalaşdırılması mümkündür. Bu isə "yaşıl enerji"nin yalnız enerji istehsalı mənbəyi kimi deyil, yerli dəyər yaradan, iqtisadi aktivliyi stimullaşdıran və uzunmüddətli fiskal potensial formalaşdıran institusional mexanizm kimi inkişafına şərait yaradır.

Bu sahədəki layihələrdə kapital-investisiya tutumluluğu baxımından da fərqli mənzərə mövcuddur. Günəş enerjisi layihələri nisbətən aşağı istismar xərcləri ilə seçilsə də, ilkin mərhələdə ciddi kapital qoyuluşu tələb edir. Külək enerjisi layihələrində relyef, logistika və şəbəkəyə qoşulma xərcləri investisiya risklərini artırır.

Hidroenerji layihələri isə daha uzunmüddətli geri dönüş dövrü ilə xarakterizə olunur və güclü institusional planlaşdırma tələb edir. Məhz bu nöqtədə əsas problem üzə çıxır: "yaşıl enerji" layihələri texniki layihə kimi sürətlə irəliləsə də, iqtisadi institut kimi hələ formalaşma mərhələsindədir. İnvestisiyaların həcmi böyükdür, potensial yüksəkdir, lakin iqtisadi nəticələrin ölçülməsi və idarəetmə mexanizmlərinin yetkinliyi bu potensialla adekvat deyil.

Beynəlxalq təcrübə göstərir ki, "yaşıl enerji" layihələrinin iqtisadi dəyərləndirilməsi təkcə quraşdırma gücü və istehsal həcmi ilə məhdudlaşmır. Qabaqcıl ölkələrdə bu layihələr uzunmüddətli investisiya kimi qiymətləndirilir və onların yaratdığı əlavə dəyər, fiskal töhfə və regional inkişaf effekti xüsusi göstəricilər əsasında ölçülür. Məhz bu yanaşma "yaşıl enerji"ni texniki layihədən iqtisadi inkişaf institutuna çevirən əsas amil hesab olunur.

Son onillikdə "yaşıl enerji" texnologiyalarının investisiya tutumluluğunda mühüm dəyişikliklər baş verib. "International Energy Agency"nin məlumatlarına görə, günəş enerjisi üzrə 1 meqavat quraşdırma gücünün orta kapital dəyəri 2010-cu illərin əvvəlləri ilə müqayisədə təxminən 60–70 faiz azalıb. Külək enerjisi sahəsində isə bu azalma 40–50 faiz civarındadır. Bu tendensiya texnoloji inkişaf, istehsal miqyasının genişlənməsi və təchizat zəncirlərinin optimallaşdırılması ilə əlaqələndirilir. Nəticədə "yaşıl enerji" layihələrinin giriş baryerləri xeyli zəifləyib.

Eyni zamanda, "yaşıl enerji" layihələrinin istismar mərhələsində maliyyə göstəriciləri daha sabit xarakter daşıyır. Dünya Bankının qiymətləndirmələrinə əsasən, günəş və külək enerjisi obyektlərinin əməliyyat və texniki xidmət xərcləri ənənəvi enerji mənbələri ilə müqayisədə orta hesabla 20–30 faiz daha aşağıdır. Bu, layihələrin uzunmüddətli maliyyə səmərəliliyini artırmaqla yanaşı, enerji qiymətlərinin proqnozlaşdırıla bilməsinə də şərait yaradır.

Beynəlxalq təcrübədə xüsusi diqqət yetirilən göstəricilərdən biri də "yaşıl enerji" investisiyalarının yaratdığı iqtisadi multiplikativ effektdir. Avropa ölkələrində aparılan hesablamalar göstərir ki, bərpaolunan enerji sektoruna yatırılan hər 1 avro investisiya orta hesabla 1,5–2 avro həcmində əlavə iqtisadi aktivlik formalaşdırır. Bu əlavə dəyər əsasən tikinti işləri, yerli material və xidmətlərin struktur dəyişikliklərinə gətirib çıxara bilər. Orta və uzunmüddətli perspektivdə bərpaolunan mənbələrin payının artması enerji təhlükəsizliyini gücləndirəcək, enerji istehsalında riskləri azaldacaq və makroiqtisadi sabitliyə töhfə verəcək.

Azad edilmiş ərazilərdə "yaşıl enerji" layihələrinin uğurla və vaxtında həyata keçirilməsi təkcə texniki imkanlardan deyil, daha çox uyğun institusional və investisiya mühitinin formalaşdırılmasından asılıdır. Mövcud mərhələdə əsas çağırış bu layihələrin icrasını sürətləndirəcək, eyni zamanda, daxili və xarici investorlar üçün cəlbediciliyi artıracaq mexanizmlərin ardıcıl şəkildə tətbiq olunmasıdır.

**İlk növbədə,** "yaşıl enerji" sahəsində aydın və proqnozlaşdırılan qaydalar sistemi mühüm əhəmiyyət daşıyır. Beynəlxalq təcrübə göstərir ki, investorlar üçün əsas məsələ təkcə güzəştlərin mövcudluğu deyil, qaydaların uzunmüddətli sabitliyidir. Tarif formalaşması, şəbəkəyə qoşulma şərtləri və müqavilə öhdəlikləri əvvəlcədən aydın müəyyənləşdirildikdə layihələrin maliyyələşdirilməsi daha sürətli baş tutur. Bu baxımdan "yaşıl enerji" üzrə vahid və şəffaf tənzimləmə çərçivəsinin gücləndirilməsi icra tempinə birbaşa təsir göstərə bilər.

**İkinci** mühüm istiqamət investisiya təşviqlərinin hədəfli şəkildə tətbiqidir. "yaşıl enerji" layihələri üçün vergi və gömrük güzəştlərinin layihənin həyat dövrünə uyğun differensiallaşdırılması, xüsusilə ilkin mərhələdə kapital xərclərini azaldan mexanizmlərin genişləndirilməsi investor risklərini əhəmiyyətli dərəcədə aşağı sala bilər. Bu yanaşma təşviqləri fiskal yük kimi deyil, uzunmüddətli iqtisadi gəlir yaradan alət kimi dəyərləndirməyə imkan verir.

Xarici investisiyaların cəlbi baxımından dövlət–özəl tərəfdaşlığı mexanizmlərinin daha funksional hala gətirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq investorlar üçün risklərin bölüşdürülməsi, gəlir mexanizmlərinin aydınlığı və müqavilə sabitliyi əsas qərar meyarlarıdır. Bu sahədə standartlaşdırılmış müqavilə modellərinin tətbiqi və institusional zəmanət mexanizmlərinin gücləndirilməsi layihələrin reallaşma müddətini qısalda bilər.

**Eyni zamanda,** "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsində beynəlxalq maliyyə institutları və yaşıl fondlarla əməkdaşlığın genişləndirilməsi mühüm sürətləndirici amil ola bilər. Bu qurumların iştirakı təkcə əlavə maliyyə resursu deyil, həm də layihələrə beynəlxalq etimad və reputasiya qazandırır. Bu isə öz növbəsində digər investorların cəlb olunmasını asanlaşdırır.

İnvestisiya cəlbediciliyinin artırılmasında daha bir vacib məqam layihələrin iqtisadi nəticələrinin əvvəlcədən ölçülməsi və təqdim edilməsidir. Potensial investorlar üçün layihənin texniki gücü ilə yanaşı, onun əlavə dəyər yaratma potensialı, büdcəyə töhfəsi və uzunmüddətli gəlirliliyi barədə aydın təsəvvürün formalaşdırılması mühüm rol oynayır. Bu baxımdan, "yaşıl enerji" layihələri üzrə iqtisadi təsir qiymətləndirmələrinin genişləndirilməsi investisiya qərarlarını sürətləndirə bilər.

**Nəhayət,** institusional baxımdan "yaşıl enerji" layihələrinin icrasına cavabdeh olan strukturlar arasında koordinasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Qərarların operativ qəbulu, icazə prosedurlarının sadələşdirilməsi və "vahid pəncərə" prinsipinin geniş tətbiqi layihələrin reallaşma müddətini əhəmiyyətli dərəcədə qısalda bilər.

Beləliklə, "yaşıl enerji" layihələrinin həyata keçirilməsinin sürətləndirilməsi yalnız əlavə maliyyə resursları ilə deyil, daha ağıllı idarəetmə, məqsədyönlü təşviqlər və etibarlı investisiya mühiti ilə mümkündür. Bu tədbirlərin ardıcıl tətbiqi azad edilmiş əraziləri "yaşıl enerji" üzrə regional cazibə mərkəzinə, ümumilikdə isə Azərbaycanın beynəlxalq yaşıl investisiya xəritəsində daha görünən mövqeyə çıxmasına şərait yarada bilər.

***Yaşar MƏMMƏDOV,***
***ETN İqtisadiyyat İnstitutunun***
***şöbə müdiri, iqtisad elmləri doktoru***

# Azərbaycan ABŞ kapitalına geniş qapı açıb

## *Ölkəmizdə Birləşmiş Ştatların 200-dən çox şirkəti fəaliyyət göstərir*

**Ötən il ABŞ-da Donald Trampın yenidən hakimiyyətə gəlməsi qlobal düzəndə, eləcə də ABŞ–Azərbaycan münasibətlərində ciddi dəyişikliklərə səbəb olub. Son bir ildə Vaşinqton və Bakı arasında təmaslar tarixdə ilk dəfə bu qədər intensiv və müsbət məcrada inkişaf edib. Təkcə onu demək kifayətdir ki, bu müddət ərzində Azərbaycan Prezidenti İlham Əliyev ilə ABŞ Prezidenti Donald Tramp arasında bir neçə dəfə görüş keçirilib.**



Bu mərhələ siyasi münasibətlərin möhkəmlənməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın daha da aktuallaşması baxımından da xüsusi əhəmiyyət daşıyır. ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana rəsmi səfəri ərəfəsində ABŞ Ticarət Palatasının nümayəndə heyətinin Bakıya gələrək Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi də bu kontekstdə qiymətləndirilə bilər.

Fevralın 9-da dövlət başçısı ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa" və digər nüfuzlu şirkətlərin rəhbərləri daxildir. Ümumilikdə 31 şirkətdən 60 nəfər Azərbaycana səfər edib.

Qeyd edək ki, ABŞ ölkəmizdə sərmayə həcminə görə ikinci aparıcı investor mövqeyindədir. Hazırda Azərbaycanda ABŞ kapitallı 200-dən çox şirkət fəaliyyət göstərir ki, bu da iqtisadi əməkdaşlığın miqyasını aydın şəkildə göstərir.

Son illər iki ölkə arasında iqtisadi münasibətlər çərçivəsində əsaslı irəliləyiş mövcuddur. 2023-cü ildə idxal 888,1 milyon dollara çatıb, ixrac 16 milyon dollar səviyyəsində qeydə alınıb və ümumi dövriyyə 904,1 milyon dollar təşkil edib. 2024-cü ildə ticarət əlaqələrində ciddi artım müşahidə olunub: idxal 1 milyard 617,93 milyon dollara, ixrac 135,03 milyon dollara yüksəlib, dövriyyə isə 1 milyard 752,96 milyon dollara çatıb. 2025-ci ildə ticarət dövriyyəsi 1 milyard 556 milyon dollar olub.

Dövlət başçısı İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndə heyəti ilə görüşdə bildirdi ki, iqtisadiyyatı şaxələndirmək qarşıya qoyulan hədəflərdən biridir: "Biz yaxşı nəticələr görürük. Mən indicə bu ilin yanvarının statistikasına baxdım, bizim qeyri-neft və qaz sənayemiz demək olar ki, 8 faiz artıb. Bu, həmin şaxələndirmə sayəsində mümkün olub. Beləliklə, ənənəvi enerji mənbələri ilə bağlı müqavilələr və əməkdaşlıq bizə vəsait toplamaq və yenidən investisiya yatırmaq imkanı verir".

Qeyd edək ki, Azərbaycan son illərdə qeyri-neft sektorunun inkişafını iqtisadi siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib və xarici sərmayədarları ölkədə biznes qurmağa, istehsal yaratmağa və yeni texnologiyalar gətirməyə dəvət edir. Bu yanaşmanın ən konkret və praktik nümunələrindən biri sənaye parkları və sənaye məhəllələridir. Dövlət tərəfindən infrastrukturla təmin olunan bu zonalar həm yerli, həm də xarici investorlar üçün daha əlverişli biznes mühiti yaradır, istehsalın genişlənməsinə və ixrac potensialının artmasına xidmət edir.

Bu istiqamətdə xarici sərmayədarların, xüsusilə də ABŞ şirkətlərinin iştirakı ayrıca əhəmiyyət daşıyır. İndiyədək ABŞ şirkətləri Azərbaycanın enerji sektorunda daha önəmli rol oynayıb. Lakin hazırkı mərhələdə əməkdaşlıq imkanları daha geniş sahəyə yayılır. ABŞ biznesi qeyri-neft-qaz sənayesində də Azərbaycan üçün faydalı tərəfdaş ola bilər. Çünki ABŞ şirkətləri yüksək texnologiyalar, sənaye innovasiyası, rəqəmsal həllər, logistika və idarəetmə standartları baxımından dünyada qabaqcıl təcrübəyə malikdir.

Sənaye parkları çərçivəsində ABŞ şirkətlərinin potensial maraq göstərə biləcəyi sahələr kifayət qədər genişdir. Buraya maşınqayırma, avadanlıq istehsalı, kimya sənayesi, qida sənayesi, qablaşdırma, əczaçılıq, tibbi avadanlıqlar, elektronika, rəqəmsal infrastruktur və süni intellekt əsaslı həllər daxildir. Eyni zamanda, bərpa olunan enerji və enerji səmərəliliyi sahələri də yeni əməkdaşlıq istiqamətləri sırasında xüsusi yer tutur.

Azərbaycanın əlverişli coğrafi mövqeyi və beynəlxalq nəqliyyat dəhlizlərində artan rolu da bu əməkdaşlıq üçün əlavə stimul ola bilər. Ölkənin Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində yerləşməsi, tranzit imkanlarının genişlənməsi, liman və dəmir yolu infrastrukturunun inkişafı ABŞ şirkətlərini regiona cəlb etmək baxımından müsbət amildir.

### *Ekspert rəyi*



**Zahid MƏMMƏDOV,**
**iqtisad elmləri doktoru, professor**

Azərbaycan–Amerika iqtisadi əlaqələri, ümumilikdə, strateji, enerji tərəfdaşlığı, ticarət, universitetlərarası əməkdaşlıq, elmi tədqiqatlar və yeni texnologiyalar modeli üzərində formalaşıb. Bu münasibətlərin inkişafı həm siyasi, həm də iqtisadi amillərlə bağlıdır.

Azərbaycan ABŞ üçün Cənubi Qafqaz regionunda ən mühüm tərəfdaşlardan biri hesab olunur. İki ölkə arasında iqtisadi əməkdaşlığın institusional əsasları uzun illər əvvəl qoyulub və bu baza qarşılıqlı investisiya təşviqi, biznes mühitinin genişləndirilməsi, eləcə də birgə layihələrin dəstəklənməsi istiqamətində inkişaf edib.

Əməkdaşlığın əsas istiqamətlərindən biri enerji sahəsidir. Xüsusilə Avropanın enerji təhlükəsizliyi kontekstində Azərbaycan regional enerji layihələrində mühüm rol oynayır. ABŞ və Azərbaycan bu çərçivədə Avropaya enerji tədarükünün şaxələndirilməsi, regional enerji əməkdaşlığının gücləndirilməsi və enerji infrastrukturunun inkişafı istiqamətində paralel maraqlara malikdir. ABŞ şirkətləri Azərbaycanın müxtəlif sektorlarında, o cümlədən enerji və qeyri-neft sahələrində fəaliyyət göstərir.

Son illərdə əməkdaşlıq daha geniş sahələri əhatə etməyə başlayıb. Xüsusilə müasir dövrdə logistika, tranzit və regional nəqliyyat dəhlizləri, rəqəmsal infrastrukturun inkişafı, innovasiya ekosisteminin formalaşdırılması, eləcə də texnologiyayönümlü layihələr iki ölkə arasında əlaqələrin yeni mərhələsini müəyyənləşdirir.

Nəticə etibarilə, Azərbaycan–Amerika iqtisadi münasibətləri yalnız enerji və ticarət müstəvisində deyil, eyni zamanda, nəqliyyat, rəqəmsallaşma, innovasiya və təhsil kimi sahələrdə də genişlənərək daha çoxşaxəli strateji tərəfdaşlıq formatına çevrilir.

***Musa BAĞIRLI***
***XQ***

# Vaşinqtonla münasibətlərdə müasir texnologiya amili

## *Strateji tərəfdaşlıqda süni intellekt ön plana çıxır*

**Ötən il 8 avqustda Vaşinqtonda keçirilən yüksək səviyyəli görüş və əldə olunan razılaşmalar Azərbaycan ilə ABŞ arasında süni intellekt sahəsində əməkdaşlığın dərinləşməsi üçün real irəliləyiş mərhələsinin əsasını qoydu. Həmin görüşlər çərçivəsində strateji tərəfdaşlığın yeni texnoloji ölçüləri müəyyənləşdirildi və bu kontekstdə süni intellekt əsas prioritet istiqamətlərdən biri kimi ön plana çıxdı.**

Bu texnoloji xəttin mahiyyəti fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edən zaman Prezident İlham Əliyev tərəfindən açıq şəkildə ifadə olundu: "Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq". Bu fikir göstərir ki, süni intellekt artıq Azərbaycan–ABŞ münasibətlərində daha geniş strateji əməkdaşlıq paketinin mühüm tərkib hissəsi kimi nəzərdən keçirilir. Son bir il ərzində həyata keçirilən qarşılıqlı səfərlər, əsaslı təmaslar və biznes-platformalar məhz bu xətt üzrə formalaşıb.

2025-ci ilin sonlarından etibarən Azərbaycan və ABŞ arasında sözügedən sahə üzrə aktivlik müşahidə olunur. Nəzərə alsaq ki, ABŞ-ın Cənubi Qafqazda süni intellekt sahəsində hab yaratma istəyi var, Azərbaycan bu çərçivədə ideal tərəfdaşdır. Təsadüfi deyil ki, Silikon Vadisində keçirilən görüşlər Azərbaycanın süni intellekt gündəmini qlobal texnoloji ekosistemlə əlaqələndirmək məqsədi daşıyır. Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev ötən ilin dekabrında ABŞ-a səfəri zamanı "NVIDIA" şirkətinin Qlobal Süni İntellekt təşəbbüsləri üzrə vitse-prezidenti Calista Redmond ilə görüşü ölkələr arasında milli süni intellekt platformalarının yaradılması, yüksək performanslı hesablama gücündən istifadə etməklə dövlət xidmətlərinin modernləşdirilməsi, startap ekosistemi və süni intellekt üzrə kadr hazırlığı kimi mövzularla yadda qalmışdı.



Bu səfər çərçivəsində ABŞ-ın prosessor istehsalçısı AMD şirkətinin rəhbərliyi ilə də görüşlər keçirilib. Orada Azərbaycanın süni intellekt imkanlarının genişləndirilməsi, bölgədə rəqəmsal mərkəzə çevrilməyi və yeni tədqiqat-təhsil təşəbbüsləri barədə fikir mübadiləsi aparılıb.

Daha bir məqam isə şübhəsiz, Prezident İlham Əliyevin ötən ay Davosda keçirdiyi görüşlərdir. Dünyanın aparıcı texnologiya şirkətlərinin rəhbər şəxsləri ilə də sıx dialoq qurulması süni intellekt sahəsində Azərbaycanı hədəfə bir addım daha yaxınlaşdırır. Davosda dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüş də məhz bu qəbildən idi. Söhbət zamanı şirkətin Azərbaycanda fəaliyyəti və onun iştirakı ilə ölkəmizdə superkompüter mərkəzinin yaradılması qeyd edildi, onun resurslarının süni intellekt və qərar qəbuletmə sahələrində tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

Mövcud dinamika Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərində də hiss olunur. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin nümayəndə heyəti ilə görüşü buna əyani misaldır. Məclisdə "Apple", "Mastercard", "Visa", "Ericsson", "Motorola Solutions", "Honeywell", "Parallel Wireless", "Meta", "Resecurity", "Global Data Risk", "WhiteFox Defense Technologies", "bp", "Lummus Technology" və digər aparıcı ABŞ şirkətlərinin rəhbər və nümayəndələri iştirak edib və kibertəhlükəsizlik, süni intellekt və rəqəmsal texnologiyalar sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.

Ümumiyyətlə, ölkəmizdə süni intellekt sahəsində təməl addımlar atılıb, bünövrə sağlam şəkildə qurulub. 19 mart 2025-ci il tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası" da məhz bu çərçivədə aktualdır. Bu kimi yanaşmalar Azərbaycanın qlobal "Süni İntellekt Hazırlığı İndeksi"ndə qısa müddətdə ciddi irəliləyiş əldə etməsinə və reytinqdə 41 pillə yüksələrək 70-ci yerə çatmasına imkan yaradıb. Buna baxmayaraq, Azərbaycan daim bu çərçivədə addımlarını bir qədər də irəli atmalı və ilk olaraq regional miqyasda, daha sonra qlobal sferada öz layiqli yerini tutmalıdır.

### *Ekspert rəyi*



**Elvin ABBASOV,**
**İKT Sənayesi Assosiasiyası İdarə Heyətinin sədri**

Prezident İlham Əliyevin Amerika nümayəndə heyəti ilə görüşü Azərbaycanın gələcək inkişaf strategiyasının neft amilindən rəqəmsal intellektə doğru keçidini rəsmi şəkildə təsdiqləyir. Amerika Birləşmiş Ştatları rəqəmsal texnologiyalar və süni intellekt sahəsində dünyanın aparıcı mərkəzi olduğu üçün bu əməkdaşlıq Azərbaycan üçün sadəcə iqtisadi tərəfdaşlıq deyil, həm də sürətli texnoloji sıçrayış imkanıdır. Amerika şirkətlərinin bu prosesdə əsas tərəfdaş seçilməsi ölkəmizdə rəqəmsal infrastrukturun ən müasir qlobal standartlar səviyyəsində qurulmasına və yerli innovasiya ekosisteminin canlanmasına birbaşa təsir göstərəcək.

Süni intellekt çərçivəsində iki ölkə arasındakı perspektivlər xüsusilə enerji sektorunun intellektual idarə edilməsi, kənd təsərrüfatında məhsuldarlığın proqnozlaşdırılması və dövlət xidmətlərinin tam rəqəmsallaşması istiqamətində çox genişdir. Amerika şirkətlərinin təcrübəsi Azərbaycanda böyük məlumat bazalarının təhlili və onların əsasında qərar qəbul edən ağıllı sistemlərin qurulmasına böyük töhfə verə bilər. Bu əməkdaşlıq həm də azərbaycanlı gənc mütəxəssislərin yüksək texnologiyalar sahəsində beynəlxalq təcrübə qazanması və ölkəmizin regionda rəqəmsal mərkəzə çevrilməsi üçün həlledici rol oynayacaq.

***Nurlan ABDALOV***
***XQ***

# İcbari sığortanın könüllü uğurları



**Fevralın 10-da "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı 2025-ci ildə icra olunmuş strateji layihələr üzrə hesabatını təqdim etdi. Mərasimdə ötən il həyata keçirilmiş layihələr, yeni istifadəyə verilmiş elektron xidmətlər, eləcə də İSB-nin yenilənmiş internet səhifəsi ilə bağlı kütləvi informasiya vasitələrinin nümayəndələrinə ətraflı məlumat verildi.**

İSB-nin icraçı direktoru Vüsal Məsiyev jurnalistləri salamlayaraq icbari sığorta sahəsində maarifləndirmə işlərinin genişləndirilməsində medianın mühüm tərəfdaş olduğunu diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycanda icbari sığorta bazarı böyük potensiala malikdir və bu potensialın reallaşdırılması istiqamətində zəruri tədbirlər ardıcıl şəkildə davam etdirilir.

Rəhbərlik etdiyi qurumun əsas məqsədinin icbari sığorta sisteminin sabitliyinin təmin edilməsi, sığorta olunanların və üçüncü şəxslərin maraqlarının qorunmasından ibarət olduğunu vurğulayan V.Məsiyevin sözlərinə görə, son illər bu sahədə texniki və institusional islahatlar aparılıb, kadr potensialının gücləndirilməsi, həmçinin ictimaiyyətin sığorta savadlılığının artırılması istiqamətində mühüm addımlar atılıb.

İcraçı direktor onu da bildirdi ki, növbəti dövrdə innovativ yanaşmalar və müştəri məmnuniyyətinə əsaslanan dəyişikliklərlə sığorta sektorunda yeni tətbiqlər həyata keçiriləcək. Onun sözlərinə görə, "İcbari Sığorta Bürosu" hazırda "Hadisələrin xəritəsi" adlı yeni layihə üzərində işləyir: "Mərkəzi Bankla birlikdə ölkə üzrə hadisələrin xəritəsinin hazırlanmasını nəzərdə tutan layihəmiz var. Bu, xüsusilə sığorta şirkətləri üçün maraqlı olacaq. Layihəni həm Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həm də Daxili İşlər Nazirliyi ilə paylaşmağı planlaşdırırıq. Toplanan məlumatları emal edərək sığorta sektoru və dövlət qurumları üçün faydalı analitik resursa çevirmək niyyətindəyik. Layihənin reallaşdırılması hadisələrin sayının azalmasına, həmçinin vətəndaşların əmlakına və sağlamlığına dəyən zərərlərin minimuma endirilməsinə töhfə verə bilər. Əsas məqsədimiz odur ki, vətəndaşlarımız daha az zərər görsün, eyni zamanda, riskli hadisələrin sayı azalsın".

Daha sonra İSB-nin Biznesin inkişafı departamentinin rəhbəri Xanım Camalova 2025-ci ildə icra olunmuş strateji layihələr üzrə illik hesabatla çıxış etdi. O bildirdi ki, təqdim olunan strategiya xəritəsi sığorta sektorunun müasir standartlara uyğunlaşdırılmasını və rəqəmsal transformasiyasını hədəfləyən genişmiqyaslı planı əhatə edir. X.Camalovanın sözlərinə görə, strategiya innovasiya, dürüstlük və dayanıqlılıq prinsiplərinə əsaslanaraq həm sığortaçıların, həm də sığorta olunanların maraqlarının ədalətli şəkildə qorunmasını qarşıya məqsəd qoyur.

Qurum rəsmisi qeyd etdi ki, "2025-2027-ci illərdə Sığorta Sektorunun İnkişaf Strategiyası"ndakı 7 fəaliyyət üzrə işlər ötən il yekunlaşıb, 39 fəaliyyət üzrə isə işlər davam edir: "Ümumilikdə, strategiya çərçivəsində 2025-2027-ci illər üzrə 14 təşəbbüs və 66 fəaliyyət nəzərdə tutulub. Fəaliyyətlərin icrası zamanı heç bir gecikmə müşahidə olunmayıb".

Diqqətə çatdırıldı ki, əsas hədəf "data" əsaslı qərarvermə mexanizmləri və süni intellekt texnologiyalarından istifadə etməklə icbari sığorta sahəsində aparıcı "InsurTech" mərkəzinə çevrilməkdir. Bu çərçivədə vahid məlumat mərkəzinin yaradılması, İT infrastrukturunun gücləndirilməsi və maliyyə ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi strateji prioritetlər kimi müəyyən olunub. Eyni zamanda, korporativ idarəetmə sistemlərinin yenilənməsi, Azərbaycan Yaşıl Kart Bürosunun fəaliyyətinin genişləndirilməsi və "Kağızsız büro" konsepti vasitəsilə ekoloji cəhətdən dayanıqlı mühitin formalaşdırılması nəzərdə tutulur.

"İcbari Sığorta Bürosu"na sığorta şirkətlərindən daxil olan sorğuların 97 faiz azaldığını bildirən X.Camalovanın sözlərinə görə, büro üzvü olmayan sığortaçılar üçün könüllü sığorta müqavilələri üzrə "Forma 4" məlumatlarının elektron qaydada sorğulanmasının təmin edilməsi layihəsi tamamlanıb. Bunun da nəticəsində sığorta şirkətlərinin bu növ sorğular üçün quruma müraciət etməsinə ehtiyac qalmayıb və məlumatların sığorta şirkətləri tərəfindən birbaşa əldə edilməsi imkanı yaradılıb.

Son zamanlar İSB-nin dayanıqlı maliyyə və zəmanət fondu üzrə investisiya portfelinin gəlirliliyinin proqnozları üstələdiyini vurğulayan qurum rəsmisi bildirdi ki, Azərbaycan Mərkəzi Bankı dayanıqlı maliyyə və zəmanət fondu üzrə effektiv kompensasiya ödənişləri və subroqasiya mexanizmlərinin qurulması üçün subroqasiya işinin təkmilləşdirilməsinə dair qaydalar və prosedurlar hazırlanaraq təsdiq edib ki, bunun da nəticəsində investisiya portfelinin dəyəri artıb.

Mərasimdə, həmçinin İSB-nin yenilənmiş internet səhifəsi – www.isb.az media nümayəndələrinə təqdim edildi. İSB-nin Rəqəmsal həllərin inkişafı departamentinin rəhbəri İslam İsmayılov bildirdi ki, saytın yeni dizayn və təkmilləşdirilmiş strukturla istifadəyə verilməsində məqsəd istifadəçilər üçün daha rahat, çevik və funksional platformanın yaradılması, informasiya əlçatanlığının artırılmasıdır.

Qeyd olundu ki, yenilənmiş veb səhifədə naviqasiya sistemi sadələşdirilib, ən çox istifadə olunan bölmələr ön plana çıxarılıb, Azərbaycan və ingilis dillərində istifadə imkanı təmin edilib. Eyni zamanda, İSB-nin informasiya sistemində "Şəxsi kabinet"in dizaynı yenilənib və funksionallığı genişləndirilib. Bununla yanaşı, 4 yeni elektron xidmət – "Bonus-Malus əmsalı üzrə onlayn müraciət", "Radar cəriməsi üzrə onlayn müraciət", "Şəxsin yazılı razılığı əsasında sığorta hadisəsi tarixçəsinin sorğulanması üzrə onlayn müraciət" və "Sığorta hadisəsi üzrə müstəqil ekspert təyini üçün onlayn müraciət" istifadəyə verilib ki, bu da xidmətlərin daha operativ və səmərəli göstərilməsinə imkan yaradır.

Təqdimatdan sonra geniş müzakirələr aparıldı, media nümayəndələrinin sualları ətraflı cavablandırıldı.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Laçının "Hidro-3" layihəsi beynəlxalq karbon bazarında



**Laçın rayonunda yerləşən "Mirik" və "Qaraqışlaq" kiçik su elektrik stansiyalarını əhatə edən "Hidro-3" layihəsi "SOCAR Trading" və "AzərEnerji" ASC-nin əməkdaşlığı çərçivəsində beynəlxalq karbon bazarına uğurla daxil olub.**

"AzərEnerji"dən verilən məlumata görə, layihə 2025-ci il mayın 28-də dünyanın aparıcı karbon sertifikatlaşdırma qurumlarından biri olan Gold Standard tərəfindən qeydiyyata alınıb, bu il yanvar 28-də "Hidro-3" layihəsi üzrə karbon kreditləri rəsmi şəkildə təqdim edilib. Bununla da, sözügedən layihə Azərbaycan tarixində bərpaolunan enerji mənbələri üzrə əldə edilmiş ilk beynəlxalq karbon kreditləri statusu qazanıb.

Xatırladaq ki, karbon kreditləri 2024-cü ilin aprel ayından 2025-ci ilin avqust ayınadək olan dövrü əhatə edir və ümumi həcmi 10 min 745 karbon vahidi təşkil edir. Bu göstərici layihənin istixana qazı emissiyalarının azaldılmasına real və ölçülə bilən töhfə verdiyini təsdiqləyir. Bu nailiyyət Azərbaycanın "yaşıl enerji" strategiyasının uğurla icra olunduğunu və Qarabağ bölgəsinin bərpaolunan enerji potensialının beynəlxalq səviyyədə tanındığını bir daha nümayiş etdirir.

***XQ***

# Laçında el gücünün nəbzi döyünür





**Artıq 5 ildən çoxdur ki, azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzurda rəşadətli Azərbaycan Ordusunun döyüş səngərləri qurucu xalqımızın əmək cəbhəsinə çevrilib. “Böyük Qayıdış” Konsepsiyası hərtərəfli gerçəkləşdirilir. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin tapşırıqlarına əsasən, düşmən tapdağından qurtulan ərazilərimizdə irimiqyaslı tikinti layihələri həyata keçirilir, infrastruktur əsaslı şəkildə yenilənir. Laçın şəhəri, rayonun Zabux, Sus, Güləbird, Qorçu və digər kəndləri də istisna deyil.**

Bu gün dağlar diyarında həyat qaynayır. Azərbaycan rəhbəri Laçına səfərlərindən birində deyib: “Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun”.

Fərəhlidir ki, Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Şəhərin tarixən mövcud olmuş məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilir. Çoxmənzilli binalar da tikilir və insan nəfəsi ilə qızdırılır.

Biz Laçında olarkən söhbət etdiyimiz rayon sakinləri - Gündüz Təhməzov və anası İpək xanım, təsərrüfatını qaydaya salan Natiq Abbasov və qonşusu – ağsaqqal Zülfüqar Babayev 31 illik ayrılığın sonundakı vüsaldan xoşbəxt olduqlarını fərəhlə dilə gətirdilər. Dedilər ki, yurda iməkləyib dönməyə də, yıxılmış evinin yerində çadırda yaşamağa da razı idilər. Amma bura gəlib gözəl evlərlə təmin edilmələrinin sevincinə qərq olublar. Hər biri də fikrini bu şəkildə tamamladı: “Prezident İlham Əliyevə və onun rəşadətli Ordusuna ailəlikcə minnətdarıq. Bizə bu sevinci yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq”.

İndi havalar qarlı-şaxtalı olsa da, Çaykənarı bulvar Laçın sakinlərinin və qonaqların sevimli istirahət məkanlarından birinə çevrilib. Həkəri çayının üstündə göl yaradılıb. Burada asma körpü inşa edilib, ətrafda yaşıllıqlar salınıb, kotteclər tikilib, əyləncə mərkəzi yaradılıb. Yayda buraya səfər edən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Həkərinin sahilində keçirilən “Laçın Şəhəri Günü” bayram tədbirində iştirak ediblər. “Mişni” və “Alxaslı” kiçik su elektrik stansiyalarının açılışına qatılıb, Laçın Beynəlxalq Hava Limanında aparılan tikintinin gedişi ilə tanış olublar. Səfər zamanı Laçında mehmanxana kompleksinin təməli qoyulub. Dövlət başçısı və xanımı Laçının sənaye zonasında mebel fabrikinin açılışında da iştirak ediblər.

Eyni zamanda, rayonda “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, “Həkəri Balıq Təsərrüfatı”nın açılışı olub. Şəhid Ədalət Məmmədov adına Zabux kənd orta məktəbinin hərbi rəhbəri, Vətən müharibəsi qazisi Taleh İsgəndərlinin həyəcanla dilə gətirdiyi ürək sözləri hər kəsi qürurlandırıb: “44 günlük Vətən müharibəsində müəyyən payımın olmasından şadam. Bu gün azad Laçında olmaq, havası ilə nəfəs almaq, quruculuq işləri ilə tanışlığın qüruru sözlə bəyana gəlməz”.

Qeyd edək ki, quruculuq işləri sayəsində yeni nəfəs verilən Laçın şəhərinin Baş Planında iri xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektlərinin də yaradılması reallaşdırılır. Heydər Əliyev Fondunun xətti ilə Laçında məscid kompleksi də tikilir (?). Prezident İlham Əliyev Laçında olarkən məscidin təməlini qoyub. 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək. Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesi də davam edir.

Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı statusunu alıb və buna layiq olduğunu rəngarəng mədəni tədbirlərlə sübut edib. Burada vaxtaşırı keçirilən musiqi festivalları, sərgilər, folklor gecələri Laçının cazibəsini, şəhərin ehtişamını daha da artırıb.

Bu yaxınlarda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Prezidentin bölgədəki xüsusi nümayəndəliyinin dəstəyi ilə ağ libaslı Laçında çəkilmiş videoçarxa baxan hər kəs dağlar diyarında qış möcüzəsinin şahidi olub. Xoş mənzərələr sakinlərin də, qonaqların da ruhunu oxşayıb. Kadrlardan göründüyü kimi, Laçın durmadan gözəlləşir, gələcəyə inamla irəliləyir. Hətta dağ yamaclarında gəzib yem axtaran cüyürlər də lentə alınıb.

**Həmkarımız, Əməkdar jurnalist Firuzə Nadir:**

– Ötən yay xarici qonaqlarla eyni təyyarədə Laçına uçurduq. Bu, yuxu deyil, həqiqət idi, Azərbaycan gerçəyi idi. 450 kilometr 45 dəqiqəyə geridə qaldı. Elə Laçın Beynəlxalq Hava Limanından gözəlliklər bizi qoynuna aldı. Avtobusla hotelə yollandıq. Təbiətin gözümüzü sevindirdiyi, ruhumuza sığal çəkdiyi anlar unudulmaz oldu. Nəğməsini doya-doya dinlədik Laçının. Hər addımda Zəfərin izlərini, şəhidlərimizin qəhrəmanlığını, xalqımızın əzmini, ruhunu hiss etdik.

Türkiyənin ailə və sosial xidmətlər nazirinin müavini Ləman Yenigün heyrətini gizləyə bilmədi: “Bu nə gözəllik böylə!.. Laçın bumu? Çox möhtəşəmdir!”. Mən də dedim ki, Çanaqqalaya səfərimdə Laçını Çanaqqalaya bənzətmişdim. Türk məmur xanım isə “Əvət, əvət, çox bənzəyir...” deyərək bunu təsdiqlədi. Yadıma düşdü ki, 2014-cü ildə Laçın haqqında hazırladığım sənədli filmimə “Əsirlikdə qala qalmaz” adını vermişdim. Əsirlikdə qalmadı qalamız. Azərbaycan insanının məğrurluğu, əyilməzliyi, qəhrəmanlığı, yurd sevgisi Laçına Zəfər gətirdi...

Bir neçə gün öncə Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində Laçın Rayon İcra Hakimiyyəti başçısının Laçın rayonu üzrə 2025-ci ildə görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında da qeyd edildiyi kimi, dövət başçısının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan laçınlı məcburi köçkünlərin 2023-cü ildən başlayaraq Laçın rayonuna Böyük Qayıdışın başlanması sayəsində hazırda 973 ailə 3 min 647 nəfər keçmiş laçınlı məcburi köçkün Laçın rayonu ərazisinə, həmçinin 126 ailə 473 nəfər isə Qarabağa – əzəli Azərbaycan torpağına qayıdıb. Ərazidə geniş bərpa və quruculuq işləri həyata davam etdirilir.

***Ə.ƏLİYEV***
***XQ***

# Qürur və ağrı ortaqlarımız





**Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharətinin və uğurlu siyasətinin sayəsində böyük zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsi dövlətin qətiyyətli iradəsinin bütün dünyaya nümayişi, xalq–ordu birliyinin təntənəsi oldu. Möhtəşəm tarixi qələbəmiz minlərlə igid oğulun canı və qanı bahasına qazanıldı. Şəhidlərimiz tarix yazdı, bizə başıuca yaşamaq haqqını miras qoydu. Onların hər biri bu torpağın əbədi sahibinə çevrildi. Bu gün Qarabağda, Şuşada, Xankəndidə, Xocalıda dalğalanan üçrəngli bayrağımız hər bir şəhidin müqəddəs ruhuna ehtiramın ifadəsidir.**

Həmin igidlərdən biri də şəhid gizir İlkin Aslan oğlu Şükürovdur. İlkin gənc yaşında Vətən uğrunda canından keçdi, adı qürur və ehtiramla çəkilən qəhrəmanlar sırasında əbədiləşdi. O təkcə ailəsinin deyil, bütün Qazaxın, bütün Azərbaycanın fəxri oldu. Onun həyat yolu, döyüşlərdə göstərdiyi şücaət, layiq görüldüyü orden və medallar bir gəncin Vətən sevgisinin nə qədər uca olduğunu göstərir.

İlkin, sadəcə, döyüşə yollanan bir hərbçi deyildi. O, üzərinə düşən məsuliyyəti sona qədər daşıyan, ən çətin anlarda belə geri çəkilməyən, döyüş yoldaşları üçün arxa-dayaq olan bir gizir idi. Silahdaşlarının xatirələrinə görə, İlkin ən təhlükəli məqamlarda belə soyuqqanlılığını qoruyur, verilən tapşırıqları qətiyyətlə yerinə yetirirdi.

Füzuli istiqamətində gedən ağır döyüşlər zamanı o, dəfələrlə düşmənin intensiv atəşi altında qalsa da, mövqeyini tərk etmədi. Yaralı döyüş yoldaşlarını təhlükəli ərazidən çıxarmağa çalışdı. Son döyüşündə də geri addım atmadı. 14 oktyabr 2020-ci ildə İlkin Şükürov Füzuli torpağında şəhidlik zirvəsinə ucaldı. Cəmi 25 il ömür sürdü, amma bu qısa ömrə bütöv bir Vətən sevgisi sığdırdı.

Onun göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən də yüksək qiymətləndirildi. İlkin Şükürov ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeni, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olundu...

Bu gün şəhid ailələrinə göstərilən diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindən biri, igidlərin ruhuna ehtiramın bariz nümunəsidir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və qazilərə göstərdiyi xüsusi diqqət bölgələrdə də konkret addımlarla davam etdirilir. Qazax rayonunda bu qayğı illərdir ki, ardıcıl şəkildə hiss olunur.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov təkcə müəyyən günlərdə və ya tədbirlərdə deyil, hər zaman şəhid ailələrinin, qazilərin və müharibə iştirakçılarının yanındadır. Yüzlərlə ailənin qapısını döyüb, onların qayğıları ilə maraqlanıb, problemlərini dinləyib və həll edib. Bu münasibət vəzifə borcundan daha çox, insanlıq borcu kimi yadda qalıb.

Bu günlərdə Rəcəb Babaşovun Vətən müharibəsi şəhidi İlkin Şükürovun atası Aslan Şükürovu xəstəxanada ziyarət etməsi də həmin diqqətin davamlılığının növbəti nümunəsi idi. Bu ziyarət sadəcə bir xəstənin halını soruşmaq deyildi. Bu, “şəhid ailəsi tək deyil, unudulmur” mesajı idi. Axı səmimi söhbət, sadəcə diqqət və içdən gələn qayğı bəzən insan üçün ən böyük mənəvi dayaq olur.

Şəhid atası Aslan Şükürovun minnətdarlıq dolu sözləri də göstərdi ki, bu görüşlər formal xarakter daşımır. Əksinə, bu diqqət ailələrin qəlbinə nüfuz edir, onlara təsəlli və güc verir. Bu gün Qazaxda şəhidlərin adları küçələrdə, bulaqlarda və xatirələrdə yaşayır. Amma ən önəmlisi, onlar insanların qəlbində yaşayır. İlkin kimi oğulların adı çəkiləndə kövrəkliklə yanaşı, qürur da hiss olunur.

Həmin gün rayon rəhbərinin xəstəxanada digər palataları da gəzərək xəstələrlə maraqlanması, insanların dərdini dinləməsi bir daha sübut etdi ki, idarəetmədə insan amili hər zaman ön plandadır.

Bəli, hamımız şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik. Onların ailələrinə sahib çıxmaq, yanlarında olmaq hər birimizin mənəvi borcudur. Bu yol davam edir. Qayğı da, diqqət də, ehtiram da daimidir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
***Qazax rayonu***

# Gedək, gəzək biz Xızı dağlarını...

**Qarlı bir qış günü Xızıya getmişdik. Altıağacda, “Cənnət bağı”nda, Müşfiq muzeyində, “Qüllə” çay evində olduq, möhtəşəm mənzərələri gözümüzə-könlmüzə çəkdik.**



Azərbaycanın dağ rayonları içərisində Bakıya ən yaxın olanı Xızı paytaxtın 70 kilometrliyində yerləşir. Bura Böyük Qafqaz silsiləsinin dağətəyi cənub yamacından Samur-Dəvəçi ovalığına qədər uzanan çoxtəpəli yayladır. Ən uca dağı Dübrardır – 2203 metr.

Xızı yayda da, qışda da gözəl olur. Budəfəki səfərimiz qışın qarlı çağına düşmüşdü. Dağların dumanlı toranlığına bürünmüş Xızı qarın “hökmran”lığında idi. Şimaldan gələn soyuq hava kütləsi bu əraziləri sanki Sibirə döndərmişdi. Bizim kimi, Altıağaca qarın görüşünə gələnlər az deyildi. Meşəliyin bəyaz donu, damların sırsıraları, suların sükutu, eyni zamanda, bacaların şaxtaya üz verməyən tüstüsü ecazkar mənzərə yaratmışdı. Kirşə, konki və xizək sürənlər deyə-gülə yarışır, ana təbiətə qaynayıb qarışırdılar. Bir qədər yaxında tələdən qaçıb-gedən dovşan da gördük, bir qədər aralıda şələ quyruğu qar sovuran tülkü də. Əsl “Qar bayramı” idi.

Yerli sakinlərlə söhbətdən öyrəndik ki, Xızı əhalisinin erkən orta əsrlərdə Sasanilərin Şimal sərhədlərini qorumaq üçün Xızıstan əyalətindən buraya köçürüldüyü güman edilir. Bəzi ehtimallara görə, Xızı toponimi həmin adla bağlıdır. Ərəb işğallarına qədər bura Xizan şahlığının mərkəzi olub. IX əsr ərəb mənbələrində Xizan qalasının və xizan tayfasının adı çəkilir. Xarabalıqları Dizəvər (“Qala yeri”) adı ilə məlumdur. Bir çox tədqiqatçılar Xızı toponimini türk dillərindəki xız-qız (od, istilik) sözü ilə bağlayırlar. Çünki burada daha çox türk tayfalarının yaşadığı məlum faktdır.

Xızı dağları açıq havalarda Sumqayıtın dəniz sahillərindən aydın görünür. Şəhərdən oraya gündəlik işə-gedib-gələnlər də var. Həkim dostlarım Babək Əzimli və Şakir Kərimov bu “əziyyət”ə qatlanıb zövq alanlardandır. Onlarla çayxanada görüşüb söhbət elədik. Xızılı məşhurları – Azərbaycan dramaturgiyasının parlaq ulduzu Cəfər Cabbarlını, nakam şairimiz Mikayıl Müşfiqi, Seyfəddin Dağlını, Cabir Novruzu



xatırladıq. Bir də Ələkbər Tağıyevin Hafiz Baxışla ərsəyə gətirdiyi, ilk dəfə Zeynəb Xanlarovanın oxuduğu məşhur mahnı yada düşdü:

***Ana təbiətin seyrinə dalıb***
***Min dəfə gəzmişəm azı dağları.***
***Könlümdə əbədi bir məskən salıb,***
***Məni heyran etdi Xızı dağları.***

Uşaqlar qartopu oynayır, bizsə çay içə-içə söhbət edirdik. Qeyd olundu ki, Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Sadıqzadəni sənətkar edən düz 105 il əvvəl – fevral ayında qoynunda doğulduğu bu doğma dağlar olub. Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri – yazıçı Seyid Hüseynin və xanım şair Ümgülsümün ailəsində dünyaya göz açan, ilk ilham mayasını boyalı dağlardan tutan, Bakıda və Moskvada oxuyub, müharibə illərində sürgün edilib, amma qəlbindəki Xızı eşqi heç vaxt sönməyib. Müdrik çağında Rəssamlıq Akademiyasında müəllimlik edərkən tələbələrini neçə dəfə bu dağlara tablolar çəkməyə gətirib.

Ağ saçı, saqqalı ilə bir suyu elə rəhmətlik Oqtay Sadıqzadəyə bənzəyən, 3 onillikdən bəri Xızıda, doğma Qarabulaq kəndində yaşayan ağsaqqal şair Ağasəfa ilə də həsbi-halda olduq. Öyrəndik ki, Ağasəfa repressiya qurbanı olmuş xızılı şair Əlirza Xızılının (Abbasov) qohumudur. Sadə, səmimi, təvazökar, istiqanlı bir insan, gözəl şeirlər müəllifidir. Elə günümüzün ovqatına uyğun olaraq oxuduğu bir şeirinin misralarını yaddaşımıza həkk elədik:

***İşığın eşqi var dəli başımda,***
***Qəlbimi Günəşdə yoğuracağam.***
***Lap son nəfəsimdə zirvə qaşında***
***Bir papaq qar kimi ağaracağam.***

Şəhidlər xiyabanında isə sanki bədahətən bir bayatı çağırdı 84 yaşlı Ağasəfa:

***Ay Ağa, qarışıqdır,***
***Yerlə Göy qarışıqdır.***
***Şəhidlər yatan yerdə***
***Qar nurdur, qar işıqdır.***

Beləcə, soyuq bir qış günü Xızıya səfərimiz bizdə xoş və zəngin təəssüratlar yaratdı.

***Ə.DOSTƏLİ***
***XQ***

*Bölgələrimizin poetik ovqatı*

# Kəndə, torpağa yaxın şair



**Azərbaycan poeziyasında kənd mövzusu yalnız etnoqrafik və ya nostalji təzahür kimi deyil, həm də milli-mənəvi kimliyin poetik ifadə forması kimi çıxış edir. “80-cilər ədəbi nəsli”nin ən parlaq nümayəndələrindən biri olan, Şəkinin Kiçik Dəhnə kəndində yaşayıb yaradan Qoca Xalid yaradıcılığı bu kontekstdə xüsusilə diqqətəlayiqdir. Onun şeirlərində kənd, torpaq, təbiət və yaddaş motivləri bədii dekorasiya funksiyası daşımır; əksinə, poetik düşüncənin mərkəzi ideya-emosional oxunu təşkil edir.**

Bugünlərdə Qoca Xalidin bir qədər nasazladığını və Şəki Mərkəzi Xəstəxanasında müalicə aldığını eşidən kimi ziyarətinə getdim və ona ürək-dirək verdim.

Təbii ki, Qoca Xalidlə poeziya haqqında da söhbətimiz oldu. Bir daha əmin oldum ki, kəndə bağlı “kövşən iyi” anlayışı onun əsas poetik simvollarından biridir. Bu, zəhmət və torpaq yaddaşı, təbiilik və səmimiyyət, süni şəhər estetikası ilə qarşıdurmadır.

***Düşmən sevincini duydum uzaqdan,***
***Bezdim dinləməkdən dost gileyini...***
***Süni ətirlərin artdığı vaxtda***
***Sevən olacaqmı kövşən iyini?−***
***Kövşən iyi gəlir şeirlərimdən.***

Qoca Xalidin şeirlərində təbiət insaniləşdirilir: çinar susur, külək pıçıldayır, bildirçinlər giley edir, çöllər yatır. Bu antropomorfizm şairin dünyagörüşündə insan–təbiət vəhdətinin ifadəsidir.

***Unutmuram bütün ağrı-acını;***
***Nə olsun ki girən yoxdu qoluma?−***
***Külək özü sığallayır saçımı,***
***Günəş özü nur çiləyir yoluma...***

Yaxud “Kim deyir ki qaya kardır, dərə key?” misrasında təbiətin “eşidən” və “duyğulu” varlıq kimi təqdimatı xalq poeziyası və folklor düşüncə tərzi ilə səsləşir. Qoca Xalid peoziyasında mühüm tematik xətlərdən biri şəhər–kənd qarşıdurmasıdır. Şəhər imtahan, şöhrət, imkan və təzyiq məkanıdır; kənd isə bahar, torpaq, yaddaş və azadlıq deməkdir.

***Dostlar da cürbəcür işə qoşulub,***
***Köçdülər, köçəri quşa qoşulub.***
***Mən isə doqqazda daşa qoşulub***
***İlişib qalmışam kənddə-kəsəkdə...***

*

***Bürüyür qəlbimi həm də bir həsəd −***
***Bəlkə də bu dərdi çoxusu çəkir;***
***Şairin şəklini şəhərdə − qəzet,***
***Kənddəsə − arxlardan axan su çəkir.***

Şeir mahiyyət etibarilə belə bir sual qoyur: Şöhrət üçün köklərdən qopmaq olarmı? Lirik qəhrəman nə şəhəri tam qəbul edə bilir, nə də kəndi tərk edə bilir.

***Şeir yazdım burda aydın səhərdən,***
***Nəğmə qoşdum burda adi yarpağa.***
***Köçsəm də, heç baş açmaram şəhərdən,***
***Amma kənddə lap yaxınam torpağa.***

Şairin “kövşən ətirli” poeziyasında əsas problematik xətt “harada yaşamaq” sualından çox, “harada və necə özün olaraq qalmaq” məsələsi üzərində qurulur. Kənd və şəhər burada dəyərlər iyerarxiyasında biri digərindən üstün tutulan məkanlar deyil; onlar insan taleyinin, həyat təcrübəsinin və mənəvi inkişafın müxtəlif mərhələlərini ifadə edən simvolik müstəvilərdir.

Qoca Xalidin poeziyası müasir Azərbaycan ədəbiyyatında kənd yaddaşının estetik müdafiəsi, təbiətə söykənən mənəvi fəlsəfə və şəxsi dürüstlüyün poetik ifadəsi kimi dəyərləndirilə bilər. Onun şeirlərində torpaq, kövşən, yağış, külək və xatirə – obraz olmaqla yanaşı, həm də mənəvi yaddaş, milli kimlikdir...

Şairlə görüşümüzdə, beləcə, xeyli duyğulandım və sonda ona tezliklə sağalıb Kiçik Dəhnəyə qayıtmasını, həmişəki kimi gözəl şeirlər yazıb oxucularını sevindirməsini arzuladım.

***Tural ADIŞİRİN,***
***AMEA-nın Şəki Regional Mərkəzinin elmi işçisi***

# Milli kinomuz dirçəliş yollarında

*Bu yolun uğurla keçilməsində Azərbaycan Kinematoqrafçılar İttifaqının rolu danılmazdır*



**Uzun illərin durğunluğundan çıxmaq, dirçəliş dövrünün ənənələrini yaşatmaq və gələcəyə hesablanmış çağırışlara layiqincə cavab vermək Azərbaycan kino xadimlərinin başlıca vəzifələrindəndir.**

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) son illər milli filmlərin təbliğatı, ölkədə və xaricdə kino festivallarının keçirilməsi, kino tənqidinin və kino nəşrlərinin inkişafı, gənc rejissor və ssenaristlərin hazırlığı və digər sahələrdə maddi və mənəvi dəstəyini əsirgəməmişdir. Bəri başdan deyək ki, İttifaq 2026-cı ildə də bu istiqamətdə fəaliyyətini genişləndirmək niyyətindədir.

**Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, Xalq artisti, professor Şəfiqə Məmmədova XQ-yə açıqlamasının bildirdi:**



– Azərbaycan dili, davranış və bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət və mədəni irs sahələrini əhatə edən vahid, sistemli və strateji planlaşdırma sənədi olan “Azərbaycan Mədəniyyəti-2040” Konsepsiyasının uğurla reallaşdırılmasında kino xadimlərinin də üzərinə böyük məsuliyyət düşür.

AKİ bu istiqamətdə fəaliyyətini daha da gücləndirməkdə və milli kinonun inkişafı naminə mühüm tədbirlər həyata keçirməkdə qərarlıdır. Strateji hədəflərimizdən biri budur ki, günün tələblərinə cavab verən filmlərin istehsalı artsın. Bununla yanaşı, tamaşaçıların çoxalmasına gətirib çıxaracaq. Kinoteatrların, kino zallarının artımı da mühüm şərtlərdəndir.

Ümummilli lider Heydər Əliyevin mədəniyyət və incəsənətin inkişafına, kino sahəsində çalışanlara göstərdiyi diqqət və qayğı ənənəsi hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının “Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında” 2007-ci il 23 fevral tarixli sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə güclü təkan verib. Azərbaycan kinosunun inkişafına dair Dövlət Proqramı icra olunub.

**Azərbaycan filmlərinin xarici ölkələrdə tanıdılması AKİ-nin əsas prioritetlərindəndir. İttifaqın icraçı katibi, tanınmış rejissor, ssenarist, prodüser Əli İsa Cabbarov bununla bağlı mühüm işlərin görüldüyünü söylədi:**



– Bu məqsədlə kinematoqrafçılar üçün pulsuz ingilis dili kursları açmışıq. Ermənistanda kinematoqrafçılar Avropa fondlarına üz tuturlar. Qarabağ haqqında yalan və hədyanları Fransa, Avropa strukturları ilə birgə çəkdikləri filmlərlə yayırlar. Biz də hesab edirik ki, birgə istehsalın olması, haqq işimizin tanıdılması üçün kinematoqrafçılarımızın ingiliscə bilməsi zəruridir. Sevindiricidir ki, açdığımız ingilis dili kurslarına axını güclüdür.

Əvvəlki nəslin davamçıları çox azdır. Buna görə də hər il ssenari müsabiqələri keçirir, pul mükafatları ayırırıq. “Arxa cəbhənin insanları” ssenari müsabiqəmiz uğurlu olub. AKİ ssenari tədrisi mövzusunda rus yazıçısı və dramaturqu Aleksandr Çervinskinin “Yaxşı ssenarini yaxşı qiymətə necə satmaq olar?” kitabını Azərbaycan dilində yerli kinematoqrafçılara təqdim edib. Gənc ssenaristlərə və tələbələrə dəstək məqsədilə gələcəkdə də dərsliklərin çapı planlaşdırılır. AKİ-nin təşkil etdiyi “Sən, ey uşaqlıq” adlı tammetrajlı bədii film ssenari müsabiqəsinə maraq artmaqdadır.

Müasir dövrdə gənclərin və uşaqların çoxu əsasən türkcə və ingiliscə seriallara, animasiya filmlərinə maraq göstərirlər. Çünki yerli bədii və cizgi filmləri yox dərəcəsindədir. Bu müsabiqə də yeniyetmə və uşaqlara davranış nümunələri aşılayan filmlərin istehsalını zəruri edir. Müsabiqə çərçivəsində silsilə təlimlərin də nəticə verəcəyinə inanırıq.

AKİ-nin kino zalında keçirilən müxtəlif mövzulu tədbirlər böyük maraqla qarşılanır. Bu yaxınlarda AKİ-də İzzət Kino mükafatının ilk təqdimetmə mərasimi keçirilib.

Azərbaycanın ilk kinoaktrisası, “Sevil” filmində Sevil, “Almaz”da Almaz obrazlarının mahir ifaçısı kimi tanınan İzzət Orucovanın şərəfinə mükafat Azad Mirzəcanzadə İnkişaf Proqramının 2-ci dalğasına təltif kimi daxil edilib. AKİ-nin beynəlxalq əlaqələr və layihələr üzrə meneceri, kinorejissor Afaq Yusiflinin təsis etdiyi mükafatın ilk qaliblərini rejissor, AKİ-nin katibi Oleq Səfərəliyev, kinotənqidçi Sevda Sultanova, rejissor İlqar Nəcəf və rejissor-prodüser Türkan Hüseynovadan ibarət münsiflər heyəti müəyyən edib.

AKİ müxtəlif mövzularda təşkil etdiyi tədbirlərlə yanaşı, tanınmış və hazırda işləməyən kino xadimlərinin sosial problemlərinin həllində, onların zəruri ehtiyaclarının aradan qaldırılmasında da köməyini əsirgəmir. İl ərzində 20-dən artıq kino mütəxəssisinə 50 min manat məbləğində maddi yardım ayrılması buna sübutdur.

Müsahiblərimizin açıqlamalarına əlavə olaraq qeyd edək ki, ölkəmizin sosial-iqtisadi, mədəni, hərbi quruculuq, milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı sahəsində uğurlarını kinolentə köçürmək, salnaməlşdirmək üçün daha ciddi addımların atılması günün tələbidir. C.Cabbarlı adına Azərbaycanfilm kinostudiyasına yeni nəfəs verilməsi, özəl kinostudiyaların fəaliyyətinin daha da canlandırılması, dünya kinosuna inteqrasiyanın gücləndirilməsi, peşəkar kadr hazırlığına xüsusi diqqət verilməsi də AKİ-ni ciddi düşündürür. Bütün bunlar onu göstərir ki, Kinematoqrafçılar İttifaqı öz imkanları daxilində milli kinomuzun inkişafını davamlı olaraq dəstəkləyir.

***Akif CABBARLI,***
***Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru***

# Heyvanlar da bu torpağın sakinləridir

## *Onların taleyi isə insanların əlindədir*

**Bakı şəhərində və ətraf rayonlarda sahibsiz heyvanlarla bağlı problemlər getdikcə daha qabarıq şəkildə özünü göstərir. Küçələrdə nəzarətsiz qalan it və pişiklərin sayının artması həm ictimai təhlükəsizlik, həm də sanitar-epidemioloji baxımdan narahatlıq doğurur. Dünya təcrübəsində ən təsirli üsullardan biri sahibsiz heyvanlar üçün xüsusi sığınacaqların və saxlama məntəqələrinin yaradılmasıdır. Bu cür mərkəzlərdə heyvanlar tibbi müayinədən keçirilir, peyvənd olunur, sterilizasiya edilir və mənəvi sahiblərini tapırlar.**

Ölkəmizdə sahibsiz heyvanlarla bağlı problemin həlli istiqamətində vacib addımlar atılır. Qış aylarında heyvanların soyuqdan qorunması, yay mövsümündə qızmar günəş altında qalmasının qarşısının alınması üçün müxtəlif sosial və institusional tədbirlər həyata keçirilir. Bu istiqamətdə ən mühüm təşəbbüslərdən biri IDEA İctimai Birliyinin nəzdində fəaliyyət göstərən, təməli 2014-cü ildə qoyulan Sahibsiz Heyvanlar üçün Qayğı Mərkəzidir. Burada əsas məqsəd Bakı şəhəri və paytaxta yaxın ərazilərdə yaşayan sahibsiz it və pişiklərin müayinə, müalicə və müvəqqəti sığınacaqla təmin edilməsidir.

Mərkəzdə toplanan heyvanlar ilkin tibbi baxışdan keçirilir, onların sağlamlıq vəziyyəti qiymətləndirilir və ehtiyac olduqda müalicəyə cəlb olunurlar. Sığınacaq kompleksi Avropa Azərbaycan Cəmiyyətinin dəstəyi ilə beynəlxalq təcrübəyə əsaslanaraq inşa edilib. Layihənin hazırlanması və tikinti mərhələsində Böyük Britaniyanın Heyvanlara qarşı Qəddarlığın Aradan Qaldırılması üzrə Kral Cəmiyyətinin mütəxəssislərinin iştirak ediblər.

Qayğı mərkəzində sahibsiz heyvanlar üçün peyvəndləmə, sterilizasiya və zəruri hallarda cərrahi əməliyyatların aparılması nəzərdə tutulur. Bu xidmətlər həm heyvanların sağlamlığının qorunmasına, həm də sayının nəzarətsiz şəkildə artmasının qarşısının alınmasına xidmət edir.

Mərkəzin ərazisində inşa edilmiş onlarla sığınacaq eyni anda mindən artıq heyvanın yerləşdirilməsinə imkan verir. Hər bir sığınacağın yanında xüsusi gəzinti sahələrinin ayrılması heyvanların fiziki aktivliyini və psixoloji rahatlığını təmin etmək baxımından mühüm əhəmiyyət daşıyır.

Sahibsiz Heyvanlar üçün Qayğı Mərkəzi Azərbaycanda heyvanların qorunması sahəsində atılan mühüm addımlardan hesab olunur. Bu cür təşəbbüslər həm cəmiyyətin maarifləndirilməsinə, həm də sahibsiz heyvanlarla bağlı problemin uzunmüddətli və humanist şəkildə həllinə töhfə verir.

Bu istiqamətdə görülən işlər təkcə ixtisaslaşmış mərkəzlərlə məhdudlaşmır, eyni zamanda, paytaxtdakı orta məktəbləri də əhatə edir. Bir sıra məktəblərin həyətində və ətraf ərazilərində küçə heyvanlarının təhlükəsizliyi və rahatlığı üçün kiçik sığınacaq-evciklər qurulur. Bu evciklər xüsusilə qış aylarında heyvanları soyuqdan, yayda isə günəşin yandırıcı istisindən qoruyur.

Məktəblərdə şagird və müəllimlər küçə heyvanlarının qayğısına qalır, onlara yem və su verilir, sağlamlıq vəziyyətləri müşahidə olunur. Bu proses uşaqlarda mərhəmət, məsuliyyət və canlılara hörmət kimi dəyərlərin formalaşmasına mühüm töhfə verir.



Məktəblərdə həyata keçirilən bu cür təşəbbüslər cəmiyyətdə heyvanlara münasibətin dəyişməsinə, sahibsiz heyvanlarla bağlı problemin daha humanist yollarla həllinə dair ictimai düşüncənin formalaşmasına xidmət edir. Beləliklə, paytaxt məktəblərində yaradılan bu şərait həm küçə heyvanlarının təhlükəsizliyinə, həm də gələcək nəsillərin sosial və mənəvi inkişafına mühüm təsir göstərir.

**Belə təhsil ocaqlarından biri də Binəqədi rayonu Rüstəm Əliyev adına 3 nömrəli tam orta ümumtəhsil məktəbidir. Məktəbin direktoru, Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru Almaz Həsrət bu barədə deyir:**



– Bu yaxınlarda şəxsi təşəbbüsümlə bir arzumu həyata keçirdim. Sevimli şagirdlərimizə də bu layihəyə qoşulub reallaşdırmağı tövsiyə etdim. Duyarlılıq, mərhəmət və əsl insani davranışı sözlə deyil, əməlimizlə göstərməliyik. Bu ideya Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın rəhbərliyi ilə flora və fauna ilə bağlı həyata keçirilən böyük layihələrdən qaynaqlanır.

Məktəbimizin həyətində 3–4 pişik gəzirdi. Soyuq, yağışlı, qarlı, şaxtalı havalarda isti yer axtarırdılar. Bunu görüb məktəbin həyətində onlara sığınacaqlar düzəltdirmək qərarına gəldim və sosial mediadan tanıdığım usta Çingiz Hacıquliyevdən pişik və itlər üçün yuva düzəltməsini xahiş etdim. O, 10 ədəd pişik evi hazırladı, üstəlik, 2 evi də hədiyyə etdi. Məktəbimizin həyətində qoyduğumuz yeni evciklərin sakinlərinə hər gün yemək və su veririk. Düşünürəm ki, hər məktəbdə, yaşayış binalarının həyətində bu cür gözəl yuvaların qoyulması yaxşı olar.

Şagirdlərin heyvanlara qayğısı bu təşəbbüsdən sonra daha da artıb. Onlar nəinki məktəb həyətindəki pişiklərə yem və su verir, yaşadıqları evlərin həyətindəki heyvanlara da diqqət yetirir, təhlükəsiz mühitdə olmalarını nəzarətdə saxlayırlar.

Valideynlər də bu xeyirxah təşəbbüsümüzə qoşulublar. Onlar hər səhər övladlarını məktəbə gətirərkən pişiklərə yemək də gətirirlər. Bu davranışları ilə övladlarında heyvanlara qarşı mərhəmət hissi oyadırlar. Amma bu təşəbbüsü həyata keçirərkən, ilk növbədə, təhlükəsizlik məsələsi ön planda olmalıdır. Şagirdlərə heyvanlara düzgün yanaşma qaydaları izah edilməlidir. Gigiyena baxımından, şagirdlər heyvanlarla təmasdan sonra əllərini yumalı, dezinfeksiya vasitələrindən istifadə etməlidirlər.

Sahibsiz heyvanların qayğısına qalmaq cəmiyyətdə ortaq yanaşma tələb edir. Sığınacaqların yaradılması kimi humanist təşəbbüslər və fərdi nümunələr bir daha sübut edir ki, mərhəmət və məsuliyyət bir yerdə olduqda real nəticələr əldə etmək mümkündür.

***Ləman TƏHMƏZ***
***XQ***

*“Azərbaycan Mədəniyyəti – 2040”*

# Gələcəyin cəmiyyəti mədəni insanla yüksələcək

## *Milli mədəniyyətin sabahı barədə ictimai dialoq*

**Məlum olduğu kimi, bu il yanvarın 14-də Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Mədəniyyəti–2040” dövlət konsepsiyası dünyada və regionda yeni geosiyasi reallıqlar şəraitində milli mədəniyyətimizin strateji, sistemli və elmi əsaslandırılmış inkişaf mərhələsinə keçidini təmin etmək məqsədi daşıyır. Ölkə ictimaiyyətinin çoxsaylı nümayəndələri, ziyalılar, kulturoloqlar sözügedən konsepsiyanın qarşıdakı illər ərzində uğurla həyata keçirilməsinin müstəqil Azərbaycanın mədəni həyatının hərtərəfli inkişafına böyük töhfə verəcəyinə əmindirlər.**

Təqdirəlayiq haldır ki, ölkəmizin vətəndaş cəmiyyəti fəalları, qeyri-hökumət təşkilatları bu istiqamətdə konkret işlər görməyə başlayıblar. Bu günlərdə “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə Atatürk Mərkəzində “Azərbaycan Mədəniyyəti – 2040” dövlət konsepsiyasının müzakirəsinə həsr olunan konfrans keçirilib. Milli mədəniyyətin gələcəyi haqqında peşəkar və ictimai dialoq üçün intellektual platformaya çevrilən toplantıda geniş müzakirələrin sonunda sözügedən sənədə dəstək ifadə edən bəyannamə qəbul edilib. Əməkdaşımız konfrans iştirakçıları ilə görüşüb onlardan dövlət konsepsiyasının məramı, əhəmiyyəti və görüləcək işlər barədə fikir və mülahizələrini bildirmələrini xahiş edib. Tanınmış kulturoloqların rəylərini oxuculara təqdim edirik.





**Fuad MƏMMƏDOV,**
**“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, professor:**

– İlk növbədə, assosiasiyanın bütün üzvləri adından möhtərəm Prezidentin imzaladığı konsepsiyaya prinsipial dəstəyimizi ifadə etməyi özümə borc bilirəm. Qeyd etmək lazımdır ki, bu mühüm sənəd mədəniyyət sahəsi üçün yol xəritəsi olmaqla yanaşı, həm də Azərbaycanın gələcək cəmiyyət modelinə dair strateji baxışdır.

Konsepsiyanın əsas üstünlüyü ondan ibarətdir ki, mədəniyyəti həm ayrıca bir sahə, həm də dövlətin, cəmiyyətin inkişafının mərkəzi elementi kimi təqdim edir. Bu baxımdan, sənəd müasir dövrün çağırışlarına tamamilə cavab verir və dərin kulturoloji məntiq üzərində qurulub.

Biz 2040-cı ili daha çox texnologiyalar, süni intellekt, “ağıllı şəhər”lər və sürətli iqtisadi artım prizmasından təsəvvür edirik. Amma bir sual çox vaxt kölgədə qalır: bütün bu inkişafı idarə edəcək insan necə olacaq? “Simurq” assosiasiyası “Yüksək səviyyəli mədəni insan” modeli qurmağı təklif edir. Bu formul sadə, amma dərin məna daşıyır: ruhi mədəniyyət iki paralel istiqamətdə inkişaf etməlidir – mənəvi və intellektual mədəniyyət. Bu iki xətdən biri zəiflədikdə, cəmiyyət tarazlığını itirir.

Mənəvi mədəniyyət özündə sevgi, dostluq, mərdlik, nəciblik, ədalət, vicdan, iman, vətənpərvərlik, humanizm kimi keyfiyyətləri birləşdirir. Mənbəyi düzgün tərbiyədir. İntellektual mədəniyyət isə elmi biliklərlə zənginləşmiş ağıl deməkdir. Mənbəyi elm, təhsil, maarifləndirmədir.

Ruhi mədəniyyətin hər iki istiqaməti insanı düşünməyi, sual verməyi, müqayisə aparmağı öyrədir. Mənəvi mədəniyyət isə ona hansı dəyərlər üzərində dayanmalı olduğunu xatırladır. Bu ikisinin sintezi mədəniyyəti mücərrəd anlayışdan real həyat tərzinə çevirir.

Bəli, bu fikri bir daha və dönə-dönə vurğulamaq istəyirəm: güclü dövlət, sağlam cəmiyyət, ilk növbədə, düşünən və dəyər bilən insanlardan başlayır. 2040-a gedən yol texnologiyalarla yanaşı, yüksək səviyyəli mədəni insandan keçir.

**Svetlana BAYRAMOVA,**
**“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının vitse-prezidenti:**

– Azərbaycan mədəniyyəti möhkəm tarixi və mənəvi fundament üzərində qurulub. “Azərbaycan Mədəniyyəti–2040” Konsepsiyasının əsas çağırışı bu milli və mental dəyərləri itirmədən müasir alətlərlə yeni funksionallıq qazanmaqdır. Rəqəmsal platformalarda mədəni irsin təqdimatı, müasir sənət dilləri ilə klassik mövzuların izahı, kreativ sənayelərin inkişafı prosesin tərkib hissəsidir.

Burada əqli mədəniyyət yeniliyi qorxmadan qəbul etməyi, mənəvi mədəniyyət isə “hər yenilik dəyərdirmi?” sualını verməyi təmin edir. Bu tənasüb olmadıqda ya köhnəlmiş konservatizmə, ya da kimliksiz kosmopolitliyə sürüklənmək riski yaranır.

Gələcəyin cəmiyyəti elm və təhsildən kənarda ola bilməz. Mədəniyyət düşüncə mədəniyyəti ilə qidalanmalıdır. Kitab oxuyan, tədqiqat aparan, innovasiyaya açıq insan eyni zamanda mədəni insan olur.

Təhsil sistemi mədəniyyəti yalnız “fənn” kimi deyil, düşüncə tərzi kimi aşılamalıdır. Bu yanaşma mənəvi mədəniyyəti dərinləşdirir, zehni mədəniyyəti isə intellektual məsuliyyətlə zənginləşdirir.

Azərbaycanın mədəni xəritəsi rəngarəngdir. Fərqli bölgələr, dillər, ənənələr, üslublar bu mədəni mozaikanı formalaşdırır. “Azərbaycan Mədəniyyəti – 2040” bu müxtəlifliyi qorumağı, eyni zamanda, ortaq milli dəyərlər ətrafında birliyi gücləndirməyi hədəfləyir.

Yüksək səviyyəli, mədəni insan fərqli olana dözümlə yanaşan, dialoq quran, qarşılıqlı hörməti əsas prinsipə çevirən insandır. Bu, artıq təkcə mədəni məsələ deyil, həm də cəmiyyətdə sabitliyin təminatıdır.



**Minaxanım ƏSƏDOVA,**
**tarix elmləri doktoru, professor:**

– Düşünürəm və buna tamamilə əminəm ki, Azərbaycan mədəniyyəti hələ tam açılmamış böyük potensiala malikdir. Musiqidən ədəbiyyata, teatr və kinodan xalq yaradıcılığına qədər bütün sahələr paralel və sistemli şəkildə inkişaf etdirilməlidir. Mədəniyyət yalnız qorunan irs olmaqla yanaşı, iqtisadi və sosial dəyər yaradan canlı resursdur. Bu potensialdan istifadə etmək üçün mədəniyyətə baxış dəyişməlidir: istehlak edilən məhsul kimi yox, formalaşdırılan dəyər kimi. Bu mənada kulturoloji biliklərin təbliği çox vacib şərtlərdəndir.

“Azərbaycan Mədəniyyəti–2040” dövlət konsepsiyasına uyğun olaraq “Yüksək səviyyəli mədəni insan” anlayışı yalnız paytaxtda və böyük şəhərlərdə olmamalıdır. Bölgələrdə yaşayan insanlar, fiziki imkanları məhdud şəxslər, iqtisadi baxımdan həssas qruplar mədəni proseslərə cəlb olunmalı, regionlarda kulturoloji biliklərin təbliği genişləndirilməlidir.

Qloballaşma milli mədəniyyətlər üçün həm təhlükə, həm də fürsətdir. 2040-cı ilə doğru Azərbaycan mədəniyyəti qlobal məkana dünyəvi və milli kimliyini qoruyaraq getməlidir. Texnologiyalar ünsiyyəti sürətləndirsə də, canlı insanı əvəz edə bilmir. “Azərbaycan Mədəniyyəti–2040” konsepsiyasına əsasən cəmiyyətdə ənənəvi ünsiyyət formalarının – söhbət, müzakirə, birgə mədəni təcrübələrin qorunması mənəvi mədəniyyətin əsas vəzifələrindəndir.

Əqli mədəniyyət texnologiyanı idarə etməyi öyrədir, mənəvi mədəniyyət isə texnologiyanın bizi idarə etməsinə imkan vermir. 2040 vizyonunda Azərbaycan mədəniyyəti regional və qlobal mədəni platformalarda daha fəal iştirak etməli, dialoq qurmalı, paylaşmalı və öyrənməlidir.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*I Türkoloji Qurultay –100*

# Qərbi Azərbaycanda əlifba islahatı və mədəni hərəkat (1922–1929)

**Azərbaycan Prezidenti İlham Əliyevin "I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli sərəncamı türk xalqlarının həyatında necə böyük əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Türkoloji Qurultayın əks-sədasını böyük coşqu ilə əhatə edən coğrafiyalardan biri də Qərbi Azərbaycan idi. Ümumtürk mədəni sisteminə daxil olan bu coğrafiyada yeni türk əlifbasına keçid prosesinin öyrənilməsi də olduqca vacibdir. Bu, eyni zamanda, Qərbi Azərbaycan ziyalılarının Türk dünyasının ortaq milli dəyərlərinin inkişaf etdirilməsində və mənəvi bütövlüyə qovuşmasında yerini müəyyən edir.**



Qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan xalqımız dünya sivilizasiyasına önəmli töhfələr vermişdir. Qədim Azərbaycan dilinin formalaşması onun tarixi köklərinin dünya sivilizasiyasının ilkin çağlarına gedib çıxdığını əyani şəkildə sübut edir. Dünya mədəniyyətinin beşiyi olan şumerlərin dil elementlərinin dilimizdə olması, Qobustan, Gəmiqaya təsvirlərində və başqa tarixi, milli və mənəvi dəyərlərimizdə əks olunması, keşməkeşli dolaylardan keçib bu günümüzədək gəlib çatması buna aydın nümunədir. Bütün bunlara baxmayaraq, dünya tarixində türklər qədər əlifbası dəyişdirilən, müxtəlif tarixi dövrlərdə fərqli yazı sistemindən istifadə edən xalq, demək olar ki, yoxdur.

Əlifba dəyişikliyi əksər hallarda xalqın iradəsinə zidd olaraq aparılmışdır. Ərəb və fars dili qanunlarının təsiri altına düşmüş ana dilimizi ərəb yazı üslubundan xilas etmək, doğma dilimizin hüququnu özünə qaytarmaq dövrün mütərəqqi ziyalılarını ciddi düşünməyə vadar etmişdir. Yeni əlifba ideyasını böyük ictimai hərəkata çevirən böyük mütəfəkkir, XIX əsr Azərbaycan elmi, mədəniyyəti və ədəbiyyatı tarixinə dahi şəxsiyyət kimi daxil olmuş, dilimizin varlığı və saflığı uğrunda mübarizənin önündə gedən M.F.Axundovun xələfləri Məhəmmədağa Şahtaxtinski, Cəlil Məmmədquluzadə, Məmmədtağı Sidqi, Firudin bəy Köçərli, Mahmud Mahmudbəyov, Nəriman Nərimanov, Abdulla Şaiq, Xalid Səid Xocayev, Fərhad Ağazadə, Bəkir Çobanzadə, Vəli Xuluflu və başqaları bu işıqlı ideyanın həyata keçirilməsi uğrunda böyük fədakarlıq göstərmişlər.

1921-ci ilin yanvarında Azərbaycan Xalq Maarif Komissarlığı yanında Əlifba islahatı üzrə Komissiya təşkil edildi. 1922-ci ilin aprelinə qədər fəaliyyət göstərən komissiya çox mühüm işlər gördü, latın əlifbasına keçid ideyası getdikcə daha da reallaşırdı.

1922-ci ilin may ayında Bakıda yaradılmış Yeni Türk Əlifba Komitəsinin İrəvanda, Tiflisdə və Azərbaycanın başqa şəhərlərində şöbələri yaradıldı. Bu filial və şöbələr dövri olaraq Bakı Yeni Türk Əlifba Komitəsinə məlumat və hesabat verirdilər. Azərbaycanda başlanan yeni əlifba hərəkatı getdikcə daha geniş vüsət alırdı. Buna səbəb yeni latın əlifbasının bütün Cənubi Qafqaz respublikalarında məcburi qəbul edilməsi haqqında Zaqafqaziya MİK Divani-Rəyasət Heyətinin 20 oktyabr 1923-cü il tarixli qərarı oldu. Latın əlifbasına keçid prosesini sürətləndirmək üçün Tiflis və İrəvan YTƏK-in şöbələri daha təsirli tədbirlərə əl atırdılar. 1922-ci ilin dekabr ayında bir qrup İrəvan ziyalısının təşəbbüsü ilə yeni əlifbaya keçmək üçün "Mərkəzi büro" yaradılsa da, qurumun fəaliyyəti bir o qədər nəzərə çarpmamışdı. Yalnız İrəvan Rabfakı nəzdindəki türk şöbəsinin müəllim və tələbələri tərəfindən yeni əlifba dərnəyi fəaliyyət göstərmişdi.

1924-cü il aprelin 28-də Gümrüdə azərbaycanlı müəllimlərin qurultayında İrəvan Yeni Türk Əlifba Komitəsi (YTƏK) təşkil olunmuşdur. 9 nəfər azərbaycanlı – Bala Əfəndiyev, Mehdi Kazımov, Miryusif Mirbabayev, Əşrəf Yusifzadə, Əziz İlyasov, Mir Hüseyn Mirbağırov, Ruqiyə Mirbağırova, Zərri Axundova, Səcidə Qayıbova və bir nəfər erməni – Karapet Manukyan komitəyə üzv, Səməd Qulubəyov, Mirsadıq Mirheydərzadə, Cəfər Əliyev isə komitə üzvlüyünə namizəd seçilmişlər.

Ümumiyyətlə, İrəvan YTƏK-nin bütün maliyyə xərclərini Bakı YTƏK ödəyirdi. İrəvan şəhərində türk kənd işçiləri üçün kurslar açılmışdır ki, onlardan dərs deyənlər heç olmazsa, yazıb-oxumağı bilsinlər. Bununla belə, məktəb və maarif işlərini təşkil etmək çətin idi. Bu böyük işlərin başlanğıcında isə, ümumiyyətlə, 15 yaşından 50 yaşına qədər insanların savadsızlığını ləğv etmək lazım gəlirdi. Amma İrəvan YTƏK-in maddi vəziyyəti yeni kursların açılmasına imkan vermirdi. Azərbaycan YTƏMK-nin və şəxsən Səməd Ağamalıoğlunun maddi dəstəyi və qayğısı sayəsində İrəvan ziyalılarının "savadsızlığı ləğvetmə" hərəkatı daha geniş vüsət almışdı. 1924-cü ildə İrəvanda daha bir qadınlar və bir kişilər kursu təşkil olunmuşdu. Artıq İrəvanda savadsızlığı ləğv etmək üçün dörd kurs fəaliyyət göstərirdi və kurslarda dərslər artıq yeni əlifba ilə keçirilirdi.

1924-cü il may ayının 9-da Tiflis Yeni Türk Əlifba Komitəsi sədrinin müavini Əziz Şərif İrəvana gələrək yenidən təşkil olunmuş İrəvan YTƏK-in iclasında yeni əlifbaya keçidin mədəni, tarixi əhəmiyyəti və zəruriliyi barədə ətraflı məruzə etmiş və qurumun gələcək fəaliyyəti ilə bağlı iş planı təsdiq edilmişdir. Ə.Şərif İrəvanda və eləcə də yerlərdə yeni əlifbaya keçid kampaniyasını daha da genişləndirmək üçün Bakı YTƏK-in sədri S.Ağamalıoğlu tərəfindən 1924-cü ilin may ayının 23-nə qədər ilkin kömək üçün İrəvan YTƏK-ə 1000 manat pul göndərəcəyini də bildirmişdir.

1924-cü il sentyabr ayının 26-da İrəvan YTƏK-in təşəbbüsü ilə azərbaycanlı ziyalıların və yeni əlifba tərəfdarlarının iştirakı ilə birinci iclası çağırılmışdı. Bala Əfəndiyevin sədrliyi və Əziz İlyasovun katibliyi ilə keçirilən iclasın gündəliyində 3 məsələ öz əksini tapmışdı:

- Komitənin hesabatı barəsində Bala Əfəndiyevin məruzəsi;
- Yeni Türk Əlifbasının vəziyyəti barəsində Mehdi Kazımovun məruzəsi;
- Komitənin yeni tərkibinin seçilməsi.

İrəvan YTƏK-in büro üzvü Mirhüseyn Mirbağırov təbrik məktubunu oxuduqdan sonra gündəlikdə duran məsələlərə baxılmışdır. İclasda komitə sədri, katib və komitədə çalışanların aylıq məvacibləri aşağıdakı şəkildə müəyyənləşdirilmişdir. Sədr – 130 manat, katib – 100 manat, mühasib – 30 manat, çapçı – 20 manat, kuryer – 15 manat.



*İrəvan Yeni Türk Əlifba Komitəsinin sədri Bala Əfəndiyev (ayaqüstə sağdan ikinci) Fərhad Ağazadə, Səməd Ağamalıoğlu və başqaları ilə. 12 avqust 1925-ci il*

1925-ci ildən İrəvan Yeni Türk Əlifba Komitəsi Yeni Türk Əlifbası Ermənistan Komitəsi adlandırılmışdır. İrəvan YTƏK bu müddət ərzində təbliğat işləri aparmış, yeni əlifbanın kütləviləşdirilməsi və Azərbaycan dilində nəşr olunan "Zəngi" qəzeti səhifələrində yeni əlifbanın əhəmiyyəti və s. məsələlər haqqında yazılar dərc etdirmişdi. 1926-cı ildə qəza büroları ləğv edilərək "Yeni Əlifba dostları" cəmiyyəti ilə əvəzlənmişdir.

1924-1925-ci tədris ilində İrəvan Yeni Türk Əlifba Komitəsi azərbaycanlı məktəblərində dərslərin yeni əlifba ilə keçirilməsi haqqında dekret imzalamış, Qərbi Azərbaycanda 115 I dərəcəli azərbaycanlı məktəbində dərslər tamamilə yeni əlifba ilə keçirilmişdir. 1927-ci ildə Qərbi Azərbaycanda savadsızlığı ləğvetmə kurslarının sayı 269, yeni əlifba ilə savadlananların sayı isə 17 min 867 nəfər olmuşdur. Onlardan 436 nəfəri qadın idi. 1926-1927-ci tədris ilində İrəvan YTƏK tərəfindən aylıq kurslar təşkil olunmuşdur ki, bu kurslarda da 50 nəfər müəllim yeni əlifba ilə dərs demək üçün hazırlanmışdı. Bu kursların təşkil edilməsində EK(b) P MK-nin nəzdində yaradılmış "Azsaylı xalqlar şöbəsi" və Yeni Türk Əlifba Komitəsinin İrəvan şöbəsinin çox böyük rolu olmuşdur.

1927-ci ildə Qərbi Azərbaycanda 70-ə qədər savadsızlığı ləğvetmə kursu açılmışdı. Həmin kurslarda dərslər yeni türk əlifbası ilə keçirilirdi. İrəvan YTƏK yeni əlifbanı kütləviləşdirmək məqsədilə Ali siyasi maarif idarəsi savad kurslarının açılması üçün 13 min 380 manat vəsait ayırmışdır. Bu vəsait hesabına Qərbi Azərbaycanda– İrəvan qəzasında 11, Zəngəzur qəzası üzrə 6, Lori-Pəmbəkdə 6, Yeni Bəyazid qəzasında 5, Dilicanda 2, Dərələyəzdə 4, Üçmüədzində 2, Meğridə 2, Ağbabada 2 olmaqla 40 savadsızlığı ləğvetmə və Böyük Vedi (İrəvan qəzası) 1, Qəmərli (İrəvan qəzası 1, Qaraqışlaq (Üçmüədzin qəzası) 1, Zod (Yeni Bəyazid qəzası) 1, Qafanda 1, Ağbabada (Gümrü qəzası) 1, Allahverdidə 1, Çaykənddə 1, İrəvan şəhərində 2 (biri isə qadınlar üçün idi) olmaqla yaşlılar üçün 10 gecə kursu açılmışdır.

Dərslər yarımsavadlılar üçün açılan kurslarda 3, gecə kurslarında isə 4 ay davam edirdi. Oxu materialları üçün Bakıdan yeni türk əlifbası ilə 667 manatlıq dərs kitabları və proqramlar alınaraq qəzalarda açılmış kurslara göndərilmişdi. Dərsləri aparan müəllimlərə 25 manat, yaşlılar kurslarında isə ayda 50 manat əməkhaqqı verilirdi. Bakı YTƏK tərəfindən 1927-ci ildə İrəvan qəzası üçün 2920 nüsxə dərs kitabı, savadsızlar üçün isə 1000 nüsxə "Savada doğru", savadlılar üçün 120 nüsxə "İşçinin ikinci kitabı", 1500 nüsxə isə "Hesab" kitabı, 604 ədəd lövhə və plakat, 100 ədəd diaqram göndərilmişdir.

Savadsızlığın aradan qaldırılması, yeni əlifbanın öyrədilməsi üçün kursların açılmasına İrəvan YTƏK Bakı YTƏK ilə birlikdə 13 min 380 manat vəsait ayıra bilmişdi. Həmin vəsait hesabına Ermənistanda yalnız 46 savad və 6 gecə kursu açılmışdı. Beləliklə, 1926-cı ildə İrəvanda açılan kurslarda 2345 nəfər latın əlifbasını öyrənmişdi.

İrəvan Yeni Türk Əlifba Komitəsinin 1928-ci ildə Qarakilsədəki I dərəcəli azərbaycanlı məktəbləri üçün təşkil etdiyi kurslarda 60 nəfər müəllim hazırlanmışdı. İrəvan YTƏK azərbaycanlı müəllimlərini kitab, dərslik və s. ləvazimatlarla təmin etmək üçün Azərbaycandan 2500 manatlıq kitab və s. ləvazimatlar almış, azərbaycanlı məktəblərinə paylamışdır.

İrəvanda yaşayan azərbaycanlı ziyalıları aydın dərk edirdilər ki, köhnə ərəb əlifbası ilə savad məsələsini həll etmək mümkün olmayacaq. Ona görə də Bakıda başlanan və bütün türk respublikalarını, Türkiyəni hərəkətə gətirən yeni əlifba ideyasını İrəvanda getdikcə qətiyyətlə həyata keçirirdilər. Lenin Şərq-müsəlman xalqlarının yeni əlifbaya keçməsini "Şərqdə böyük inqilab" adlandırmışdı.

Yeni əlifbaya keçmək üçün Bakıda qurultay çağırılmasına Zaqafqaziya, o cümlədən bütün sovet respublikaları hazırlaşırdı. Bu işə İrəvanda EK(b) P MK nəzdində azsaylı xalqlar şöbəsinin müdiri, YTƏ İrəvan şöbəsinin rəhbəri Bala Əfəndiyev rəhbərlik edirdi. 1926-cı il fevral ayının 22-də Ermənistan Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin çağırdığı fövqəladə konfransda 163 nümayəndə iştirak etmişdir. Konfransı İrəvan Yeni Əlifba Komitəsinin sədri Bala Əfəndiyev açmış, Səmədağa Ağamalı oğlu, Lunaçarski, Kalinin və başqaları konfransın fəxri sədri seçilmişlər. Konfrans belə bir şüarla işini yekunlaşdırmışdı: "Yaşasın türk-tatar zəhmətkeşlərini birləşdirəcək asan və ümumi ədəbiyyat təməlini quracaq yeni türk-tatar əlifbası əsas olacaq Türkoloji Qurultay".

Sonda Bakıda 26 fevral 1926-cı ildə açılacaq I Türkoloji Qurultaya nümayəndələr seçilmişdir. Onların arasında Bala Əfəndiyev, Mustafa Hüseynov və Dilicandan olan Əziz İlyasov da var idi. "Zəngi" qəzeti həmin nömrəsində Hraciya Acaryanın da Bakıya qurultayda iştirak etməyə göndərildiyini bildirir. Hraciya Acaryan və Bala Əfəndiyev qurultay nümayəndəsi kimi siyahıya alınmışdılar. Amma Mustafa Hüseynov və Əziz İlyasov isə qurultayın rəsmi nümayəndələri sırasına daxil edilməsələlər də, I Türkoloji Qurultayda iştirak etmişlər.

Sonradan yeni əlifba tərəfdarlarına qarşı həyata keçirilən amansız repressiyalara məruz qalanlar içərisində Qərbi Azərbaycandan olan ziyalılar, ictimai, maarif xadimləri də olmuşdur. Bala Əfəndiyev, Mustafa Hüseynov, Əhməd Əhmədov güllələnmişdilər. Əziz İlyasov və Mirsadıq Mirheydərzadə də repressiyaya məruz qalanlar arasında idi.

1926-cı il fevral ayının 26-da Bakıda öz işinə başlamış I Türkoloji Qurultay latın əlifbasına keçidin zəruriliyini təsdiqləmiş, həmçinin türk dilinin öyrənilməsi, ana dilinin tədrisi metodikası, orfoqrafiya, ölkəşünaslıq haqqında qətnamələr qəbul etmişdir.

"Zəngi" qəzeti 20 mart 1926-cı il tarixli sayında qurultayın yekunları, 7 səsə qarşı 101 səslə yeni əlifbanın qəbul edilməsi haqqında məlumat verir. Bala Əfəndiyev "Zəngi" qəzetini bütünlükdə yeni latın əlifbası ilə çap etmək üçün Bakıda olarkən S.Ağamalıoğlu və başqalarının köməyilə 15 pud şrift və çap dəzgahı alaraq İrəvana gətirmişdir. 2 dekabr 1926-cı ildə İrəvanda Yeni Türk Əlifba Komitəsinin toplantısı keçirilmiş, toplantıda 28 nəfər nümayəndə iştirak etmişdir.

Toplantını YTƏK-in İrəvan üzrə bölməsinin sədri Bala Əfəndiyev açaraq yeni türk əlifbasının türk-islam aləminin inkişafı üçün əhəmiyyətindən danışmışdır. Komitənin katibi Mustafa Hüseynov, komitə üzvü Asiya Məsudi və Marakulov məruzə etmiş, yerli büroların çıxışları dinlənilmişdir. Onu da qeyd edək ki, YTƏK-in İrəvan bölməsi fəaliyyətini zamanın vacib tələbləri səviyyəsində qurmuşdur.

Müəyyən obyektiv səbəblərə görə, İrəvanda da qurultayın qərarı dərhal həyata keçirilmədi. Buna görə də bir sıra qəzet və jurnallar, o cümlədən "Zəngi" qəzeti də həm latın, həm də ərəb əlifbası ilə çap edilirdi. Qurultaydan sonra Azərbaycan YTƏMK-si SSRİ MİK sərəncamına verilmiş və Ümumittifaq Yeni Türk Əlifba MK adlanmış, iki plenumu keçirilmişdi.



*İrəvanda Yeni Türk Əlifbasının yayılması uğrunda çalışan ziyalılar və tələbələr İrəvan, 1926*

Bakıda keçirilən Türkoloji Qurultay Türkiyədə bu ideyanın bir hərəkata çevrilməsinə səbəb oldu. Türkiyədə Atatürkün xalqın savadlanması qayğısına qalması da bu əlifbanın qəbul edilməsinə yardımçı oldu. "Zəngi" qəzetinin Türkiyədə bu işə Atatürkün bilavasitə rəhbərlik etməsi haqqında dərc etdiyi xəbərdə deyilirdi: "Bu günlərdə Mustafa Kamalın sədrliyi ilə jurnalist nümayəndələrin, ictimai işçilərin, mütəxəssislərin iştirakı ilə yeni əlifbanın qəbulu üçün seçilmiş komissiyanın məruzəsi eşidildi və qəbul olundu".

"Zəngi" qəzeti qonşu Türkiyədə latın əlifbasına keçidin dövlət səviyyəsində müdafiə edildiyini yazmaqla İrəvanda bu işin sürətlənməsinə kömək etmişdir. Məlumdur ki, bəzi azərbaycanlı mühafizəkarlar kimi, Ermənistan rəhbərliyi də azərbaycanlıların yeni latın əlifbasına keçməsini istəmirdilər. Ermənilərin yeni əlifbaya qarşı gizli və xəbis mübarizəsinin arxasında isə başqa niyyətlər dururdu. Bunun da başlıca səbəblərindən biri yeni latın əlifbasının azərbaycanlıların tezliklə savadlanmasına yol açması və xalqımızın öz böyük intellektual potensialını gerçəkləşdirməsinə imkan verməsi idi.

Dünya türk xalqlarının eyni əlifbaya keçməsi onların dil nöqteyi-nəzərindən yaxınlaşmaları, bu xalqlar arasında mədəni əlaqələrin genişlənməsi, mənəvi ünsiyyətin formalaşması üçün şərait yaradırdı. Ermənilər aydın dərk edirdilər ki, türk xalqlarının birliyi onların gələcəkdə çirkin ideyalarının həyata keçməsində ən böyük maneəyə çevrilə bilər. Sonradan ifşa olunmuş Ağasi Xancyan, Anastas Amatuni və Aşot Hovanesyan kimi qatı erməni şovinistləri, əlbəttə ki, yeni əlifbaya keçidin əleyhinə idilər.

Yeni əlifba ideyasının müəlliflərindən biri olan Səməd Ağamalıoğlu Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sədri kimi müttəfiq respublikaların paytaxtlarına gedir və yeni əlifbaya keçidin təşkili ilə yaxından maraqlanırdı. Bu məqsədlə o, 1928-ci il sentyabr ayının 8-də İrəvana gəlmiş və burada qadınlar klubunda görülən işlərlə tanış olmuşdu.

Bundan iki ay əvvəl "Zəngi" qəzeti S.Ağamalıoğlunun "Yeni əlifba ilə silahlanacağıq" adlı böyük bir məqaləsini dərc etmişdi. Məqalədə deyilirdi: "İyul ayının 22-də yeni əlifbanın 6 illiyi tamam olur. Hazırda Azərbaycanda yeni əlifba ilə savadlı olanların sayı 200 min nəfərə çatır. Bu, yaşlı əhalinin 13 faizini təşkil edir. Halbuki, 100 illərlə ərəb əlifbası ilə savadlı olanların sayı 1 faizdən yuxarı qalxmamışdır". Bütün bunlara baxmayaraq, İrəvan şəhərinin daşnak rəhbərliyi hər vasitə ilə bütün bölgələrdə Azərbaycan türklərinin savadlanmasına mane olurdu.

"Zəngi" qəzeti 28 iyul 1928-ci ildə Azərbaycan MİK və XKS-nin qərarını çap etmişdi: "Bütün Azərbaycan ictimai təşkilatları 1929-cu il yanvarın 1-dən bütün işləri yeni türk əlifbasına keçməlidir. Yeni türk əlifbasında savadsız qalanları işdən çıxarmalıdır".

6 bənddən ibarət bu qərar qəbul edildikdən sonra da Azərbaycanda və başqa respublikalarda latın əlifbasına keçmək mümkün olmadı. "Zəngi" qəzeti bu yolda öz mübarizəsinə davam edir, Azərbaycan MİK və XKS-nin qərarını çap etməklə İrəvanın aidiyyəti təşkilatlarına müəyyən mesajlar göndərirdi. Qəzet yazırdı: "Azərbaycan MİK və XKS 22.08.1928-ci ildə 1929-cu ilin yanvar ayının 1-dən etibarən hər yanda yeni əlifbaya keçmək haqqında qərar qəbul etmişdi. Təəssüflər olsun ki, Ermənistan Maarif Komissarlığı və YTƏK heç bir hazırlıq görməmişdir".

"Zəngi" qəzeti belə kəskin çıxışdan sonra 1928-ci il dekabrın 10-dan başlayaraq I Türkoloji Qurultayda qəbul edilmiş yeni türk əlifbasını ərəb əlifbası ilə müqayisəli şəkildə cədvəl kimi 78, 79, 80, 81-ci saylarında verilmişdi. Bu, əlbəttə, həm savad kurslarında oxuyanların, həm də orada dərs deyənlərin işini asanlaşdırırdı. Amma bir məsələni də qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda da MİK və XKS-in də yeni əlifbanı qəbul etmək və 1929-cu il yanvarın 1-dən tamamilə yeni əlifbaya keçmək qərarı həyata keçirilməmişdi. Buna Moskvadan mane olurdular.

Ancaq yeni əlifba məsələsi ümumittifaq xarakter almışdı. Bundan əlavə, YTƏ MK Türkoloji Qurultaydan sonra SSRİ MİK-in sərəncamına keçmişdi. Buna görə də SSRİ MİK və SSRİ XKS 1929-cu il avqustun 7-də yeni əlifbanın qəbulu haqqında xüsusi qərar qəbul etmişdi. Qərarda deyilirdi: "SSRİ-nin bütün dövlət idarələrinə və ümumittifaq əhəmiyyətli müəssisələrinə tapşırılsın ki, türk-tatar dillərində olan bütün yazılı və çap işlərində, xüsusilə SSRİ hökumətinin qanunlarının nəşrində yeni latın əlifbasından istifadə etsinlər".

Bu qərarı İrəvanda da sevinclə qarşıladılar. İrəvan Yeni Türk Əlifba Mərkəzi Komitəsi bu münasibətlə üstündə S.Ağamalıoğlunun şəkli olan bir kitabça nəşr etmişdi. Burada Ermənistan Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin sabiq sədri Bala Əfəndiyevin "Latın qrafikalı əlifbanın əhəmiyyəti və qəbulu", komitənin müvəqqəti sədri Əhməd Əhmədovun, komitənin üzvləri Əkbər Rizayevin, Əli Qədimovun, Mehdi Kazımovun, Miryusif Mirbabayevin və başqalarının məqalələri çap olunmuşdu.

Qeyd etmək lazımdır ki, əlifba məsələsi təkcə Qərbi azərbaycanlıların məsələsi deyildi. Bu, keçmiş SSRİ-də yaşayan bütün türk xalqlarının problemi idi.

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

# Paytaxtın hava qapısında “Yüksələn işıq”

## *Dünyaşöhrətli fotojurnalist Reza Deqatinin növbəti sərgisi*





**Heydər Əliyev Beynəlxalq Aeroportunda dünyaşöhrətli fotojurnalist Reza Deqatinin “Yüksələn işıq” adlı sərgisi açılıb. Leyla Əliyeva sərgini ziyarət edib. Reza Deqati Leyla Əliyevaya sərgi ilə bağlı ətraflı məlumat verib.**

Qeyd edək ki, “Yüksələn işıq” sərgisi Reza Deqatinin (www.instagram.com/rezaphotography/) obyektivindən Azərbaycanın vətəndaşlarını, təbiətini, adət-ənənələrini və gündəlik həyatının incə ahəngini əks etdirir.

“Azərbaycan Hava Yolları” QSC üçün bu sərgi səyahətin əsl mahiyyətini kəşf etməyi, ünsiyyəti və mədəniyyətlər arasında körpülər qurmaq gücünü ifadə edir. Reza Deqatinin fotoları müxtəlif taleləri və hekayələri bir-birinə yaxınlaşdırdığı kimi, aviasiya da məsafələri aradan qaldıraraq insanları və ölkələri birləşdirir. Bu sərgi səyahətin təkcə uçuşla deyil, həmçinin ilhamla başladığını xatırladır.

“Yüksələn işıq” sərgisi AZAL, “Boeing” və Heydər Əliyev Beynəlxalq Aeroportunun birgə tərəfdaşlığı ilə reallaşdırılıb. Bu tərəfdaşlıq “Azərbaycan Hava Yolları” QSC ilə “Boeing” arasında uzunmüddətli və strateji əməkdaşlığın bir hissəsidir, eləcə də Azərbaycanın qlobal aviasiya məkanındakı mövqeyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Sərgi insanları, məkanları və mədəniyyətləri birləşdirən görünməz bağlardan bəhs edir. Məhz bu baxış bucağı ilə AZAL Azərbaycanı dünya ilə qovuşdurur, səyahətləri sadə marşrutlardan kənara çıxararaq yaddaqalan, mənalı hekayələrə çevirir.

***XQ***

# Müsabiqə və olimpiada qalibləri mükafatlandırılıb

**Respublika fənn müsabiqələri və Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadası qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**



Elm və Təhsil Nazirliyinin, Təhsil İnstitutunun, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilən mərasimdə agentliyin direktor müavini, paytaxt təhsil idarəsi müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, şöbə və bölmə rəhbərləri, məktəb direktorları, müsabiqə və olimpiadada qalib gələn şagirdlər iştirak ediblər.



Qalibləri təbrik edən Nərminə Hüseynova bildirib ki, istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, onların yaradıcılığa və elmə olan marağını artırmaq təhsilin əsas hədəflərindən biridir. N.Hüseynova bu cür müsabiqə və olimpiadaların şagirdlərin bilik və bacarıqlarının inkişafında, onların elmi potensialının üzə çıxarılmasında, yaradıcı və analitik düşünmə qabiliyyətlərinin formalaşmasında mühüm rol oynadığını söyləyib.

Fuad Qarayev olimpiada və müsabiqələrin ölkədə istedadlı şagirdlərin aşkarlanması və dəstəklənməsi baxımından əhəmiyyətindən danışıb, bu yarışların təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyini və gələcək uğurlar üçün mühüm zəmin yaratdığını vurğulayıb.

Daha sonra qaliblərə diplom və mükafatlar təqdim olunub. Mərasimdə 3 və 8 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin ifasında kompozisiyalar nümayiş etdirilib.

***Əli SADIQOV***
***XQ***

# Roma Papası Azərbaycana dəvət edilib

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycandakı dini konfessiya nümayəndə heyəti fevralın 9-da Vatikanda bir sıra görüşlərdə iştirak edib. Nümayəndə heyəti əvvəlcə Roma Papası XIV Leo ilə görüşüb.**



Qonaqları salamlayan Papa XIV Leo Azərbaycandakı dini konfessiyaların birgə səfərini sülh və insan qardaşlığı nümunəsi kimi dəyərləndirib.

A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın salamlarını çatdırıb, Azərbaycan–Vatikan əlaqələrinin yüksək səviyyəsini vurğulayıb. O, Vatikanda nümayəndəliyin təsis olunmasının bu prosesə töhfə verəcəyini bildirib.

Şeyxülislam Bakıda inşa olunan ikinci katolik kilsəsinin açılışında Papa XIV Leonun da iştirakını arzulayıb. Həmçinin 2027-ci ildə Azərbaycan–Vatikan diplomatik münasibətlərinin 35 illiyi və Heydər Əliyev ilə Papa II İohann Pavelin ilk görüşünün 30 illiyi münasibətilə Roma Papasını ölkəyə dəvət edib. Bununla əlaqədar Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurası adından dəvət məktubu XIV Leoya təqdim olunub.

Görüş zamanı Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Yepiskop Vladimir Fekete Azərbaycandakı dinlərarası münasibətlərin yüksək səviyyəsindən danışıb.

Nümayəndə heyəti, həmçinin Vatikanın dövlət katibi Kardinal Pyetro Parolin və Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti ilə də görüşüb.

***XQ***

# Azərbaycan–ABŞ enerji əməkdaşlığı müzakirəsi



**ABŞ Ticarət Palatasının Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi biznes missiyası çərçivəsində energetika naziri Pərviz Şahbazovun rəhbərliyi və SOCAR, “Azərenerji” ASC, “Azərişıq” ASC, “Azəristiliktəchizat” ASC, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin iştirakı ilə dəyirmi masa keçirilib.**

Söhbət zamanı Azərbaycan–ABŞ enerji tərəfdaşlığından məmnunluq ifadə edilib. Bildirilib ki, bu tərəfdaşlıq təkcə milli layihələrin deyil, eyni zamanda, regional və beynəlxalq enerji təhlükəsizliyi layihələrinin uğurla reallaşdırılmasına mühüm töhfə verib. ABŞ şirkətlərinin texnologiyaları, təcrübəsi və investisiyaları iri transmilli enerji layihələrinin formalaşmasında həlledici rol oynayıb.

Dövlət başçılarının regionda sülhü təmin edən və Azərbaycan–ABŞ münasibətlərini strateji tərəfdaşlıq əsasında möhkəmləndirən siyasətinin enerji əməkdaşlığının inkişafına da təkan verdiyi vurğulanıb. Azərbaycanın bütün enerji növlərini bərabərhüquqlu əsasda inkişaf etdirməsi, regional enerji bağlantılarını şaxələndirməsi, enerji təchizatçısı rolunu elektrik enerjisi ilə genişləndirməsi və enerjinin mühüm bir hisssəsinin məlumat mərkəzlərinin tələbatına yönəldilməsi ilə bağlı kursu diqqətə çatdırılıb. Bununla yanaşı, neft, qaz, bərpaolunan enerji, elektrik enerjisi, hidrogen və enerji səmərəliliyi sahələrində əməkdaşlıq imkanları müzakirə edilib.

Dəyirmi masa ətrafında söhbətlərdə, SOCAR və “ExxonMobil” arasında əməkdaşlığın cari vəziyyəti nəzərdən keçirilib. Həmçinin Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında elektrik enerjisi dəhlizlərinin icrası, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” üzərindən elektrik enerjisinin nəqli və bu layihələr çərçivəsində ABŞ şirkətləri ilə əməkdaşlıq perspektivləri dəyərləndirilib. Azərbaycan və ABŞ arasında enerji sahəsində texnologiya, bilik, təcrübə və investisiya istiqamətlərində əməkdaşlığa qarşılıqlı maraq nümayiş etdirilib.

Qeyd edək ki, nümayəndə heyətinə “Apple”, “Ardea Energy Technologies Inc.”, “Ericsson AB”, “ExxonMobil”, “Herbalife”, “Illumina”, “Meta”, “Visa”, “Wabtec”, “Baker Hughes”, bp, “Boeing Global”, “Honeywell”, “J.P. Morgan”, “Lummus Technology”, “Marriott”, “Mastercard”, “Shell International”, “Motorola Solutions”, “Fuji Engineering”, “Global Data Risk”, “Hill International”, “Lummus Technology”, “Straife” və digər şirkətlərin rəhbər şəxsləri daxildir.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ruben Vardanyanın məhkəmə baxışı başa çatıb

## *Hakimlər müşavirədən qayıtdıqdan sonra hökm elan olunacaq*

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi fevralın 10-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Sədrlik edən xatırladıb ki, keçən məhkəmə prosesində dövlət ittihamçıları çıxış ediblər. Z.Ağayev bildirib ki, indi söz zərərçəkmiş tərəfə veriləcək.

Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edib. O, ittiham tərəfindən təqdim edilmiş, o cümlədən ittiham aktında qeyd olunmuş bütün faktlarla, dəlillərlə, sübutlarla razı olduğunu söyləyib və bunun nəzərə alınmasını məhkəmədən xahiş edib.

Daha sonra zərərçəkmiş şəxslərin hüquqi varisləri Azad Kərimov, Oqtay Şıxəliyev, Qədim Ağaxanov, Faiq Rüstəmov, Şiraslan Həsənov çıxış edərək təqsirləndirilən şəxsin ən ağır cəzaya - ömürlük həbsə məhkum edilməsini məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxs R.Vardanyan məhkəməyə müraciət edərək müdafiəçisi Emil Babışovla danışmaq istədiyini bildirib. Məhkəmə onun vəsatətini təmin edib. Təqsirləndirilən şəxsin vəkili ilə görüşməsinə görə məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra çıxış üçün söz müdafiə tərəfinə verilib. Söz alan təqsirləndirilən şəxs fasilə zamanı vəkili ilə danışdığını, onun çıxış etməsini istəmədiyini söyləyib.

Söz təqsirləndirilən şəxsin vəkili E.Babışova verilib. Müdafiəçi çıxışında elan olunmuş ittihamla qəti şəkildə razı olmadıqlarını bildirib. O, iş üzrə təqsirləndirilən şəxsin mövqeyini əsas götürərək cinayət işi ilə əlaqədar müdafiə nitqi ilə çıxış etməkdən imtina etdiyini söyləyib.

Ardınca müdafiəçinin çıxışına münasibət bildirmək üçün söz ittiham tərəfinə verilib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev deyib: “Müdafiəçinin təqsirləndirilən şəxsin mövqeyinə uyğun olaraq hər hansı arqumentlərə, sübutlara, faktlara qiymət verməməsini nəzərə almaqla əlavə fikrimiz yoxdur”.

Sonra R.Vardanyana söz verilib. Təqsirləndirilən şəxs son söz çıxışında konkret məsələlərlə bağlı yox, ümumi sözlərlə danışıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsini oxuduğunu söyləyib. Təqsirləndirilən şəxs çıxışında, həmçinin saxlanıldığı 2 ildən artıq müddətdə özü üçün Azərbaycan poeziyasını kəşf etdiyini deyib. R.Vardanyan Azərbaycanın dahi şairləri Məhəmməd Füzulinin şeirini və Hüseyn Cavidin poemasından bir hissəni rus dilində oxuyub. Bundan sonra o, çıxışını yekunlaşdırıb.

Zeynal Ağayev tərəflərə (ittiham və müdafiə tərəfi) müraciət edərək məhkəmə baxışının nəticələri əsasında yekun məhkəmə qərarının layihəsinin variantını təqdim edib-etməyəcəklərini soruşub.

Tərəflər yekun məhkəmə qərarının layihəsini təqdim etməyəcəklərini bildiriblər.

Ardınca sədrlik edən məhkəmə baxışının başa çatdığını elan edib. Məhkəmə heyəti müşavirədən qayıtdıqdan sonra məhkəmə hökmü elan olunacaq.

Xatırladaq ki, ötən məhkəmə iclasında dövlət ittihamını müdafiə edən prokuror çıxış edərək təqsirləndirilən R.Vardanyanın ömürlük azadlıqdan məhrum olunmasını təklif edib.

***XQ***

# Göydələn sakinlərinin yerdə maşın saxlama dərdi

**Paytaxtda mənzil bazarı genişləndikcə, avtomobillərin saxlanılması problemi daha kəskin xarakter alır. Yeni inşa olunan çoxmənzilli binalarda mənzil sayı ilə yeraltı dayanacaq yerlər arasındakı tərs mütənasiblik binaların ətrafında avtomobil xaosu yaradır. Ekspertlərin fikrincə, bu vəziyyət tikinti şirkətlərinin çox vaxt mənfəəti parklanma rahatlığından üstün tutması ilə bağlıdır.**

## Yer çox – əlçatanlıq aşağı

Hündürmərtəbəli yaşayış binaları tikilərkən əksər hallarda avtopark yerlərinin sayı mənzil sayından xeyli az olur. Digər tərəfdən, bəzi inşaat şirkətləri tərəfindən təklif olunan parklanma yerlərinin satış qiymətlərində kəskin bahalaşma müşahidə edilir. Paytaxtın müxtəlif ərazilərində bir avtomobil yerinin satış qiyməti 10 min manatdan başlayaraq 80 min manatadək yüksəlir. Nəticədə parklanma problemi şəhərsalma məsələsi olmaqla bərabər, həm də sosial-iqtisadi yükə çevrilir.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, paytaxtın bəzi ərazilərində ucaldılan hündürmərtəbəli binaların alt qatındakı yeraltı avtomobil dayanacaqlarının qiyməti ölkənin bölgələrində orta statistik mənzil qiymətinə bərabərdir. Bu isə sakinlərin aylıq gəlirlərini bir neçə kvadratmetrlik beton sahəsinə xərcləmələri və ya hər axşam avtomobilini saxlamaq üçün yer axtarışına çıxmaları deməkdir. Qiymətlərin əlçatmazlığı yeraltı parklanmaların boş qalmasına, küçələrin isə iflic vəziyyətə düşməsinə gətirib çıxarır.

Alternativ olaraq avtomobillərin yol kənarlarında saxlanılması da ciddi xaos yaradır. Yaxın gələcəkdə inşa olunacaq çoxmənzilli yaşayış binalarında tələbat nəzərə alınaraq avtopark yerlərinin sayının artırılması sıxlığın qarşısının qismən alınmasına müsbət təsir göstərə bilər. Əks halda, binaların ətrafındakı yollar və piyada səkiləri məcburi parklanma funksiyasını yerinə yetirəcək. Başqa sözlə, hündürmərtəbəli binaların tikinti normalarında parklanma yerləri mənzil sayına uyğunlaşdırılmazsa, paytaxtın məhəllədaxili yollarında daha ağır vəziyyətin hökm sürəcəyi qaçılmazdır.

Mövzu ilə bağlı diqqətçəkən əsas məqamlardan biri çoxmənzilli binaların altındakı avtomobil dayanacaqlarının hüquqi statusudur. Mövcud qanunvericiliyə görə, belə binaların daxilindəki texniki zirzəmilər və ümumi istifadəyə xidmət edən digər sahələr paylı mülkiyyət hesab olunur. Mənzil Məcəlləsinin 35-ci maddəsinə əsasən, binanın alt qatındakı müəyyən obyektlər, o cümlədən mühəndis qurğuları yerləşən zirzəmilər və texniki avadanlıqlar sakinlərin ümumi paylı mülkiyyəti sayılır. Bu baxımdan, texniki mərtəbələrin satılması və ya icarəyə verilməsi qanunvericiliyə ziddir.

Hazırda sözügedən sahədə fərqli vəziyyət müşahidə edilir. Belə ki, əgər çoxmənzilli binanı məhdud məsuliyyətli cəmiyyət (MMC) tikibsə, buradakı texniki zirzəmi və avtomobil dayanacağı şirkətin mülkiyyətində qalır. Lakin bina mənzil-tikinti kooperativi (MTK) tərəfindən inşa olunubsa, alt qatdakı avtomobil dayanacaqları yalnız sakinlərin ümumi əmlakı hesab edilir. Təəssüf ki, bir çox hallarda bu norma pozulur və sakinlər tərəfindən parklanma yerlərinin onlara məxsusluğu ilə bağlı hüquqlar tələb olunmur.

Amma burada bir məqam da var. Ekspertlərin fikrincə, problemin dərinləşməsinin əsas səbəblərindən biri Mənzil mülkiyyətçiləri müştərək cəmiyyətlərinin (MMMC) kifayət qədər formalaşmamasıdır. Bu məsələnin həllinin yüksək səviyyədə gerçəkləşməsi isə çoxmənzilli binaların altındakı avtomobil dayanacaqlarının hüquqi statusunun təsdiqlənməsi deməkdir. Belə ki, hazırda əgər çoxmənzilli binanı məhdud



məsuliyyətli cəmiyyət (MMC) tikirsə, oradakı texniki zirzəmi, başqa sözlə, avtomobil dayanacağı da ona məxsus olur. Amma bina mənzil-tikinti kooperativi (MTK) tərəfindən inşa olunubsa, binanın alt qatındakı avtomobillərin parklanma sahəsi ancaq sakinlərin ümumi əmlakı sayılır. Təəssüf ki, bir çox binalarda buna əməl edilmir. Parklanma yerlərinin sakinlərə aid olması tələb edilmir.

## Bina sakinlərin – maşın parkı özgənin

Yeri gəlmişkən, MTK-nın tikdiyi həmin binalarda qanunvericilikdə nəzərdə tutulduğu kimi, Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyəti (MMMC) təsis olunarsa, kooperativ təşkilatı təhvil-təslim aktı ilə buradan uzaqlaşmalı, onun idarəetməsi sakinlər tərəfindən həyata keçirilməlidir. Belə halda binanın altındakı parklanma yerləri də sakinlərin istifadəsində qalar. Reallıq isə odur ki, MTK-lar çox zaman binanı sakinlərə təhvil vermək istəmir. Çünki kommunal vəsait hesabına böyük qazanc götürülür.

Əmlak məsələləri üzrə ekspert Aydın Qasımov bildirir ki, parklanma probleminin həllini yalnız tikinti şirkətlərinin məsuliyyətinə buraxılmamalıdır. Bu, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməlidir. Bunun üçün, ilk növbədə, şəhərin zonalarına görə parklanma normativləri müəyyən edilməlidir. Tikinti icazələri isə bu normativlərə tam uyğun layihələrə verilməlidir.

Bununla yanaşı, parklanma normativlərinin pozulmasına görə cərimələr və sanksiyalar artırılmalıdır. Eyni zamanda, yeraltı dayanacaqların ümumi əmlak statusu qanunvericilikdə daha konkret təsbit edilməlidir. Texniki zirzəmi və parklanma sahələrinin süni şəkildə "qeyri-yaşayış sahəsi" kimi rəsmiləşdirilməsinin qarşısı alınmalıdır. Parklanma yerlərinin satışına dair vahid hüquqi standartlar müəyyənləşdirilməlidir.

## Tənzimləmə zəruridir

Yuxarıda vurğulananlarla bərabər, parklanma bazarının tənzimlənməsi də diqqət mərkəzində saxlanılmalıdır. Dayanacaq yerlərinin qiymətlərinin süni şəkildə şişirdilməsinin qarşısını almaq üçün şəffaflıq mexanizmləri yaradılmalıdır. Alternativ model kimi parklanma yerlərinin satışdan daha çox uzunmüddətli icarə formasında təqdimatı təşviq edilməlidir. Nəhayət, rəqəmsal idarəetmə və smart yanaşmaya üstünlük verilməli, parklanma yerlərinin vahid elektron reyestri yaradılmalı, smart parkinq sistemləri tətbiq edilməli, real vaxt rejimində boş yerlərin göstərilməsi gerçəkləşdirilməlidir. Bütün bunlarla yanaşı, elektron ödəniş, parklanma müddətinin tənzimlənməsi məsələlərinin həlli də unudulmamalıdır.

Ekspertlər bildirirlər ki, bu gün paytaxtda tikilən yeni binaların bir çoxunda avtomobil dayanacaqları ya ümumiyyətlə yoxdur, ya da normativ tələblərə cavab vermir. Halbuki hər mənzil üçün ən azı bir avtomobil yeri nəzərdə tutulmalıdır. Bir sıra binalarda 200-300 mənzil olduğu halda, cəmi 30-40 maşınlıq dayanacaq mövcuddur. Nəticədə ara küçələrdə nəqliyyatın hərəkəti çətinləşir, avtomobillər kənar ərazilərdə saxlanılır və şəhər daxilində sıxlıq daha da artır.

Ümumi qənaət isə ondan ibarətdir ki, qanunvericiliyin tələbinə görə, yeni çoxmənzilli yaşayış binasının layihəsində hər mənzilə ən azı bir avtomobilin park olunması üçün yer ayrılmalıdır. Lakin reallıqda bu norma çox vaxt formal xarakter daşıyır. Paytaxtda yeni tikililərdə yaşayan sakinlərin ən çox şikayət etdiyi problemlərdən biri məhz parklanmadır. Müasir görünüşlü, komfortlu binalar ilk baxışdan rahat təsir bağışlasa da, bu yaşayış komplekslərinin daxilində avtomobil saxlamaq demək olar ki, mümkün olmur.

Ümumiyyətlə, ciddi normativ nəzarət mexanizmlərinin zəifliyi tikinti şirkətlərinə bu məsələni fərdi qaydada həll etmək imkanı yaradır. Yeraltı dayanacaqların inşası böyük investisiya tələb etdiyindən, bir çox şirkət parklanma sahələrini minimum həddə endirir və ya bu istiqamətə yatırım etmir. Nəticədə parklanma problemi gələcək üçün "ertələnmiş risk" kimi formalaşır.

## Xarici təcrübə necədir?

Dünya ölkələrinin təcrübəsi göstərir ki, parklanma problemi təkcə bazar mexanizmləri əsasında həll edilmir, bu, eyni zamanda, ciddi normativ və şəhərsalma siyasəti ilə tənzimlənir. Avropa İttifaqı ölkələrində yeni yaşayış binalarında parklanma normativləri şəhərin sıxlığı və ictimai nəqliyyatın inkişaf səviyyəsinə görə müəyyənləşdirilir. Məsələn, Almaniyada yaşayış binalarında hər mənzil üçün orta hesabla 1-1,5 parklanma yeri tələb edilir. Niderland və Danimarkada isə mərkəzi ərazilərdə bu norma daha aşağı, şəhər kənarında isə daha yüksək olur. Bu yanaşma ilə şəhər planlaşdırılmasında balansın qorunması gerçəkləşir.

ABŞ-da çoxmənzilli binalar üçün parklanma normativləri yerli bələdiyyələr tərəfindən müəyyən edilir. Bir çox ştatlarda tikinti icazəsi yalnız layihədə parklanma yerlərinin mənzil sayına uyğunluğu təsdiqləndikdən sonra verilir. Bundan əlavə, bəzi şəhərlərdə parklanma yerlərinin satışına deyil, yalnız icarəsinə üstünlük verilir ki, bu da dələduzluq yolu ilə qiymət artımının qarşısını alır. Sinqapur və Yaponiya kimi əhalinin sıx yaşadığı şəhərlərdə isə daha sərt model tətbiq edilir. Məsələn, Tokioda avtomobil almaq istəyən şəxsdən onun parklanma yerinə sahib olması ilə bağlı sənəd istənilir. Bu yanaşma ilə həm avtomobil sayının nəzarətdə saxlanılması, həm də şəhər daxilində xaosun qarşısının alınması problemi aradan qaldırılır.

Qardaş Türkiyədə isə 2018-ci ildən etibarən yeni tikililərdə parklanma normativləri sərtləşdirilib. İstanbul kimi böyük şəhərlərdə hər mənzil üçün minimum parklanma yeri tələbi artırılıb və bu norma tikinti icazəsinin əsas şərtlərindən birinə çevrilib. Bundan əlavə, yeraltı dayanacaqların ümumi mülkiyyət statusu qanunla daha dəqiq tənzimlənib.

Beləliklə, beynəlxalq təcrübə göstərir ki, parklanma problemi yalnız texniki məsələ deyil, həm də kompleks şəhər siyasətinin tərkib hissəsidir. Bunun həll üçün 3 əsas istiqamət – sərt normativ tələblər, şəffaf hüquqi mexanizmlər və ictimai nəqliyyatın inkişafı vacibdir. Bakıda isə parklanma məhdud coğrafi ərazidə özünü qabarıq büruzə verməklə yanaşı, sistemli şəhərsalma böhranının əlamətidir. Mənzil bazarının sürətli genişlənməsi, tikinti şirkətlərinin kommersiya maraqları və normativ nəzarətin zəifliyi bu problemi dərinləşdirir.

Mövcud vəziyyət həm də onu göstərir ki, parklanma məsələsi yalnız tikinti şirkətlərinin öhdəsinə buraxılarsa, gələcəkdə paytaxtın nəqliyyat infrastrukturu daha ağır yüklənmə ilə müşahidə olunacaq. Bu baxımdan, parklanma normativlərinin yenidən nəzərdən keçirilməsi, qanunvericiliyin icrasına real nəzarətin gücləndirilməsi, MMMC institutunun inkişaf etdirilməsi və beynəlxalq təcrübənin tətbiqi vacibdir. Əks halda, Bakı yaxın illərdə təkcə mənzil çatışmazlığı ilə deyil, parklanma böhranı ilə də üz-üzə qalacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elnur AZADOV,**
**inşaat eksperti**

Çoxmənzilli binalarda parklanma yerlərinin satılması, yaxud icarəyə verilməsi tikinti şirkətinin qərarından asılıdır. Adətən avtoparklar mənzil sayına uyğun gəlmir, ən yaxşı halda onun yarısı qədər olur. Çünki yeraltı parklanma infrastrukturunun inşası xeyli investisiya tələb edir.

Bəzi tikinti şirkətləri satış üçün nəzərdə tutulan avtoparkların alıcısının az olduğunu bildiyi üçün, ümumiyyətlə, böyük parklanma inşa etmir. Bununla da gələcəkdə bu problemin yaranacağı əvvəlcədən düşünülmür. Şirkətlər əsasən öz xərclərini və qazanc balansını qorumağa çalışır.

Bəzən layihələndirmə işini memarlar özləri həyata keçirirlər. Onlar bu sahədə texniki imkanları tam bilmədiklərinə görə qərarları öz düşüncələrinə əsasən verirlər. Nəticədə binalar istismara hazır olandan, məskunlaşma başa çatandan sonra parklanma problemləri üzə çıxır. Tikinti şirkətləri bu vəziyyətdən sui-istifadə edirlər. Parklanma yerləri məhdud olduğuna görə, şirkətlər onları kim daha çox pul təklif edirsə, həmin şəxsə satır və ya icarəyə verirlər.

Tikinti şirkətləri bazarda iki hüquqi statusda – MTK və MMC kimi fəaliyyət göstərirlər. Əgər bina MTK statusu ilə inşa olunubsa, binanın bütün hissələri bu qurumun balansına daxildir və vətəndaşların bu işlərdə iştirak və nəzarət hüququ var. Amma bina MMC statusu ilə tikilibsə, parklanma sahələri hüquqi olaraq şirkətin balansında qalır və satış, icarə, istifadə qaydalarını şirkətin özü müəyyənləşdirir.

Vətəndaşlar mənzil alarkən müqaviləyə xüsusi diqqət yetirməlidirlər. Sənəddə parklanma yerlərinin statusu, yəni icarə, satış və ya ümumi istifadəyə açıq olub-olmaması qeyd edilməlidir. Əks halda, sakinlər sonradan ciddi problemlərlə üzləşirlər.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdim. Belə ki, əgər binanın layihəsində zirzəmi sahəsi "qeyri-yaşayış sahəsi" kimi ayrılıbsa, başqa sözlə, şirkət həmin sahəni ayrıca obyekt kimi sənədləşdiribsə, onda vəziyyət fərqlidir. Yəni layihədə texniki zirzəmi əvəzinə, qeyri-yaşayış sahəsi nəzərdə tutulubsa, bu sahə üzrə çıxarış daha çox tikinti şirkətinin adına olur. Belə rəsmiləşdirmə isə o deməkdir ki, parklanma yerləri binanın ümumi əmlakına daxil deyil, inşa edən hüquqi şəxsə məxsus ayrı mülkiyyət obyektidir.

Bu halda isə şirkət həmin sahəni sonradan satmaq və ya icarəyə vermək üçün hüquqi baza əldə edir. Qanunvericilik baxımından sakinlər üçün ən etibarlı variant birincisidir, çünki ümumi əmlak toxunulmaz sayılır, lakin ikinci halda şirkət parklanma yerini öz xüsusi mülkiyyəti kimi satmaq hüququ qazanır. Parklanma yeri alan şəxs satıcıdan mülkiyyət hüququ sənədi (çıxarış və ya texniki pasport), notarial alqı-satqı müqaviləsi, əgər mövcuddursa, parklanmanın plan-ölçüsünü göstərən texniki sənədləri tələb etməlidir.

# Ünvanlı sosial yardım aztəminatlı ailələrə dövlət qayğısıdır

**Prezident İlham Əliyevin tapşırıqları əsasında son illər aparılan ardıcıl islahatlar sosial müdafiə sisteminin bütün istiqamətləri üzrə mühüm irəliləyişlərə imkan yaradıb. Bütün bunlar ölkəmizdə sosial inkişafın davamlı xarakter aldığını göstərir. Bu kontekstdə aztəminatlı ailələrin sosial rifahının yaxşılaşdırılması, gündəlik ehtiyaclarının ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü işlər aparılır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin icra etdiyi ünvanlı dövlət sosial yardımı proqramı aztəminatlı ailələrə dövlət qayğısının mühüm formasıdır. Ünvanlı yardım alan ailələrin sayı 2018-ci ilə nisbətən ötən dövrdə 2 dəfəyə yaxın artıb. 2026-cı ilin 1 yanvar tarixinə 76,1 min ailə (336 min nəfər ailə üzvü) ünvanlı yardımla təmin edilir. Eyni zamanda, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan ehtiyac meyarı 2018-ci ilə nisbətən 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləği 2018-ci ilə nisbətən 2,4 dəfə artaraq 175 manatdan 422 manata çatıb.

Prezident İlham Əliyevin sərəncamına əsasən, ötən ilin dekabr ayında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 30 dekabr tarixinə ünvanlı sosial yardım alan ümumilikdə 76 min 103 ailənin hər birinə (337 min 932 nəfər ailə üzvü) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən 200 manat birdəfəlik maddi yardım ödənilib.

Qeyd edək ki, son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar çərçivəsində bu sosial yardım proqramı təkmilləşdirilib. Bəs, ünvanlı sosial yardım almaq üçün müraciət proseduru necədir, hansı şərtlər tələb olunur? Hansı ailələrə yardım verilir və məbləği necə müəyyənləşdirilir?



**Nazirliyin İctimai Şurasının sədri Elşad Məmmədov** bildirdi ki, ünvanlı sosial yardım alınması üçün müraciət forması son illər xeyli sadələşdirilib. Sosial yardımın alınması üçün ailə tərkibi haqqında elektron qaydada müraciət olunur və ərizə bəyannamədə ailə tərkibi, gəlirləri, əmlakı barədə qeyd edilən məlumatlar müvafiq qurumların informasiya sistemləri və ehtiyatları ilə xüsusi proqram təminatı vasitəsilə uzlaşdırılaraq yoxlanılır.

Bu zaman gəlirlərin ailənin adambaşına ehtiyac meyarından aşağı və yuxarı olması müəyyən edilir. Sosial yardım üçün müraciətdən əvvəlki son 12 ay ərzində orta aylıq gəliri aşağıdakı səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının (2026-cı il üçün 300 manat) məcmusundan aşağı olan aztəminatlı ailələr sosial yardım almaq hüququna malikdirlər. Yardım təyin edilərkən ailə üzvünün əmək qabiliyyətini itirməsi, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulması əlilliyi olan uşağa və ya 8 yaşına çatmamış uşağa qulluq etmə, ailənin əmək qabiliyyətli 23 yaşadək üzvünün əyani oxuması, ailənin əmək qabiliyyətli üzvünün işsizlikdən sığorta ödənişi alması, ailə üzvünün vəfat etməsi, ailə üzvünün məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, ailə üzvünün azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması kimi məsələlər nəzərə alınır.

Ərizə-bəyannamədə qeyd edilmiş məlumatlar e-sistem tərəfindən bir çox qurumların informasiya bazalarındakı məlumatlar əsasında avtomatik qaydada yoxlanılarkən məlumatlarda uyğunsuzluq aşkar olunmadığı halda ailənin məişət şəraiti yoxlanılır. Yekunda yardımın təyin edilib-edilməməsi barədə elektron qaydada qərar qəbul edilir və bu barədə ailənin təmsilçisinə məlumat göndərilir. Onu da vurğulayım ki, son illər ünvanlı yardımın təyinatı şərtləri xeyli yumşaldılıb. Məsələn, artıq ailənin götürdüyü kredit ünvanlı sosial yardım təyinatına maneə yaratmır. Yaxud müraciət edən ailənin adambaşına düşən kommunal-rabitə xərclərinin orta aylıq məbləğinin ölkə üzrə yaşayış minimumuna nisbəti əvvəllər 10 faizdən çox olmamalı idisə, indi bu nisbət 15 faizə çatdırılıb.

Bu tədbirlərin davamı olaraq, 2024-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ünvanlı yardım" elektron sistemi yenidən qurulmaqla ünvanlı sosial yardım proqramına müraciət proseduru daha da təkmilləşdirilib. Yəni ünvanlı



yardım üçün müraciət edən şəxslərdən ərizə bəyannamədə ailə üzvlərinin pensiya, müavinət, təqaüd, kompensasiya, işsizlikdən sığorta ödənişi almaları, əməkhaqqı üzrə gəlirlər, tələbə, şagird, işsiz, keçmiş məcburi köçkün, hərbi xidmətdə, cəzaçəkmə müəssisəsində olması, daşınmaz əmlakı, torpaq pay mülkiyyəti, sahibkarlıq fəaliyyəti, nəqliyyat vasitəsinin olması, kommunal xərcləri, telefon nömrələri, əlilliyinin olması, əlilliyi olan şəxsə, 3 yaşadək uşağa qulluq etməsi və s. məlumatların qeyd edilməsi tələb olunmur.

Bu məlumatların müvafiq qurumların informasiya sistemlərindən əldə olunduğunu deyən Elşad Məmmədov qeyd etdi ki, ünvanlı yardım almış ailə yardım üçün təkrar müraciət etdikdə əgər ailə tərkibi və yaşayış ünvanı dəyişməyibsə, ailədə ailə başçısını itirməyə görə pensiya və ya müavinət alan, I dərəcə, yaxud II dərəcə əlilliyi olan iki və daha çox ailə üzvü, üç və daha çox uşaq varsa, həmin ailənin maddi-məişət şəraitinin müayinəsi aparılmadan da yardım təyin olunub-olunmamasına dair qərar verilir.

Ünvanlı sosial yardım almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur. Bir il ərzində ünvanlı sosial yardım almış ailə yenidən müraciət edə bilər. Ünvanlı dövlət sosial yardım proqramı aztəminatlı ailələrdəki uşaqların effektiv sosial müdafiəsinə təminat yaradır. Təsadüfi deyil ki, bu gün ünvanlı dövlət sosial yardımı təyin edilmiş ailələrin üzvlərinin yarıdan çoxu uşaqlardır.

Hazırda aparılan sosial siyasət cəmiyyətin hər bir fərdini əhatə edir. Bu siyasət ölkə vətəndaşının rifahının yaxşılaşdırılmasını, sosial cəhətdən həssas qrupların, aztəminatlı ailələrin etibarlı sosial müdafiəsini təmin edir. Məsələn, özünüməşğulluq proqramı vasitəsilə ötən dövrdə 100 mindən çox şəxs üçün kiçik ailə təsərrüfatları yaradılıb.

***Mustfi dK AMAL***
***XQ***

# Peşə seçimi – gənclərin tale yolu

## *Övladımızı elə sahəyə yönəldək ki, gələcəkdə işsiz qalmasın*

**Bəşəriyyət əmək bazarı tarixində bənzəri görünməmiş keçid mərhələsinə qədəm qoyub. Texnologiyanın inkişafı peşələrə olan tələbləri də davamlı olaraq dəyişir. Son bir əsrdə elmi-texniki yeniləşmə tarixin digər dövrləri ilə müqayisədə görünməmiş sürətlə gedir. Bu isə bir sıra yeni peşələrin yaranmasına, bir çoxunun isə sıradan çıxmasına səbəb olub. Eyni zamanda, bu inqilabi keçid, sadəcə, texnoloji sahə ilə məhdudlaşmır, elmi, sosial, mədəni, ekoloji və iqtisadi sferaları da əhatə edir.**

Ənənəvi peşələri sürətlə avtomatlaşdırma və süni intellektlə dəstəklənən yeni sahələr əvəz edir. Əvvəlki sənaye inqilabları fiziki gücü maşınlarla əvəz etdiyi halda, müasir rəqəmsal transformasiya insanın intellektual fəaliyyətini, yaradıcılığını və qərarvermə funksiyalarını ön plana çıxarır.

Mövcud şəraitdə valideynlər üçün peşə seçimi sadəcə bir qərar deyil, övladının sürətlə dəyişən dünyada öz yerini tapması və potensialını reallaşdırması üçün mühüm strategiyadır.

Övladlarımızın gələcəyini planlayarkən onları sadəcə bugünkü populyar və ya yüksək gəlirli peşələrə yönləndirmək kifayət deyil. Çünki rəqəmsal sahədəki dinamik dəyişikliklər bu gün vacib olan meyarların gələcək üçün eyni dərəcədə əhəmiyyətli qalacağını şübhə altına qoyur. Əsas hədəf uşaqların fərdi istedadı ilə gələcəyin tələblərinin kəsişmə nöqtəsini tapmaqdır. Öz təbii potensialını müasir texnologiyalarla sintez etməyi bacaran gənclərin gələcəyin qeyri-müəyyən mühitində lazımlı mütəxəssislərə çevrilmə ehtimalı daha yüksəkdir.

Görünən odur ki, köhnə təhsil sisteminin "bir diplomla ömür boyu karyera" dövrü artıq geridə qalır. İndi ömür boyu fasiləsiz öyrənmə və özünü yeniləmə zamanıdır. Gələcəyin uğurlu insanı təkcə öz işini yox, həm də psixologiyadan proqramlaşdırmaya qədər müxtəlif sahələri bilən geniş dünyagörüşlü şəxs ola bilər.

Dünyada və ölkəmizdə peşələrlə bağlı araşdırma apararkən bir çoxunun texniki peşələr olduğunu görürük. Daim inkişaf edən texnologiya özünəməxsus tendensiya yaradır. Bu da perspektivli peşələrə sahib olmaq üçün ən son rəqəmsal texnologiyanı bilmək və onlardan istifadə etmək bacarığı tələb edir. Hələ bir neçə il əvvəl dünyanın ən zəngin iş adamı, "Microsoft" şirkətinin yaradıcısı Bill Qeyts gələcəyin peşələri ilə bağlı danışarkən "yenidən təhsil almaq kimi fürsətim olsaydı, bu üç sahədən birinə üstünlük verərdim" deyərək yaxın gələcəkdə süni intellekt, enerji və biologiya kimi elmi sahələrin inkişaf edəcəyini vurğulamışdır. Onun fikrincə, "dünya süni intellekti yenicə dərk edib. Biz başa düşdük ki, bu texnologiya sayəsində insanların həyatına daha çox məhsuldarlıq və yaradıcılıq gətirə bilərik. İkinci sahə enerjidir. Dünya yeni enerji mənbələri kəşf edir və biz daha təmiz, daha dayanıqlı enerjinin indi dünya üçün əvəzolunmaz olduğunu görürük. Üçüncüsü, insanlara daha uzun və sağlam həyat vəd edən biotexnologiya sahəsidir ki, istər-istəməz gələcəkdə maraq artacaq sahələrdən biridir".

**Müsahibimiz iqtisadçı-ekspert Eldəniz Əmirov texnoloji tərəqqinin əmək bazarındakı sürətini və peşələrin gələcəyini analiz edərək bu prosesdəki fundamental fərqləri izah etdi:**



– Bəşəriyyət tarixində peşələrin yaranması və yox olması yeni hadisə deyil. Bu proses 100, hətta 1000 il əvvəl də baş verirdi. Lakin dövrümüzün əsas fərqi peşələrin yoxolma sürətidir. Əvvəllər bir peşənin sıradan çıxması üçün bir əsr lazım idisə, bu gün həmin müddət 10 ilə qədər qısalıb. Yəni əsas məsələ peşələrin davamlılıq müddətinin kəskin şəkildə azalmasıdır. Bu mənada biz bir növ zamanla yarışırıq.

Fiziki gücə və əl əməyinə əsaslanan bir çox köhnə sahələrin sıradan çıxacağı birmənalıdır. Gələcəyin perspektivli sahələrini və süni intellektlə sintez olunmuş yeni peşə istiqamətlərini proqnozlaşdıran yeni iqtisadi model formalaşır ki, burada insan amili və maşın öyrənməsi ayrılmaz vəhdət təşkil edir. Mən hər hansı peşəni tamamilə perspektivsiz adlandırıb, həmin sahədə oxuyan gəncləri demotivasiya etmək istəməzdim. Hüquq, iqtisadiyyat, texnologiya və tibbin ayrı-ayrı istiqamətləri hər zaman ən yüksək səviyyədə qalacaq. Sadəcə, bu sahələr zaman keçdikcə şaxələnəcək və onlarla alt peşəyə bölünəcək. Gələcəyin ən güclü mütəxəssisi isə məhz süni intellektlə işləmək bacarığını öz peşəsi ilə birləşdirə bilən şəxs olacaqdır.

**Ekspert bəzi tanınmış simaların radikal proqnozlarına münasibət bildirərək insan amilinin, xüsusilə tibb sahəsində əvəzedilməz mövqeyinə də toxundu:**

– Məsələn, İlon Mask deyirdi ki, uşaqlarınızı həkim peşəsinə istiqamətləndirməyin, çünki süni intellekt və robotlar bu peşəni əvəz edəcək. Lakin bu, Maskın öz ambisiyalarını reallaşdırmaq üçün ortaya atdığı populist iddiadan başqa bir şey deyildi. Həkim peşəsinin yoxa çıxması heç vaxt mümkün deyil. Çünki süni intellekti də, robotu da mütləq şəkildə idarə edən və təkmilləşdirən insan lazımdır. İnsan orqanizmi o qədər mürəkkəbdir ki, süni intellekt həkim olmadan xəstəyə müdaxilə edə bilməz. Burada söhbət insanın əhvali-ruhiyyəsi, ağrıları, hissiyyatı və digər bu kimi məsələlərdən gedir.

**Təhsil eksperti Şəmsi Qocayev XXI əsrdə əmək bazarındakı transformasiyanı və süni intellekt texnologiyalarının rolunu təhlil edərək bu sahədəki perspektivlərdən danışdı:**



– Hər dövrün öz prestijli sahələri olduğu kimi, XXI əsr də süni intellekt və kompüter texnologiyaları dövrüdür. Hazırda bu texnologiyalarla işləyən mütəxəssislərə tələbat hər zamankından daha yüksəkdir. Bu tendensiya artan xətt üzrə davam edəcək. Bir çox ölkələrdə texnoloji tərəqqi nəticəsində insan əməyinin maşınlarla əvəz olunması artıq reallığa çevrilib. Lakin burada bəzi xidmət sahələri istisnadır. Xüsusilə avtomobil sənayesi və buna bənzər texniki xidmət sektorları hər zaman öz aktuallığını qoruyacaq. Bu kimi sahələrə həmişə ehtiyac olacaq.

Elmi müstəvidə süni intellekt texnologiyaları üzrə ixtisaslaşan mütəxəssislərin həm sayı sürətlə artacaq, həm də onların apardığı tədqiqatların qlobal əhəmiyyəti yeni mərhələyə qədəm qoyacaq.

**Ekspert yeni nəslin texnoloji mühitə təbii uyğunlaşma qabiliyyətindən söz açaraq bu prosesin onların gələcək karyerasında həlledici rol oynadığını söylədi:**

– Müasir gəncliyə gəldikdə isə, onlar artıq bu rəqəmsal mühitdə doğulublar. Texnologiya dövründə böyüyən nəsil, 30-40 il əvvəlki nəsillərdən köklü şəkildə fərqlənir. Kompüter texnologiyaları onların həyatına o qədər sirayət edib ki, artıq gənclərin qavrayış tərzi və adaptasiya sürəti tamamilə təbii xarakter daşıyır. Onlar öz zəmanələrinin insanı kimi yetişirlər. Bu sahədə irəliləyən və özünü inkişaf etdirən şəxslər üçün gələcəkdə perspektivlər hədsiz dərəcədə genişdir.



**İnsan resursları üzrə ekspert İlkin Məcidov əmək bazarındakı yeni reallıqları və valideynlərin bu prosesdəki rolunu təhlil edərək gələcəyin mütəxəssis modelini belə xarakterizə etdi:**

– Həqiqətən də, texnologiyanın sürətli inkişafı fonunda əmək bazarı ciddi şəkildə transformasiya olunur. Avtomatlaşdırma, süni intellekt və rəqəmsallaşma nəticəsində bəzi ənənəvi peşələr əvvəlki əhəmiyyətini itirir, eyni zamanda, yeni ixtisaslar və bacarıqlar ön plana çıxır. Bu qeyri-müəyyənlik övladlarının iş həyatında çətinlik çəkməsindən qayğılanan valideynlərin düzgün strateji sahə seçmək məsuliyyətini və təşvişini daha da artırır. Mövcud reallıq göstərir ki, artıq təkcə "diplomlu olmaq" kifayət etmir. Əsas məsələ çevik düşünmək, öyrənməyi bacarmaq və dəyişən şərtlərə uyğunlaşmaqdır.

**Gələcəyin perspektivli sahələrini sadalayan ekspert peşə seçimində fərdi maraqların həlledici rol oynadığını xüsusi vurğuladı:**

– Gələcəyin əmək bazarında İT, data analitikası, süni intellekt, kibertəhlükəsizlik, mühəndislik və bərpaolunan enerji kimi texnoloji sahələrlə yanaşı, təhsil, səhiyyə, psixologiya və yaradıcılıqla əlaqəli peşələrə də tələbat artacaq. Lakin övladınızı yalnız "trend olan" sahəyə deyil, onun maraq və bacarıqlarına uyğun istiqamətə yönəltmək daha doğrudur. Sevdiyi işlə məşğul olan gənc həm sürətlə inkişaf edir, həm də özünü təkmilləşdirməyə motivasiyalı olur ki, bu da gələcəkdə işsizlik riskini minimuma endirir.

**İlkin Məcidov valideynlərə övladlarının inkişafı üçün konkret istiqamətlər təklif edərək bu prosesdəki düzgün yanaşma metodlarından danışdı:**

– Valideynlərə tövsiyəm odur ki, övladlarında erkən yaşlardan analitik düşünmə, problem həlletmə, ünsiyyət, rəqəmsal savadlılıq və xarici dil bacarıqlarının formalaşmasına dəstək olsunlar. Çünki gələcəyin peşələri konkret bir ixtisasdan daha çox məhz bu universal bacarıqlar üzərində qurulacaq. Nəticə olaraq demək olar ki, gələcək "bir peşə – bir ömür" deyil, "ömür boyu öyrənmə" dövrüdür. Biz övladlarımızı idarə etməyə çalışmaqdansa, onların inkişafı üçün şərait yaratmalıyıq. Yalnız fərdi potensialını süni intellekt və digər texnoloji imkanlarla birləşdirə bilən gənclər gələcəyin rəqabətli mühitində uğurlu mütəxəssis kimi fəaliyyət göstərə biləcəklər.



Mütəxəssislərin də fikirlərindən belə qənaətə gəlmək olur ki, gələcəyin əmək bazarı bizdən sadəcə ixtisas sahibi olmağı deyil, həm də dəyişikliklərin mərkəzində dayanan "çevik insan" olmağı tələb edir. Lakin texnologiya nə qədər sürətlə inkişaf etsə də, insan amili, empatiya və yaradıcı təfəkkür əvəzolunmazlığını və unikallığını qoruyur. Valideynlərin üzərinə düşən ən böyük vəzifə isə övladlarını bədbin proqnozlarla ruhdan salmaq deyil, onları yeni dünya nizamına adaptasiya etməkdir. Unutmamalıyıq ki, gələcəyin uğurlu şəxsiyyəti süni intellektlə rəqabət aparan yox, onun imkanlarından istifadə edərək bəşəriyyətə fayda verə biləcək mütəxəssis olmalıdır. Övladlarımıza ötürə biləcəyimiz ən dəyərli miras isə diplom deyil, davamlı öyrənmə vərdişi və dəyişən şəraitə uyğunlaşmaq bacarığıdır.

***Elenora HƏSƏNOVA***
***XQ***

---

*Epidemioloji durum*

# Yoluxmalar artır – qorunma zəruridir

**"Bu günlərdə mövsümi virus infeksiyaları geniş yayılıb. Demək olar ki, hər gün ətrafımızda bu və ya digər virus xəstəliyinə yoluxan insanların artdığını görürük. Xəstələnənlərin sayı getdikcə çoxalır. Epidemioloji durum həm uşaqlar, həm də böyüklər üçün təhlükəli hala çatıb".**

"Leyla" klinikasının aparıcı pediatrı Sahib Cəfərov mövcud epidemioloji vəziyyətlə bağlı "XQ"yə bu açıqlamasının davamında dedi ki, xüsusilə hava şəraitinin dəyişkənliyi, temperatur fərqləri və immun sisteminin zəifləməsi virusların daha sürətlə yayılmasına şərait yaradır. Nəticədə tənəffüs yolları infeksiyaları, qripəbənzər əlamətlər və ümumi halsızlıq halları daha tez-tez qeydə alınır. Bütün bunlar təcili və təxirəsalınmaz xidmətə edilən müraciətləri də çoxaldıb.

***– Doktor, bəs özümüzü mövsümi virus infeksiyalarından necə qoruyaq?***

– Virus infeksiyalarının ilboyu yayılması, xüsusilə də noyabrdan başlayaraq artan dinamikada təzahürü məntiqi görünür. Çünki qrip – influenza, xüsusilə A forması yenidən peyda olur. Qripin 2 mindən çox ştammı var. Qarşıdakı illərdə qrip pandemiyasının olma ehtimalı da elmi proqnoz olaraq ÜST-ün xəbərdarlığı kimi qeyd olunmuşdur.

Bu gün ölkəmizdə qriplə yanaşı, SARS-2 virusunun Omicron ştamının mutasiya variantları davam etməkdədir. Bununla yanaşı, respirator sinsitial virus, metapnevmovirus da yayılmışdır. Bunlar hava-damcı yolu ilə yoluxduğundan yayılma potensialı böyükdür. Bu respirator virus infeksiyaları analoji əlamətlərlə – öskürmə, asqırma, zökəm, yüksək hərarət, bel, əzələ və başağrıları, ümumi halsızlıq, zəiflik şikayətləri ilə özünü göstərir.

**Müsahibimiz onu da qeyd etdi ki, insanlar yoluxduğu ilk günlər buna əhəmiyyət vermədikdə ciddi fəsadlara səbəb ola bilir:**

– Xəstəlik aşağı tənəffüs yollarına nüfuz edərək ağciyər iltihabına, ödeminə, həyati vacib orqanların zədələnməsinə, interferonun düşük olduğu xəstələrdə immun sistemin tətiklənməsinə və aşırı immun və



humoral reaksiyalara səbəb ola bilər.

Viruslar həyatın qeyri-hüceyrəvi forması olduğundan onlar yaşamaq və artıb çoxalmaq üçün əvvəlcə hüceyrə daxilinə keçir, hüceyrənin resurslarından istifadə edib replikasiya edir, yəni artıb çoxalır, hər yeni yaranmış viriona isə yeni hüceyrə tələb olunur. Nəticədə, qısa müddətdə yüksək virulentli viruslar, xüsusilə böyük titrlə bədənə daxil olduqda orqanizmdə yaratdığı dağıdıcı proseslər o qədər sürətli olur ki, onlar həyatla bir araya sığmır. Bu isə ağır fəsadlara yol açır və ölümlə nəticələnir. Statistikaya görə, hər il dünyada qripdən 200 mindən 700–800 min nəfərə qədər insan tələfatı qeydə alınır.

**Həkim bu cür fəsadlardan uzaq olmağın yollarından da danışdı:**

– Respirator virus infeksiyaları ilə xəstələnmə xaricdə soyuqdəymə xəstəlikləri adlanır. Bu zaman xəstələrə ilk tövsiyə olunan vasitələr – insanlardan təcrid olunma, yataq rejimi, bol maye qəbulu, fiziki aktivliyin artırılması, vitaminli qidaların (meyvə-tərəvəzin) bol qəbulu kimi tədbirlərdən ibarətdir.

Hər bir şəxsin devizi bu olmalıdır: Xəstələnməmək və başqasını xəstələndirməməyə çalışmaq. Qapalı yerlərdə (ictimai nəqliyyatda, sinif otaqlarında, auditoriyada, toplantılarda və s.) maska taxmaq, insanlarla məsafə saxlamaq. Əlləri istənilən təmasdan sonra dezinfeksiya etmək və ya tez-tez isti suda sabunla bir neçə dəfə yumaq tövsiyə olunur. Belə dövrlərdə sağlam qidalanma da çox önəmlidir. Özbaşına müalicə aparılmamalıdır.

***– Virus infeksiyasında antibiotiklərin istifadəsinə münasibət son vaxtlar birmənalı deyil.***

– Təəssüflər olsun ki, antibiotiklərin virusa heç bir təsiri yoxdur. Əksinə, antibiotiklərin yan təsirləri bu halda daha zərərli ola bilər. İnsanlar bəzən bunun fərqinə varmırlar. Antibiotiklər həm də bədəndə immun sistemin apardığı mübarizəni zəiflədir, orqan və toxumaları, qaraciyəri bu antibiotiklərin mübadiləsi üçün əlavə yükləyir.

Təəssüf ki, apteklərin özlərində müraciət edənlərə bəzən antibiotik tövsiyə olunur, çarəsiz insanlar bununla tora düşmüş olurlar. Özbaşına müalicə etmək olmaz. Çünki hər orqanizmin öz xüsusiyyətləri, yanaşı problemləri ola bilər. Özbaşına müalicə yeni problemlərə yol açmış ola bilir.

Hərarəti dərhal salmağa çalışmaq lazım deyil. Bu orqanizmin mübarizə reaksiyasının təzahürüdür. Yüksək hərarət zamanı, xüsusən temperatur 38,5 dərəcədən yuxarı olan zaman parasetamol həblərindən istifadə edilə bilər. Bir də ki, həkim təyinatı ilə immun sistemə təkan verə bilən terapiya aparılması məsləhətdir. Bu müalicə müxtəlif infuziyalar, vitamin terapiyası ola bilər. İntoksikasiya zamanı bədəndə ən çox sərf olunan, utilizasiya olunan vitamin Askorbin turşusu, yəni C vitaminidir. Bu vitamin yüksəkdozalı Vitamin C 7,5 q. 50 ml infuziya üçün məhlul şəklində istehsal olunur və aptek şəbəkələrində də satılır.



Hazırda respirator infeksiyaların tüğyan etdiyi bir zamanda yüksəkdozalı Vitamin C 7,5 q. 50 ml infuziya gündə 1 dəfə olmaqla 3 gün müddətində ambulator istifadəsi daha məqsədəuyğun hesab edilə bilər.

Məlumdur ki, Vitamin C antioksidant və immunomodulyator vasitə kimi orqanizmin immun sisteminin xəstəliklərlə mübarizəsində ciddi resurs yaradır. Bir tərəfdən antiviral təsiri, digər tərəfdən, immun hüceyrələrin viruslara hücumunun effektini artırması respirator xəstəliklərlə mübarizədə etibarlı seçim imkanı deməkdir. Belə ki, yüksəkdozalı vitamin infuziya virusların artıb çoxalmasını dayandırır, nəticədə orqanizmdə mümkün qədər az hüceyrələr viruslar tərəfindən zədələnir, sağalma və bərpa prosesləri sürətlənir.

Nəzərə almaq lazımdır ki, virus infeksiyaları bir sıra hallarda sağaldıqdan sonra belə orqanizmdə dərin izlər buraxır. Bu proseslər yenidən virusa yoluxmağa şərait yaradır, xəstələrdə uzun müddət öskürək, burun axması, halsızlıq müşahidə olunur.

Qeyd etmək yerinə düşərdi ki, yüksəkdozalı Vitamin C 7,5 q. 50 ml infuziya tək respirator virus infeksiyasında deyil, bir çox patoloji hallarda da faydalıdır. Belə ki, orqanizmdə lövbər salmış herpes viruslarında yüksəkdozalı həmin vitamin infuziya virusun replikasiyasını tezliklə dayandırır və zədələnmiş hüceyrələrin bərpasını sürətləndirir.

Bununla yanaşı, allergik və iltihabi proseslərdə güclü antioksidant xüsusiyyəti sayəsində orqanizmdə toplanmış sərbəst radikalları neytrallaşdırır, hüceyrə stresini azaldır, damar endotelinin funksiyasını qoruyur, immun cavabı modulyasiya edir və allergik həssaslıq simptomlarını azaldır, xroniki yorğunluğu aradan qaldırır.

Təcrübələr onu göstərir ki, vitamin, eyni zamanda, onkoloji xəstələrin kombinə olunmuş müalicəsində və sonrakı reabilitasiyasında immun sistemə dəstək baxımından da faydalıdır.

***Z.BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 26 (30995) 11 fevral 2026-cı il, çərşənbə

İDMAN

## “Qarabağ”ın çətin qələbəsi



**Misli Premyer Liqasının XIX turunda “Şamaxı”ı doğma meydanda Ağdamın “Qarabağ” komandasını qəbul edib. Çətin hava şəraitində keçən qarşılaşma qonaqların qələbəsi ilə yekunlaşıb–2:1.**

Görüşün 14-cü dəqiqəsində meydan sahiblərinin heyətində Oruc Məmmədov hesabı açıb. 18-ci dəqiqədə Ağdam təmsilçisinin yarımmüdafiəçisi Joni Montiel cərimə zərbəsindən baxımlı qola imza atıb. 90+4-cü dəqiqədə isə Kamilo Duran ağdamlıların qələbə topunu vurub.

Bu nəticədən sonra “Qarabağ” 42 xalla ikinci, “Şamaxı” isə 23 xalla 8-ci sıradadır.

Günün ikinci oyununda “Neftçi” “Qəbələ”ni qəbul edib. Palms Sports Arenada keçirilən qarşılaşma 1:0 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb.

Xatırladaq ki, XIX turun daha əvvəl keçirilən görüşlərində “Sabah” “Araz-Naxçıvan”ı (4:1), “Zirə” “Sumqayıt”ı (3:2), “Turan Tovuz” “Karvan-Yevlax”ı (1:0) üstələyib, “İmişli” – “Kəpəz” görüşündə isə hesab açılmayıb.

## Lamiyə Vəliyevanın yeni ölkə rekordu



**Azərbaycan atleti Lamiyə Vəliyeva yeni ölkə rekordu müəyyənləşdirib.**

Azərbaycan Atletika Federasiyasından verilən məlumata görə, idmançı buna qapalı məkanda keçirilən 42-ci Azərbaycan çempionatında nail olub.

O, böyüklər arasında 200 metr məsafəyə qaçışda 24.64 saniyə nəticə göstərib.

## Kamandan oxatanlarımız Avropa Çempionatında




**Azərbaycanın kamandan oxatma üzrə milli komandası növbəti mötəbər qitə birinciliyinə yollanır. Seçmə komandamız fevralın 16-dan 21-dək Bolqarıstanın Plovdiv şəhərində keçiriləcək “Qapalı məkanda kamandan oxatma üzrə Avropa Çempionatı”nda ölkəmizi təmsil edəcək.**

Turnirdə Yaylagül Ramazanova, Fatimə Hüseynli, Məhəmmədəli Əliyev, Lalə Əbdürəhmanova, Nilufər Ağaməmmədli, Lalə İsmayılova, Yağmur Qurbanlı, Sərdar Vəliyev, Nurlan Rəhimli və Hüseyn Məhərrəmov güclərini sınayacaqlar.

Proqrama əsasən, milli komandamızın üzvləri fərdi, komanda və qarışıq (mixed) yarış növlərində mübarizə aparacaqlar.

## Dünya Kubokunda gimnast təmsilçilərimiz




**Bakıda keçiriləcək batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku, “AGF Trophy”də iştirak edəcək Azərbaycan batutçuları müəyyənləşib.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, yarışda ölkəmizi Maqsud Mahsudov, Mehdi Əliyev, Əli Niftəliyev, Hüseyn Abbasov, Selcan Mahsudova, Şəfiqə Hümbətova və Ayan Şabanova təmsil edəcəklər.

Gimnastlar turnirdə kişi və qadınların fərdi proqramında, qarışıq, qadın və kişi sinxron cüt kateqoriyalarında bacarıqlarını göstərəcəklər.

Dünya Kubokunda, həmçinin Qazaxıstan, Polşa, Türkiyə, ABŞ-dan olan və neytral idmançılar da iştirak edəcəklər.

Qeyd edək ki, turnir fevralın 21-22-də Milli Gimnastika Arenasında təşkil olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# 89 yaşlı “Neftçi”nin 59 il əvvəlki unudulmaz qələbəsi

**1937-ci ilin bir erkən bahar günü, martın 18-də həyata vəsiqə almış “Neftçi” Peşəkar Futbol Klubunun tezliklə 89 yaşı tamam olacaq və klub 90-cı, növbəti yubiley ilinə qədəm qoyacaq.**

Gördüyünüz foto 1967-ci il mayın 9-da lentə alınan gün isə klub 30 yaşında idi. Həmin axşam 40 min tamaşaçı 29-cu SSRİ çempionatında “Neftçi”nin Kutaisinin “Torpedo” komandası ilə görüşünə şahidlik etmək üçün kimi 50, 80 qəpiyə, kimi də 1 manat 20,1 manat 50 qəpiyə bilet alıb, Respublika stadionuna gəlməyinə peşman olmadı. Onlar evlərinə qonaqların qapısında gördükləri 3 cavabsız qolun hədsiz sevinci və həmyerlilərinin ifasında məzmunlu oyunun qızğın müzakirəsi ilə qayıtdılar.



Moskvalı Ümumittifaq dərəcəli hakim Vladimir Baraşkovun idarə etdiyi görüşdə hesabı birinci hissədə “Neftçi”nin hücumçusu Ruslan Abdullayev açdı, fasilədən sonra isə azarkeşləri Mübariz Zeynalov və Aleksandr Trofimovun qolları ayağa qaldırdı. Görüşdə qələbənin böyük hesabla (3:0) qazanılması onun sanbalını daha da artırdı.

Baş məşqçi Əhməd Ələsgərov komandasının uğuruna Gündüz Cəfərov (qeyd etmək yerinə düşər ki, bu qapıçı yaşıl meydanlarda çıxışlarını başa vurduqdan sonra jurnalistikaya keçib, fəaliyyətini o zaman əməkdaşı olduğum “İdman”–“Sport” qəzetlərində davam etdirdi), Nikolay Boqdanov, Vladimir Bruxti, Yaşar Babayev, Aleksandr Syomin (Ağasəlim Mircavadov, 18), Vyaçeslav Semiqlazov, Kazbek Tuayev, Aleksandr Trofimov, Valeri Hacıyev, Ruslan Abdullayev və Mübariz Zeynalovdan ibarət heyətlə sevindi.

Həmin çempionata Azərbaycan və Gürcüstan futbolçularının ikinci dövrə görüşü isə 22 min tamaşaçının iştirakı ilə sentyabrın 4-də Kutaisi Mərkəzi stadionunda keçirilmişdir. Bu dəfə daha gərgin mübarizə şəraitində davam edən oyunda kuybışevli (indi Samara) hakim N.Krılov “dinc” nəticə qeydə almış (1:1) və rəqiblər turnir cədvəlinə hərəyə 1 xal yazmışlar. Hesabı 15-ci dəqiqədə kutaisili Çitanava açmış, fasilədən sonra isə bakılı Valeri Hacıyev cavab topu vurmuşdur.

Komandamız bu dəfə belə heyətdə çıxış etmişdir: Sergey Kramarenko, Adil Babayev, Vladimir Bruxti, Yaşar Babayev, Aleksandr Syomin, Vyaçeslav Semiqlazov, Kazbek Tuayev, Nikolay Boqdanov (Ruslan Abdullayev, 55), Nikolay Smolnikov, Valeri Hacıyev, Mübariz Zeynalov.

“Neftçi” 19 komandanın mübarizə apardığı 29-cu çempionatda 36 oyunda 42 xal toplayaraq finişə 5-ci çatmışdır. Medallar isə dinamoçu həmklublara müvafiq surətdə Kiyev (54 xal), Moskva (49) və Tbilisi (45) kollektivlərinə təqdim olunmuşdur.

Kutaisi komandası ilə bir görüşümüz isə daha çox yadda qalıb. Bu oyun 1966-cı il mayın 19-da Bakıda keçirilib. Həmin il 28-ci SSRİ çempionatının bürünc mükafatçısı olmuş “Neftçi” rəqibinə yeddi cavabsız qolla qalib gəlib (7:0). Bu nəticə komandamızın bütün tarixi ərzində SSRİ çempionatlarının güclülər dəstəsində ən böyük hesablı qələbəsidir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Soydaşlarımız Gürcüstanın boks çempionlarıdır

**Soydaşlarımız Ramil İskəndərov və Emil İsmayılov boks üzrə Gürcüstan çempionu olublar. Bu barədə Diaspora İş üzrə Dövlət Komitəsi məlumat yayıb.**

Məlumata görə, Dmanisidən olan boksçu Ramil İskəndərov 90+ kq çəki dərəcəsində yarışaraq finalda rəqibi Emir Vazagovu məğlub edib.

Qardabanidən olan boksçu Emil İsmayılov isə 55 kq çəki dərəcəsinin final görüşündə rəqibi Giorgi Kilasoniyanı məğlub edərək çempion titulunu qazanıb.



*XQ*

## Zəhra Kərimzadənin güləş bürüncü

**Ötən həftə Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən reytinq turnirində ölkəmizi qadın güləşi üzrə millimiz təmsil edib.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 2024-cü ildə yeniyetmələr arasında dünya və Avropa üçüncüsü olan Zəhra Kərimzadə ilk dəfə böyüklərin yarışında fəxri kürsüyə qalxıb. 18 yaşlı güləşçimiz 72 kiloqramda bürünc medal qazanıb. 1/4 finalda olimpiya mükafatçısı, dünya və Avropa çempionu Buse Tosuna 0:2 hesabıyla məğlub olan Kərimzadə üçüncü yer uğrunda qarşılaşmada gənclər arasında dünya və böyüklər arasında Asiya çempionu Mahiro Yoşitakeyə (4:1) qalib gəlib.

Gənc güləşçi yarışla bağlı təəssüratını belə ifadə etdi:

–Böyüklər arasında keçirilən reytinq turnirində bürünc medal qazandığım üçün çox sevincli və qürurluyam. İlk görüşdə türkiyəli olimpiya mükafatçısı Buse Tosunla qarşılaşdım. Məğlub olsam da, ruhdan düşmədim. Bürünc medal uğrunda Yaponiya təmsilçisiylə güləşdim. Titullu rəqiblə qarşılaşacağımı bilirdim. Məşqçilərimiz məni psixoloji və taktiki cəhətdən görüşə yüksək səviyyədə hazırladı. Onların verdiyi motivasiya nəticəsində qarşılaşmaya tam hazır oldum. Mübarizəmiz gərgin keçdi. Sona kimi güləşdim və qalib gəldim. Üzərimdə əziyyəti olan baş məşqçimizə, federasiyamıza və şəxsi məşqçimə təşəkkür edirəm. İnşallah, növbəti yarışlarda bürünc medalı qızıl medalla əvəz edərəm.



*Qabil ƏLİYEV*
*XQ*

HAVA

## Qar yağacaq, bəzi yollar buz bağlayacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, 10-dan 11-nə keçən gecə və səhər bəzi yerlərdə sulu qar, qar yağacağı proqnozlaşdırılır. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 2-5 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Gecə və səhər bəzi şəhərətrafı yolların buz bağlayacağı ehtimalı var.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 3-6 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacaq.

Bəzi yolların buz bağlayacağı ehtimali var.

*Q.ƏLİYEV*
*XQ*

## “Mingəçevir-Bazar” QSC səhmdarlarının nəzərinə!

1 aprel 2026-cı il saat 12:00-da “Mingəçevir-Bazar” QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

1. “Mingəçevir-Bazar” Qapalı Səhmdar Cəmiyyətinin 2025-ci il maliyyə-təsərrüfat fəaliyyətinin təhlili
2. Səhmdarların müraciətlərinə baxılması
3. Digər məsələlər.

Səhmdarlardan ümumi yığıncağa şəxsiyyəti təsdiq edən sənədlə gəlmələri xahiş olunur.

*“Mingəçevir-Bazar” QSC-nin İdarə heyətinin sədri*

## “AĞDAŞ QUŞÇULUQ” ATSC səhmdarlarının nəzərinə!

31 mart 2026-cı il saat 11:00-da Ağdaş rayonu, Qaradağlı kəndi, cəmiyyətin inzibati ərazisində “Ağdaş Quşçuluq” Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid illik hesabatının müzakirəsi və təsdiqi.

**2.** Cəmiyyətin adının dəyişdirilməsi və nizamnaməsinin yeni redaksiyada təsdiqi.

**3.** Cəmiyyətin icra orqanının formalaşdırılması.

**4.** Cəmiyyətin balansında olan istismara yararsız əsas vəsaitlərin silinməsi və (və ya) özgəninkiləşdirilməsi məsələsinin müzakirəsi.

**5.** Cəmiyyətin fəaliyyətinin bərpası məqsədilə investisiyaların cəlb edilməsi məsələsinin müzakirəsi.

**6.** Cəmiyyətin istifadəsində olan torpaq sahəsinə dair icarə müqaviləsinin bağlanması və ya özəlləşdirilməsi məsələsinin müzakirəsi.

**7.** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyi üzrə materiallarla cəmiyyətin Ağdaş rayonu, Qaradağlı kəndində yerləşən inzibati binasında tanış olmaq mümkündür.

**Əlaqə telefonu:** *(050) 626-04-94.*

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

***✓ 2023-cü il iyunun 14-də Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən Quliyev Rafiq Əbdül oğlunun adına verilmiş DSX seriyalı, 0014682 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ Hərbi qulluqçu Muradov Elnur Allahverdi oğlunun adına verilmiş AD seriyalı, 0021308 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2000-ci ildə 2715 nömrəli Avtobaza tərəfindən Lənkəranın Liman şəhər sakini Seyidov Şaverən Daxil oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və Azər Sarıyev Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımova əzizi

**VƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2875
SİFARİŞ 210
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00